# Erməni cinayətləri

(sənədlər əsasında)

**I cild**

**Milli Təhlükəsizlik Nazirliyi**
Bakı - Vətən – 2004

Ön sözün müəllifi tarix elmləri doktoru,
Professor **Yaqub Mahmudov**

İdeyanın müəllifi və elmi redaktoru
Tarix elmləri namizədi **Məmməd Cəfərli**

Redaksiya heyəti:
**Lətif Babayev**
**Fuad Babayev**
**Taleh Sadıqov**
**Rəşad İbrahimov**

**Erməni cinayətləri (sənədlər əsasında)** - Bakı,
"Vətən", 2004. – 164 səh.

Kitabda Ermənistan Respublikası tərəfindən Azərbaycan Respublikasına qarşı həyata keçirilən təcavüzkar separatçılıq və dövlət terrorizmi siyasəti, erməni quldur birləşmələrinin həmsərhəd ərazilərdə,Vətənimizin işğal olunmuş Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda törətdiyi qanlı cinayətlər, dinc sakinlərin başına gətirilən olmazın fəlakətlər konkret faktlar və istintaq materialları əsasında öz əksini tapmışdır. İki yüz illik tarixə malik olan erməni cinayətkarlığının tam məğzinin bir kitabla əhatə olunması qeyri-mümkündür. Təqdim olunan kitabda (1-ci cild) erməni millətçiləri tərəfindən yalnız son 15-20 ildə törədilən cinayətin faktoloji mənzərəsi əks olunmuşdur. Bu mənada kitabın sonrakı cildində sənəd və materiallarda illərdən bəri öz məqamını gözləyən faktların təqdimatı ilə erməni cinayətlərinin təfərrüatları ilə işıqlandırılması nəzərdə tutulur. Kitab Dağlıq Qarabağ münaqişəsini araşdıran tədqiqatçılar və geniş oxucu kütləsi üçün maraq doğura bilər.

**Milli Təhlükəsizlik Nazirliyi, 2004**

**Erməni terrorçularının çirkin anatomiyası**
**("Erməni cinayətləri (sənədlər əsasında)"kitabına**
**ön söz**

Bu bir həqiqətdir ki, yaşadığımız son dərəcə mürəkkəb bir keçid dövründə, özü də Azərbaycan kimi Qərbi Şərqlə, Şimalı Cənubla əlaqələndirən və hamının göz dikdiyi strateji əhəmiyyətli bir məkanda Vətənin keşiyində duran Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının üzərinə çox ağır, ağır olduğu qədər də şərəfli məsuliyyət yükü düşür.

Son illərdə Milli Təhlükəsizlik Nazirliyimizin fəaliyyətinin əsaslı surətdə yenidən qurulması, bu şərəfli xidmət sahəsində Vətənin ən qeyrətli övladlarının, özü də ziyalı potensialının cəlb olunması hamıda, o cümlədən bir ziyalı kimi məndə, böyük qürur və razılıq hissi doğurur.

Məlumdur ki, hər bir millət öz təhlükəsizliyinin keşiyində özü durmalıdır. Bu baxımdan xalq öz tarixinə, o cümlədən ona qarşı müxtəlif yönlərdən yürüdülmüş təcavüzkar xarici siyasətlərin, terror və kütləvi soyqırımların tarixinə dərindən-dərinə bələd olmalıdır. Həmin sahədə isə, min təəssüflər olsun ki, son vaxtlara qədər lazımi tədqiqat işləri aparılmamışdır. Göstərilən çatışmazlıq, əlbəttə, milli təhlükəsizliyin qorunması sahəsində də ciddi çətinliklər yaradır. Məhz buna görə də son bir neçə il ərzində Milli Təhlükəsizlik Nazirliyin əməkdaşları tərəfindən aparılmış qiymətli araşdırmalar tarix elmimizin çox mühüm nailiyyəti hesab oluna bilər.

Bu baxımdan, haqqında bəhs etdiyimiz "Erməni cinayətləri (sənədlər əsasında)" kitabı erməni-daşnak quldurlarının Azərbaycan xalqına qarşı törətdikləri vəhşiliklərin geniş ictimaiyyətə çatdırılması sahəsində növbəti, həm də çox uğurlu addımdır. Çox böyük zəhmətin, humanizm duyğularının, eyni zamanda, qeyrət ruhunun nəticəsi olanda bu əsərdə erməni terrorçuluğunun çirkin anatomiyası bütün çılpaqlığı ilə ortalığa qoyulur.

"Erməni cinayətləri (sənədlər əsasında)" kitabı erməni separatçıları və terrorçularının qondarma "Dağlıq Qarabağ problemi"ni necə yaratdıqlarını sübut edən faktlar toplusudur, cinayətkarın anatomiyasını olduğu kimi əks etdirən aynadır. Kitabda tarixi ardıcıllıqla, adı-ünvanı verilən real faktlarla, silahla quldurların həyata keçirdikləri qəddar cinayət hadisələri ilə, azərbaycanlılara qarşı törədilən amansız soyqırımlarının dünyanın terrorçuluq mərkəzlərindən biri olan İrəvandan idarə olunması ilə, bu terror əməllərinin beynəlxalq terrorla bağlılığı ilə, dinc əhaliyə qarşı həyata keçirilən və tarixdə misli görünməmiş işgəncə "metodları" ilə tanış olduqca oxucuda bir qənaət hasil olur: "Erməni cinayətləri" əsəri gələcək nəsillər üçün çox qiymətli ilk mənbə, əvəzolunmaz tarix salnaməsidir.

"Erməni cinayətləri" kitabı, eyni zamanda, təkzib olunmaz ittiham aktıdır. Əsərdə verilən faktlar öz xarakterinə görə, eyni ilə daşnakların tarixi boyu

Cənubi Qafqaz, Şərqi Anadolu və Cənubi Azərbaycanın türk-müsəlman əhalisinə qarşı törətdikləri soyqırımlarının təkrarıdır, daha doğrusu, cinayətkar həmin cinayətkardır. Milli-etnik mənşəyinə və dini mənsubiyyətinə görə ana bətnindəki körpədən tutmuş, əlsiz-ayaqsız qocalara, qadınlara, əlillərə qədər bütün türk-müsəlman əhalinin məhv edilməsi, həm də bu zaman görünməmiş cəza "metodları" ilə amansızlıqla qətlə yetirilməsi erməni terrorçuluğunun səciyyəvi xüsusiyyətidir.

Oxucu mühakiməsinə verilən bu qiymətli əsər yaşıdığımız dünyanın çirkin reallıqlarından biri olan ikili standartlar siyasətinə qarşı da tutarlı bir ittihamnamədir.

Şübhə etmirik ki, bu gün öz mənafeyinə naminə Azərbaycan xalqının başına gətirilmiş müsibətlərə göz yumanlar da gec-tez erməni torunun "dadını" görəcəklər. Görəcəklər və ayılacaqlar, 11 sentyabrda olduğu kimi!

Bu baxımdan "Erməni cinayətləri" kitabı təkcə bizim üçün Azərbaycan və Anadolu türkləri üçün deyil, dünyanın taleyindən narahat olan bütün insanlardan ötrü də, hətta özünü "karlığa", "korluğa", "bilməməzliyə vuranlar" - ikili standart oyunu oynayanlar üçün də "fəlakət!" siqnalıdır!

"Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda ermənilərin yürütdüyü etnik təmizləmə siyasətinin nəticələri" , "Azərbaycanın həmsərhəd rayonlarında erməni işğalçılarının törətdiyi cinayətlər", "Erməni separatçıları tərəfindən törədilmiş terror aktlarını xronoloji ardıcıllığı" kimi üç fəsildən, Giriş və Nəticədən (Son söz əvəzi) ibarət olan "Erməni cinayətləri" kitabı öz strukturuna görə də qarşıya qoyulan problemi bütünlüklə əhatə edir.

Müasir dünyanın ən ağır və ən ağrılı problemlərindən biri olan terrorçuluğa nifrət orada bu qiymətli əsəri araya-ərsəyə gətirən Milli Təhlükəsizlik əməkdaşlarına minnətdarlığımı bildirirəm. Bütün oxucularla birlikdə bu dəyərli kitabın 2-ci cildinin də işıq üzü görməsini arzulayıram.

**Yaqub Mahmudov**
Əməkdar elm xadimi,
Tarix elmləri xadimi, tarix elmləri doktoru, professor.

# Giriş

Bəşər tarixi bir çox sivilizasiyanın meydana gəlməsi və tarix səhifələrindən silinməsinin şahididir. Tarixən Avropa və Asiyanın qovuşuğunda yerləşən Azərbaycan hər iki mədəniyyətin nailiyyətlərinin üzvü surətdə çulğalaşdığı bir məkan olaraq, başqa etnik qruplara, dini konfessiyalara, milli mentalitentlərə və müxtəlif mədəni dəyərlərə dözümlülüyü və tolerantlığı ilə seçilmişdir. Buna nümunə kimi Azərbaycan xalqının qenetik yaddaşını əks etdirən "Kitabi Dədə Qorqud" eposunda təcəssüm olunan ilkin demokratiya ənənələrini, bütün taleyüklü məsələlərin ümumxalq toplantılarında həll edilməsini, qadın hüquqlarına hörmət və digər liberal dəyərləri göstərmək olar. Bu sərvətləri əldə etmək üçün Avropa sivilizasiyası uzun tarixi yol qət edərkən Azərbaycan xalqının düşüncə tərzində sadaladığımız keyfiyyətlər artıq çoxdan kök salmışdır. Ancaq bir həqiqət etiraf olunmalıdır ki, qürur duyduğumuz bu xüsusiyyət və keyfiyyətlər xalqımıza heç də həmişə xeyir gətirməmiş, əksinə, tarixin müəyyən mərhələlərində onun özünə qarşı çevrilmişdir. Bəşər mədəniyyətinə bir çox sahələrdə tövhələr vermiş və daim dinc quruculuqla məşğul olmuş xalqımız ambisiyaları ilə imkanları bir-birinə uyğun gəlməyən məkrli qonşularının şüuraltı nifrət və xudbinliyinin hədəfinə çevrilmişdir. Həmin şüuraltı nifrət və kin bir çox hallarda ölkəmizə qarşı açıq təcavüz, düşmənçilik xarakteri kəsb etmişdir. Yurdsuz ikən yurd verdiyimiz, ocağımızın istisinə qızınan ermənilər bu baxımdan xüsusilə "fərqlənmiş", on iki yüz il ərzində Azərbaycan torpaqlarında məskunlaşmaqla, qədim Oğuz yurduna məxsus ərazilərdə özlərinə dövlət yaratmağa nail olmuşlar. Məkrli erməni siyasəti və erməni havadarlarının köməyi nəticəsində Azəırbaycan torpaqları mərhələ-mərhələ işğal və ihlaq edilməklə, sonrakı daha böyük xəyanətlərə yol açılmış, tarixin ən qanlı faciələri və cinayətləri törədilmişdir.

Yuxarı Qarabağ xaqlımızın sosial-tərəqqi və milli dövlətçilik tarixində çox mühm rol oynayıb və oynayır. Təbiət onu gözəlliyin, harmoniyanın məkanı kimi seçmişdir, fəqət nə edəsən ki, erməni ekspamsionizmi, rus şovinizmi və himayədarlığı Qarabağı, bütün Azərbaycanı Qafqaz, Mərkəzi Avropa və Yaxın Şərq miqyasında sosial ədalətsizlik, milli təxribat üçün geosiyasi ünvan seçdi. Fərqanədə, Oşda, Osetiyada, Dnestryanıda, hətta Balkanlarda davam edən zəncirvari qlobal zəlzələyə seysmik nüvə Dağlıq Qarabağ oldu.

Zaman-zaman Türkiyə və iran ərazisindən köçürülərək İran ərazisində məskunlaşdırılan ermənilər ənənəvi havadarları Rusiyanın əlində alətə çevrilərək bölgənin siyasi və iqtisadi sabitliyinə maneə yaradırdılar. Ermənilər rus imperiyasının səxavət inəticəsində Qərbi Azərbaycan torpaqlarında oyuncaq erməni dövləti yaratmağa müvəffəq oldular. Milli müstəsnalığa mübtəla olmuş ermənilərin ambisiyaları Azərbaycan xalqına və bəşəriyyətə qarşı cinayətlər zəminində həyata keçirilir və bu gün də həyata keçirilməkdədir. Azərbaycan 19-cu əsrdə zorakılıqla parçalandıqdan sonra azərbaycanlılara qarşı törədilmiş, bəşər

tarixində törədilmiş vəhşiliklərlə həyata keçirilmiş kütləvi qırğınlar, soyqırımlar, xüsusilə 1905-1907, 1918-1920, 1948-1953, 1988-1994-cü illərdə baş vermiş hadisələr erməni millətçi dairələri və onları himayə edən böyük dövlətlərin mürtəce qüvvələri tərəfindən bütün Zaqafqaziya miqyasında Azərbaycanlı əhaliyə qarşı aparılmış etnik düşmənçilik siyasətində irəli gəlməkdədir.

Uzun illərdən bəridir ki, erməni lobbisinin beynəlxalq ictimaiyyətin gözü qarşısında "əzabkeş erməni xalqı" obrazı yaratmaq istiqamətində məqsədyönlü və iftira böhtan dolu kompaniyaların niyyəti, törətmiş olduqları və gələcəkdə törədəcəkləri cinayətlərə bəraət qazandırmaq özlərini sığortalamaqdan başqa bir şey deyildir. XX əsrin əvvəllərindən başlayaraq dünyanın müxtəlif ölkələrinə kütləvi surətdə səpələnmiş ermənilər "Böyük Ermənistan" ilğımı uğrunda mübarizə məqsədi ilə xarici dövlətlərin siyasi elitalarına yol tapmış, həmin ölkələrdə eloktoratın ələ alınması, vəzifəli şəxslərlə sövdələşmələr, mənsəbli diplomatların qətlə yetirilməsi kimi üsullardan istifadə etmişlər.

1988-ci il fevralın 20-də Dağlıq Qarabağ Vilayət Sovetinin növədən kənar sessiyasında "DQMV-nin Azərbaycan SSR tərkibindən çıxarlıb Ermənistan SSR tərkibinə verilməsi haqqında" məsəl müzakirə olunmuş və səsvermənin prosedur qaydaları pozularaq saxtalaşdırma yolu ilə qərar qəbul edilmişdir.

Bu qərar erməni milətçilərini azərbaycana qarşı əsasız ərazi iddialarından qaynaqlanan təcavüzkar separatçılığının baş qaldırmasına təkan verdi. Təkcə 1988-ci il ərzində ermənilər tərəfindən Ermənistanda və Azərbaycanın Dağlıq Qarabağ regionunda 186 nəfər azərbaycanlı qətlə yetirilmiş, 200 mindən çoxu isə doğma ocaqlarından vəhşicəsinə qovulmuşdur. Münaqişənin Dağlıq Qarabağla məhdudlaşdığını və Ermənistanla Azərbaycan arasında deyil, Dağlıq Qarabağla Azərbaycan arasında baş verdiyini iddia edən erməni millətçiləri respublikanın Ermənistanla həmsərhəd rayonlarında silsilə təcavüz aktları, qətllər və talanlar törətmişlər. Əslində bu siyasət planlı xarakter daşıyaraq Azərbaycan ordusunu iki cəbhədə hərbi əməliyyatlara cəlb etmək məqsədi güdürdü. Azərbaycanın Ermənistanla həmsərhəd rayonları dəfələrlə erməni silahlı birləşmələrinin həmlələrinə məruz qalmışlar. Müharibənin ilk illərində əhalinin arasında vahimə yaratmaq məqsədi ilə həyata keçirilən həmlələr sonradan ağır hərbi texnika ilə müşayiət olunan irimiqyaslı hücumlarla əvəz olunmuşdur.

Tarix-ideyalar, nəsillər, dünyagörüşləri arasında mübarizədir. Bu mübarizədən qalib çıxmaq üçün tarixi inkişafın sərt qanunauyğunlaqlarını dərk etmək, səbəb və nəticə, təsadüf və zərurət əlaqələrini mənimsəmək vacibdir. Bir əsrdə dörd dəfə eyni ssenarili faciə ilə üzləşdiyimiz təsadüfdür, yoxsa bəzən fərqinə varmadığımız tarixi proseslərin labüd nəticəsi?!

Ermənilərin azərbaycanlılara qarşı törətdikləri cinayətləri təsnif edərkən, belə bir qənaətə gəlmək olar ki, həmin aksiyalarda genosid anlayışını özündə təzahür etdirən cinayət tərkibi mövcuddur. Beynəlxalq hüquqda genosid ayrı-ayrı

əhali qruplarının irqi, milli, yaxud dini motivə görə məhv edilməsi, bəşəriyyətə qarşı ən ağır cinayət hesab olunur.

1948-ci il dekabrın 9-da BMT Baş Məclisində genosid cinayətinin qarşısını almaq və belə cinayətlərə görə cəza haqqında saziş qəbil edilmişdir. Sazişə görə bu və ya digər milli, etnik, irqi və dini qrupu tamamilə və ya qismən məhv etmək məqsədilə edilən aşağıdakı hərəkətlər genodis hesab olunur:

a) belə qrupun üzvlərinin öldürülməsi;

b)belə qrupun üzvlərinə ciddi bədən xəsarəti və ya zehni pozğunluq yetirilməsi;

c)belə bir qrup üçün qəsdən onun tamamilə və ya qismən fiziki məhv edilməsinin nəzərdə tutan şəraitin yaradılması;

d) belə bir qrup arasında uşaq doğumunun qarşısını almağı nəzərdə tutan tədbirlər.

Erməni zülmkarlarının azərbaycanlılara qarşı törətdikləri cinayətlər öz amansızlığına və qəddarlığına görə nəinki bu sazişdə əks olunmuş maddələrin müdəaları ilə üst-üstə düşür, hətta bir çox məqamlarda həyata keçirilmə metod və üsullarına görə sözügedən maddələrin məzmununu geridə qoyur və genosid anlayışının hüquqi çərçivələrini genişləndirməyə zəmin yaradır.

1988-ci ildən başlayan erməni ekspansiyası, ermənilərin Dağlıq Qarabağda apardıqları işğalçı müharibə və etnik təmizləmə azərbaycanlıların soyqırım qurbanlarının sayını xeyli dərəcədə artırmışdır. Azərbaycan Respublikasının ərazisinin 20 faizi işğal edilmiş, 18 mindən çox azərbaycanlı həlak edilmiş, 20 mindən çoxu yaralanmış, 50 mindən çoxu əlil olmuş, 4 mindən çoxu əsir və itgin düşmüş, girov götürülmüş, 4 mindən çox sənaye və kənd müəssisəsi dağıdılmış, azərbaycanlıların doğma yurdu olan yaşadıqları 724 şəhər, kənd və qəsəbə qarət edilmiş, dağıdılmış və yandırılmışdır. Bütün bunların nəticəsində XX əsrdə iki milyondan çox azərbaycanlı bu və ya digər şəkildə şovinist erməni dairələrinin və onların havadarlarının yürütdükləri soyqırım siyasətinin təsirinə məruz qalmışdır. Onu da demək lazımdır ki, indiki dövrdə azərbaycanda erməni zülmündən bu və ya başqa şəkildə zərər çəkməyən ailə yoxdur.

Əfsuslar olsun ki, beynəlxalq aləm əksər hallarda həqiqətin dərinliyinə varmadan, məsələnin mahiyyətinin tam şəkildə obyektiv surətdə yanaşmır. Əlbəttə, bunun bir sıra kökü dərinlərə gedən izahı vardır. Belə ki. Azərbaycanın başına gələn bəlaların bir çoxu, bilavasitə münaqişə haqqında dolğun və düzgün məlumatın beynəlxalq ictimaiyyətin nəzərinə çatdırmaq imkanlarının məhdudluğu ilə əlaqədardır. Ancaq onu da qeyd etmək lazımdır ki, siyasət çox zaman subyektivlik üzərində qurulduğundan, bu münaqişəyə yanaşma tərzində də ikili standartlar amili özünü qabarıq şəkildə göstərir.

Kitabın araya-ərsəyə gəlməsində məqsəd hadisələrin imkan daxilində emosional çalar vermədən erməni cinayətləri barədə faktları dövriyyəyə gətirməkdir. Bu faktlar heç də ayrı-ayrı şəxslərin təxəyyülünün məhsulu deyil,

tutarlı dəlil və sübutlar əsasında həyata keçirilmiş istintaq proseslərində və arxiv sənədlərində əksini tapmış materiallardır. İstintaq gedişində müəyyən olunmuş cinayətlərin ağırlığı hətta iş prosesində dəfələrlə cinayətlərlə üzləşmiş peşəkar müstəntiqləri belə sarsıtmışdır. Mənbəşünaslıq bazasının bütövlükdə Azərbaycan respublikası Milli Təhlükəsizlik Nazirliyinin arxiv sənədləri və istintaq materiallarının təşkil etməsi kitabın tarixşünaslıq baxımından müəyyən dərəcəyə malik olmasına əsas verir. Şübhə etmirik ki, gələcəkdə tarixçilər, sosiloqlar, politoloqlar və müvafiq problemi araşdıran digər tədqiqatçılar təqdim olunan kitabın faktoloji bazasından faydalanmaq imkanı əldə edəcəklər. Kitab həmçinin erməni cinayətlərinin əsl mahiyyətinə yaxından bələd olmaq istəyən geniş oxucu auditoriyası üçün də maraq doğrucaqdır. Onu da qeyd etmək və inanmaq istərdik ki, bu kitabda toplanmış faktlara istinadən müxtəlif dillərdə yazılacaq yeni əsərlərin meydana çıxması ilə 1988-ci ildən etibarən Ermənistan Respublikası tərəfindən Azərbaycana qarşı aparılan elan olunmamış müharibədə ermənilərin törətdikləri cinayətlər barədə həqiqətlərin başqa xalqlara çatdırılması istiqamətində növbəti addımlar atılacaqdır. Kitab Milli Təhlükəsizlik Nazirliyinin elmi-tədqiqat qrupu tərəfindən hazırlanmışdır.

## I Fəsil: Azərbaycanın Dağlıq Qarabağ bölgəsində və ətraf rayonlarda ermənilərin yürütdüyü etnik təmizləmə siyasətinin nəticələri

Erməni millətçiləri uzun illərdən bəridir ki, Azərbaycan torpaqlarına qarşı ərazi iddialarını həyata keçirmək üçün əlverişli məqam aramışlar. Sovetlər İttifaqından başlanan bədnam yenidən qurma və aşkarlıq siyasəti ermənilərə məhz bu fürsəti verdi. Ermənistandakı və mərkəzdəki ideya ilhamçılarının tövsiyyələri, şovinist “Daşnaksütyun”, “Krunk”, “Qarabağ” təşkilatlarının proqram bəyanatları əsasında hərəkətə gəlmiş erməni terror maşını işğalçılıq siyasətinin əsas hədəfi kimi məhz Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunu seçdi. Sovetlər İttifaqı və o zamankı respublika rəhbərliyinin cinayətkar məsuliyyətsizliyi nəticəsində Dağlıq Qarabağdakı separatçı qüvvələr bölgədə yaşayan azərbaycanlılara münasibətdə özlərinin soyqırım və deportasiya siyasətlərini həyata keçirməyə başladılar. Birinci mərhələdə Dağlıq Qarabağda erməni əhalisinin sayca çoxluq təşkil etdiyi azərbaycanlı əhalinin sıxışdırılması, üstünlük təşkil edirdisə, ikinci mərhələdə erməni silahlı birləşmələri Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrini və dinc əhalini hədəfə alaraq öz miqyaslarına görə Xatın, Sonqmi faciələri ilə bir sırada dayanan Xocalı soyqırımını törətmişlər.

Ermənistan Azərbaycan Republikasının Dağlıq Qarabağ regionunda, eləcə də həmsərhəd rayonlarda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokrorluğundan daxil olmuş bir neçə, o cümlədən 63903 №-li cinayət işinin təhlili zamanı müəyyən olunmuşdur ki, 1992-ci il 20 avqust tarixində Goranboy batalyonunun əsgərləri Rüstəmov Fəxrəddin İdris oğlu, Rüstəmov Zaməddin İdris oğlu, Rüstəmov Sənan Rüstəm oğlu və Gülməmmədov İlqar Bəhərçin oğlu üç avtomatla silahlanaraq ermənilərdən qalmış bir tankı, bir BMP-ni və bir topu gətirmək məqsədilə “DT – 75” markalı traktorla Ağdərə rayonunun Talış meşəsinin dağlıq hissəsinə, tala olan yerə getmiş, geri qayıtmamışlar. 1992-ci il avqustun 22-də Fəxrəddinin və Zaməddinin qardaşı Cəmaləddin, İlqarın qardaşı Vüqar və Asif bir avtomat götürüb “UAZ” markalı avtomaşınla həmin yerə onları axtarmağa getmiş, burada uzaqdan “DT-75” markalı traktor, ondan təxminən 40-60 metr aralıda isə üç meyit görmüşlər. Onlardan biri Gülməmmədov İlqar Bəhərçin oğlunun meyiti olmuşdur. Lakin yaxınlıqda silahlı ermənilərin olduğundan qorxaraq irəli getməmiş, geriyə qayıtmışlar. Səhərisi gün onlar Goranboy batalyonunun 30-35 əsgəri ilə birlikdə yenidən həmin yerə gəlmiş və müəyyən etmişlər ki, gördükləri üç meyitdən qalan ikisindən biri Rüstəmov Fəxrəddin İdris oğlunun, o birisi isə Rüstəmov Sənan Rüstəm oğlunun meyitidir. Onların bədənində odlu silahdan yetirilmiş xeyli saydı zədə izləri olmuş, İlqarın iki qulağı və üç əl barmağı, Fəxrəddinin isə bir qulağı

kəsilmişdir. Onlar həmçinin “DT-75” markalı traktorun kabinasında Rüstəmov Zaməddin İdris oğlunun meyitini tapmışlar.

1992-ci il sentyabrın 10-da Ağdərə rayon prokuroru əvəzi, 2-ci dərəcəli hüquqşünas M.Ə.Bağırov tərəfindən 4 azərbaycanlının qətlə yetirilməsi faktı üzrə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 94-cü maddəsinin 4-cü və 6-cı bəndləri ilə cinayət işinin başlanılması haqqında qərar tərtib olunmuşdur. Cinayət işi aidiyyəti üzrə Qarabağ qarnizonunun hərbi prokurorluğunun, 05.12.1992-ci il tarixdən isə Tərtər ərazi prokurorluğunun icraatına verilmişdir. İş üzrə keçirilmiş istintaq tədbirləri zamanı hadisə yeri müayinə edilmiş, hadisə yerindən 3 ədəd güllə və 28 ədəd giliz məhkəmə ballistik ekspertizasına göndərilmiş, Goranboy batalyonunun zabit və əsgərlərindən, o cümlədən qətlə yetirilənlərin yaxın qohumlarından ifadələr alınmışdır. Əməliyyat-axtarış tədbirlərinin aparılmasına baxmayaraq, hadisəni gözləri ilə görmüş şahidləri, cinayəti törətmiş şəxsləri müəyyənləşdirmək mümkün olmamışdır. İşdə olan materiallardan görünür ki, cinayətin törədildiyi yer, yəni Ağdərə rayonunun Talış meşəsinin dağlıq hissəsi erməni quldurlarının nəzarəti altında ola bilərdi. Çünki meşənin ətrafında olan kəndlər ermənilərdən azad olunsa da, meşənin erməni quldurlarından təmizlənməsi üçün əməliyyat keçirilməmişdi. Qətlə yetirilənlərin qohumları R.Rüstəmovun, B.Gülməmmədovun, İ.Əhmədovun və batalyonun əsgərləri A.Məmmədovun, M.Maqsudovun, A.Əhmədovun, S.Süleymanovun, T.Əhmədovun, A.Mustafayevin və başqalarının izahatlarında öldürülənlərin heç kim ilə ədavəti və düşmənçiliyi olmadığı bildirilirdi.

Göstərilənlərə əsasən, Rüstəmov Fəxrəddin İdris oğlunun, Rüstəmov Zaməddin İdris oğlunun, Rüstəmov Sənan Rüstəm oğlunun və Gülməmmədov İlqar Bəhərçin oğlunun döyüş tapşırığını yerinə yetirərkən Talış meşəsində gizlənmiş erməni quldurları tərəfindən qətlə yetirilməsi ehtimalı təsdiq olunmuşdur. Müharibə şəraiti olduğü üçün və cinayəti törətmiş şəxslərin Dağlıq Qarabağın ermənilər yaşayan ərazisində olması səbəbindən əməliyyat-axtarış tədbirləri aparıb həbs edilməsi qeyri-mümkün olmuşdur.

Qeyd olunanlara əsasən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 209-cu maddəsinin 3-cü bəndi və 213 maddəsi rəhbər tutularaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 94-cü maddəsinin 4-cü və 6-cı bəndləri ilə qaldırılmış 63093 saylı cinayət işinin ibtidai istintaqı cinayəti törətmiş şəxs müəyyən edilmədiyi üçün dayandırılmışdır.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, eləcə də həmsərhəd rayonlarda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 13/636-92 N-li cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, 1992-ci il oktyabrın 21-də saat 16.30 radələrində Tərtər-Kəlbəcər nəqliyyat yolunda, Sərsəng su anbarının 1,5 kilometrliyində

hərəkətdən “ZİL-130”, “URAL”, “UAZ- 469”, “QAZ-52” markalı avtomobillər odlu silahlardan atəşə tutulmuşdur. Nəticədə altı nəfər (Əsgərov Salman Fərman oğlu, Quliyev Əşrəf Yunis oğlu, Bəylərov Mahir Əmiraslan oğlu, Orucov Musa Oruc oğlu, Bayramov Məzahir Təhməz oğlu) qətlə yetirilmiş və avtomobillərə əhəmiyyətli dərəcədə ziyan vurulmuşdur.

Baş vermiş cinayət hadisəsi ilə əlaqədar 1992-ci il oktyabrın 23-də Gəncə qarnizonunun hərbi prokuroru R.M.Yusifov tərəfindən Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 94-cü maddəsinin 6-cı və 8-ci bəndləri ilə cinayət işinin başlanılması haqqında qərar tərtib edilmiş və iş üzrə istintaq qrupu təşkil olunmuşdur. Cinayət işi ilə əlaqədar hadisə yeri müəyyən edilmiş, avtomat və birdəfəlik qumbaraatanların gilizləri tapılmış və işə əlavə edilmiş, çoxlu sayda şahidlər dindirilmiş, 3 nəfər barədə məhkəmə-tibb ekspertizası təyin edilmiş və Kəlbəcər rayon Polis Şöbəsinə bununla əlaqədar xüsusi tapşırıqlar verilmişdir. İstintaq zamanı cinayəti törətmiş şəxslərin iştirakı olmadan həyata keçirilməsi mümkün olan bütün istintaq tədbirləri təşkil edilmiş, lakin cinayətkarları müəyyənləşdirmək mümkün olmamışdır.

Müharibə şəraiti olduğu üçün və cinayəti törətmiş şəxslərin Dağlıq Qarabağın ermənilər yaşayan ərazisində olması səbəbindən əməliyyat-axtarış tədbirlərinin davam etdirilərək onların həbs edilməsi qeyri-mümkün olmuşdur.

Göstərilənlərə əsasən Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 209, 210 və 213-cü maddələri rəhbər tutularaq Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 94-cü maddəsinin 6-cı və 8-ci bəndlərinin əlamətləri ilə qaldırılmış 13/636-92 saylı cinayət işinin ibtidai istintaqı cinayəti törətmiş şəxslərin müəyyən edilməməsi səbəbindən dayandırılmışdır.

Keçirilmiş əməliyyat-axtarış tədbirləri zamanı azərbaycanlılara qarşı cinayətlər törətmiş Ağayan Elmira, Abramyan Sergey, Babayan Karen Andranikoviç və Marqaryan Sveta ermənilər barəsində əlavə məlumatlar əldə edilmişdir.

Belə ki, keçirilmiş tədbirlər zamanı daxil olmuş məlumata görə, podpolkovnik Ağayan Elmira 8-ci motoatıcı alay komandirinin arxa cəbhə üzrə müavini, ləqəbi, “Xanım”dır. Təxminən 55-60 yaşı var, dolu, orta boyludur. 1996-cı ilə qədər alay komandirinin tərbiyəvi işlər üzrə müavini vəzifəsində xidmət etmiş və ordu sıralarından tərxis olunmuşdur. 1997-ci ilin yayında isə alaya yeni vəzifəyə təyin edilmişdir.

**QEYD:** Kitabda ayrı-ayrı erməni terrorçuları haqqında əksini tapmış müəyyənedici məlumatlar (yaşı, ünvanı və s.) bilavasitə hərbi əməliyyatların cərəyan etdiyi dövrə aiddir.

Azərbaycanlılara işgəncələrin verilməsində xüsusi qəddarlıq nümayiş etdirən Ağayan Elmira erməni ordusu adlanan quldur birləşmələrinin şəxsi heyəti arasında böyük nüfuza malik olmuşdur. Ağayan Elmira Ağdam və ya Bərdə

rayonunda anadan olub, Azərbaycan dilini təmiz bilir. 1989-cu ilədək Bərdədə işləyib, ali təhsillidir, subaydır.

E.Ağayana bədnam xidmətlərinə görə, qondarma "Dağlıq Qarabağ Respublikasının" rəhbərliyi tərəfindən nömrə nişanı olmayan, iki qapılı "Toyota" markalı şəxsi avtomaşın hədiyyə edilmişdir. Onun xidməti istifadəsində həmçinin 08-01 NKR hərbi nömrə nişanı olan qırmızı rəngli "Niva" markalı maşını var.

Podpolkovnik Abramyan Sergey 31.03.1957-ci il tarixdə Gürcüstan Respublikasının Çxaltubo rayonunda anadan olmuşdur. Ermənistan tərəfdən Avropada adi silahlara məhdudiyyət üzrə hərbi inspektor vəzifəsində çalışır. Xidməti vəsiqəsi AD seriyalı, 0001376 nömrəlidir. Avropada adi silahlara məhdudiyyət üzrə müqavilə iştirakçıları olan ölkələrin inspeksiya qrupları tərkibində qonaq inspektor kimi digər iştirakçı dövlətlərin adi silahlarını təftiş etmək üçün xarici ölkələrə səfərlər edə bilər. Sözügedən müqavilənin şərtlərinə görə, inspektorlar diplomatik toxunulmazlığa malik olduqları üçün S.Abramyanın diplomatik pasportu olması mümkündür.

Babayan Karen Andronikoviç Xankəndi şəhərinin meri vəzifəsində işləyən zaman vəzifəsindən sui-istifadə və qanunsuz odlu silah saxlamaqda təqsirli bilinərək, 2000-ci ildə 5 il həbs cəzasına məhkum edilmiş, 20 dekabr 2001-ci il tarixdə isə həbs cəzası 4 il şərti cəza ilə əvəzlənmişdir.

K.Babayanın qardaşı, qondarma "DQR"ın keçmiş müdafiə naziri Samvel Babayan separatçı-terrorçu rejimin lideri A. Qukasyana sui-qəsddə təqsirli bilinərək 26 fevral 2000-ci il tarixdə 14 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Kapitan Marqaryan Sveta 556-cı əlahiddə motoatıcı alay komandirinin tərbiyəvi işlər üzrə müavinidir.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlər zamanı aşağıdakı cinayət hadisələri haqqında məlumatlar alınmışdır:

1991-ci il sentyabrın 8-də saat 15-30 radələrində, Xocavənd rayonu Gişi kənd ferması ərazisində Qaradağlı kənd sakinlərini aparan avtobus erməni quldurları tərəfindən avtomat silahlarla atəşə tutulmuş, nəticədə kənd sakinləri Hüseynova Rəhilə Şahmar qızı, Hüseynova Rəxşəndə Bayram qızı, Quliyev Əlioğlan Əliaslan oğlu, Hüseynova Qənirə Həmid qızı və Quliyeva Nazənin Rəşid qızı qətlə yetirilmiş və aşağıda göstərilən 32 nəfər Xocavənd rayonunun Qaradağlı kənd və 2 nəfər Ağdam rayon sakinləri yaralanmışlar:

1. Hüseynova Huma Bakir qızı;
2. Quliyev Gündüz Əlihama oğlu;
3. Bayramov Rəşid Həşim oğlu;
4. Hüseynov Ənvər Məriş oğlu;
5. Əliyev Zulu Məhəmməd oğlu;

6. Hüseynov Zülfüqar Həmzə oğlu;
7. Bayramov Afərim Əlihüseyn oğlu;
8. Bayramov Elmidar Rəşid oğlu;
9. Şirinova Minarə Cəfər qızı;
10. Hüseynov Firuz Mahmud oğlu;
11. Babayeva Validə Məmməd qızı;
12. Süleymanova Göyçək Məmməd qızı;
13. Quliyev Əliağa Baloğlan oğlu;
14. Hüseynova Nisə Hüseyn qızı;
15. Hüseynova Durna Cəlil qızı;
16. Əliyev Əbülfət Hilal oğlu;
17. Abbasov Vidadi Aydın oğlu;
18. Əliyev Təyyar Əmirxan oğlu;
19. Şirinov Böyükkişi Lələ oğlu;
20. Məmmədov Ədalət Şahmar oğlu;
21. Bayramov Sahil Sultan oğlu;
22. Hüseynova Ruzigar Nurəddin qızı;
23. Əzizov İltifat Elmar oğlu;
24. Hüseynov Almazxan Arazxan oğlu;
25. Məmmədov Təvəkkül Nurəddin oğlu;
26. Hüseynov Bəkir Həmzə oğlu;
27. Hüseynov Həbib Həmzə oğlu;
28. Hüseynov Əvəz Mahmud oğlu;
29. Məmmədov Rizvan Tofiq oğlu;
30. Məmmədov Samir Rizvan oğlu;
31. Hüseynov Niftəli Bakir oğlu;
32. Hacıyev Akif - polis əməkdaşı;
33. Hüseynov Seymur Ağdam;
34. Cəfərov Elmidar - Ağdam

Cinayət faktı ilə əlaqədar 1991-ci il sentyabrın 10-da Şuşa şəhərində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 70, 94-cü maddəsinin 4-cü və 6-cı bəndləri üzrə 33602 saylı cinayət işıqlandırılmışdır.

1949-cu il təvəllüdlü, həmin dövrdə N.Nərimanov adına kolxozda iqtisadçı işləmiş Bayramov Məhəmməd Rəşid oğlu izahatında aşağıdakıları göstərmişdir:

1991-ci il sentyabrın 8-də digər kənd sakinləri ilə birlikdə Hüseynov Zülfüqar Həmzə oğlunun idarə etdiyi “UAZ-420217” markalı, 02-51 AQX dövlət nömrə nişanlı avtobusla Ağdam rayonundan Qaradağlı kəndinə gələrkən Gişi kəndi ərazisində müxtəlif istiqamətlərdən avtomat silahları ilə atəşə tutulmuşlar. Bir neçə dəqiqə sonra həmin əraziyə “UAZ” markalı, onun arxasınca isə ağ rəngli, “Moskviç-412” markalı dövlət nömrə nişanı olmayan maşınlar gəlmişdir.

Maşınlar dayandıqdan sonra, “UAZ” maşınına minən Xocavənd rayon sakini Xaçaturyan Valodu, Gişi kəndindən olan Arustamyan Armonu, Ağ kənddən olan Mersik adlı oğlanı, Xocavənd Qaz İdarəsində işləyən Yeremyan Saronu, eləcə də Dövlət Avtomobil Müfəttişliyində işləyən polis əməkdaşı Çalyan Saşanı tanımışdır. Onların hər birinin əlində avtomat silahı olmuşdur.

Eyni zamanda məlum olmuşdur ki, 1991-ci il sentyabrın 8-də Xocavənd rayonuna ezam olunmuş polis əməkdaşları, Quliyev Vaqif Nuru oğlu, Şirinov İxtiyar Narkom oğlu və Mehdiyev Murad Mehdi oğlu “UAZ-469” markalı maşınla kənd istiqamətində hərəkət edərkən Xocavənd yaxınlığında atəşə tutulmuş və nəticədə yaralanmışlar.

Faktla əlaqədar 1991-ci il sentyabrın 8-də Xocavənd rayon Prokurorluğu tərəfindən, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 15 və 95-ci maddələri ilə 63413 saylı cinayət işi qaldırılmış və hadisənin eyni tarixdə və ərazidə baş verməsi ilə əlaqədar materiallar 33062 saylı cinayət işinə əlavə edilmişdir.

İş üzrə aparılmış istintaq tədbirləri zamanı hadisəni törətmiş Xocavənd rayon sakini Xaçaturyan Valodun, Gişi kəndindən olan Arustamyan Armonun, Ağkənddən olan Mersikin Xocavənd Qaz İdarəsində işləyən Yeremyan Saronun, eləcə də Dövlət Avtomobil Müfəttişliyində işləyən polis əməkdaşı Çalyan Saşanın cinayətin törədilməsində əməllərinin tam sübuta yetirilməsi Dağlıq Qarabağ regionundakı dövlət strukturlarının Azərbaycan Respublikasının hakimiyyət orqanlarına tabe olmamaları ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi mümkün olmadığına görə, cinayət işi 1992-ci il yanvarın 9-da dayandırılmışdır.

Göstərilənləri nəzərə alaraq, MTN tərəfindən aparılan təhqiqat işi zamanı erməni quldurları barəsində tam müəyyənedici məlumat əldə edildiyi təqdirdə onlar haqqında qanuna müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Beyləqan rayonu Örənqala kənd sakini, Şuşa həbsxanasında əsir saxlanılmış Camalov Fədai İsmayil oğlu ərizəsində göstərmişdir ki, 1993-cü il sentyabrın 23-dən 1996-cı il oktyabrın 5-dək Xankəndi uşaq xəstəxanasında, sonra isə Şuşa həbsxanasında saxlanılarkən, baş leytenant rütbəsində olan Qor adlı erməni zabiti Ağdam rayon sakini təxminən 50 yaşında olan İldırım ədlı şəxsi və Beyləqan rayonu İkinci Aşıqlı kənd sakini Qurbanov İlqarı dəyənək ilə döyərək qətlə yetirmişdir. Sonra Şuşa həbsxanasında nəzarətçi işləyən Slavik adlı erməni əsir və girovlara, o cümlədən F.Camalova müxtəlif işgəncələr vermiş, Füzuli rayon sakinləri İlham və Mirzəli kişini döyərək qətlə yetirmişlər.

Beyləqan rayonu Dünyamalılar kənd sakini Sarıyev Əli Zöhrab oğlu ərizəsində göstərmişdir ki, 1993-cü il oktyabrın 31-dən 1995-ci il iyunun 8-dək Xankəndidə və Şuşa həbsxanasında girovluqda saxlanıldığı müddətdə erməni quldurlarının törətdikləri vəhşilikləri və cinayət əməllərinin bir çoxunun şahidi

olmuşdur. Belə ki, Ə.Sarıyevin məlumatına görə, o, 1994-cü ildə Şuşa həbsxanasında saxlanılarkən, əvvələr yanğından mühafizə xidmətində, həmin dövrdə isə Xankəndi şəhərinin hərbi komendantı vəzifəsində işləmiş polkovnik rütbəli, Samvel Babayanın əlaltısı olan Aşot adlı erməninin əmri ilə Bakı şəhərindən olan Rauf adlı şəxsə alçaldıcı işgəncə verilmişdir. Belə ki, Raufun bir gün sonra dəyişdiriləcəyindən xəbər tutan Aşot digər saxlanılmış əsir və girovların gözü qarşısında əlindəki dəyənəyi onun arxasına soxmağı əmr etmiş və tabeçiliyindəki erməni əsgəri bunu icra etmişdir. Huşsuz vəziyyətdə olan Rauf ertəsi gün dəyişdirilərək Bakı şəhərinə göndərilmişdir. Sonradan bu səbəbdən Raufun bağırsaqlarından on santimetr kəsilərək götürülmüşdür.

Ə.Sarıyev əlavə olaraq F.İ.Camalovun verdiyi məlumatı təsdiqləyərək Şuşa türməsində baş leytenant Qor və Slavik adlı erməni hərbçiləri tərəfindən İ.Qurbanov, İldırım, İlham və Mirzəli adlı şəxslərin döyülərək qətlə yetirilmələrini qeyd etmişdir.

Beyləqan rayonunun Dünyamalılar kəndində məskunlaşmış, Xocavənd rayonu Qaradağlı kənd sakini Əliyev İlqar Qasım oğlu ərizəsində göstərmişdir ki, 1992-ci il fevralın 17-də erməni quldurları Xocavənd rayonu Qaradağlı kəndinə hücum edərək 117 nəfər mülki şəxsi girov götürmüş, Xankəndinə apararkən "Bəylik bağı" deyilən ərazidə onlardan 36 nəfərini güllələmişlər. Əsasən Sudandan, Suriyadan və Livandan olan erməni muzdluları sağ qalan digər azərbaycanlılara məxsus qızıl əşyalarını və pullarını götürdükdən sonra onlara işgəncələr vermişlər. (Erməni quldurlarının törətdikləri bu cinayətin təfərrüatları barədə daha ətraflı bəhs ediləcək).

Xocavənd rayonu Tuğ kənd sakinləri, hazırda İmişli və Beləqan şəhərlərində müvəqqəti məskunlaşmış, 1967-ci il təvəllüdlü Süleymanov Azər Fərrux oğlu və 1957-ci il təvəllüdlü Göyüşov Ramiz Sərdar oğlunun yazdıqları ərazilərin təhlili zamanı məlum olmuşdur ki, 1988-ci ildən başlayaraq ermənilər kəndə mütəmadi hücumlar etmiş, sakinləri vahimə içərisində saxlamışlar. Onlara qarşı amansız mübarizə aparmış məktəbli Teyyub Süleymanov Tuğ kənd orta məktəbinin həyatında sovet hərbiçilərinin gözü qarşısında erməni quldurları tərəfindən soyuq silahla qətlə yetirilmiş ilk şəhid olmuşdur.

Eyni zamnda ərzilərdən məlum olmuşdur ki, 1990-cı il mayın 1-də məktəbli Vəliyev Ələmşad Eldar oğlu və onun əmisi oğlu Vəliyev İslam Allahverdi oğlu "UAZ" markal maşınla Füzulidən Tuğ kəndinə qayıdarkən erməni terrorçularının kənd şose yolunda, içərisində partlayıcı qurğu yerləşdirilmiş dərman sandıqçası qoymaları il əlaqədar partlayış baş vermiş və hər iki şəxs həlak olmuşdur.

1991-ci il avqustun 23-də kənd sakinləri Hüseynov Oqtay Dərgah oğlu və Yusubov Amil Əvəz oğlu Quruçay adlanan ərazidə "Jiquli" markalı şəxsi avtomobil yuyarkən erməni quldurları tərəfidən vəhşicəsinə qətlə yetirilmiş və onların meyitləri balta və bıçaqla doğranmışdır.

1991-ci il oktyabr ayında Tuğ kənd sakini İsmayılov Mirzəli öz evində erməni quldurları tərəfindən qətlə yetirilmişdir.

1991-ci il sentyabrın 7-də Tuğ kənd sakinləri Məmmədov İbiş Pəsi oğlu və Nəcəfov Vahid Hüsən oğlu bostanda işləyərkən erməni quldurları tərəfindən odlu silahla qətlə yetirilmiş, onların meyitləri tanınmaz hala salınmışdır.

1993-cü ildə Ermənistan Silahlı Qüvvələri Füzuli rayonunun Aşağı Veysəlli kəndinə hücum edərkən erməni quldurları orada yerləşmiş Tuğ kəndinə məxsus fermadan mal-qaranı qarət etmiş, fermada işləyən kənd sakini Tahirov Cəfər Heydərqulu oğlunu vəhşicəsinə qətlə yetirmişlər.

Xocavənd rayonu Nuxullu kənd sakini, hazırda Beyləqan şəhərində məskunlaşmış, 1957-ci il təvəllüdlü Vəliyev Kərəm Sədaqət oğlu yazdığı ərizəsində göstərmişdir ki, erməni quldur dəstələri ilə əlbir olmuş rus hərbiçiləri 1989-cu ildə Xocavənd rayonu Nuxullu kənd sakini Əhəd Quliyevin evini yandırmışlar.

Eyni zamanda K.Vəliyev göstərmişdir ki, Xocavənd rayonu Nuxullu kənd sakini məktəbli Namiq Hüseynov kənd orta məktəbinin qarısında erməni quldurları tərəfindən ağır vəziyyətə düşənədək döyülmüşdür. Nəticədə o, başından aldığı zərbədən əlil olmuşdur .

Xocavənd rayonu Qaradağlı kənd sakinləri, hazırda Beyləqan şəhərində müvəqqəti məskunlaşmış, 1957-ci il təvəllüdlü Şirinov Ruslan Böyükişi oğlu və 1958-ci il təvəllüdlü Hüseynov Cavad Həmid oğlu yazdıqları ərizələrdə göstərmişdilər ki, erməni quldur dəstələri 1990-cı il noyabrın 24-də Xocavənd Xankəndi yolunun 6-cı kilometrliyində 3 nəfər azərbaycanlını odlu silahlarla qətlə yetirmişlər. Onlardan biri - Qaradağlı kənd sakini Hüseynov Xandəmir Bəbir oğlunun cəsədi güllələrlə xaç şəklinə salınmışdır. Bu cinayət hadisəsi Xacəvənd rayonu Ağkənd və Qışı adlanan kəndlərin erməni sakinləri tərəfindən törədilmişdir.

1991-ci il iyulun 27-28-də saat 01.00-da erməni quldurları kəndindən 3 kilometr aralıda Vərəndəli adlanan yerdə yerləşən fermadakı çoban evinin içərisində aşağıdakı 6 nəfəri diri-diri yandırmışlar.

1. Tağıyev Bakir Qaçar oğlu
2. Məmmədov Tohil Cəlil oğlu
3. Şirinov İltifad Əjdər oğlu
4. Şirinova Qaragöz Həbil qızı
5. Hüseynova Məxmər Məcid qızı
6. Hüseynova Səbiqə Mürsəl qızı

Şirinova Qaragöz Həbil qızı və Şirinov İltifad Əjdər oğlu ilə birlikdə qucaqlaşmış vəziyyətdə faciəli surətdə yanmışlar. Həmin quldur dəstəsi bu cinayəti törətdikdən sonra fermada saxlanılmış 100 başdan artıq iri buynuzlu mal-qaranı da özləri ilə aparmışlar.

Keçirimliş əməliyyat tədbirləri nəticəsində hadisəni törətmiş erməni quldur dəstəsinə başçılıq etmiş Xocavənd rayonu Hasan kolxozunun sədri Emil

Babayan həbs olunmuş, sonradan bir neçə əsir və girov düşmüş şəxslərlə dəyişdirilmişdir.

1991-ci il sentyabrın 8-də Ağdamdan Qaradağlı kəndinə 30 nəfər azərbaycanlı aparan avtobus Xocavənd-Xankəndi şose yolunun 6-cı km-də müxtəlif istiqamətlərdən odlu silahlardan atəşə tutulmuşdur. Baş vermiş hadisə nəticəsində avtobusdakı sakinlərdən 8 nəfəri qətlə yetirilmişdir.

1. Quliyev Əlioğlu Əliaslan oğlu
2. Quliyev Gündüz Əlqəmə oğlu
3. Quliyeva Zanənin Rəşid qızı
4. Hüseynova Rəxşəndə
5. Hüseynova Rəhilə Şahmar qızı
6. Hüseynova Qəmirə Həmid qızı
7. Hüseynova Gülzəndə Bakir qızı
8. Babayeva Validə Həmid qızı

1992-cı ilin fevral Qaradağlı kəndini mühasirəyə almış erməni quldur dəstələri aralarında qadınlar, yaşlılar, uşaqlar olmuş və 33 nəfər kənd sakinini girov götürdükdən sonra onları güllələyərək silos quyusuna doldurmuşlar.

İki nəfər kənd sakini Hüseynov Şahmurad və Dadaşov Eldar ilə yolda ermənilər tərəfindən döyülərək qətlə yetirilmişlər.

R.Şirinovun məlumatına görə, azərbaycanlılara qaşır cinayətlərin törədilməsi üçün təbliğat və ideoloji iş aparan ermənilərdən biri də Xocavənd rayonu Kəndkürd (ermənilər isə Kəndxord adlandırır) kəndindən olan Zori Balayan olmuşdur.

1993-cü ildə ermənilər Füzuli rayonu Gorazilli kənd sakini Nuxiyeva Fəridə Vaqif qızının kənddəki toy məclisinə hücum edərək onu, atası Nuxiyev Vaqif Qutais oğlunu, anası Tamaşa qızı, uşaqları Mətanət, Arzu və 19 nəfər digər kənd sakinlərini girov götürmüşlər. Ermənilər onları Hadrutda, Xankəndində, sonra isə Şuşa türməsində saxlayaraq müxtəlif işgəncələr vermişlər.

Nəticədə işgəncələrə dözməyən Vaqif Nuxiyev vəfat etmişdir.

Göstərilmiş cinayət fakt ilə bağlı məlumata malik olan Füzuli rayonun Gorazilli kənd icra nümayəndəsi Şirinov Mətləb Nadir oğlundan alınmış izahatda göstərilmişdir ki, 1993-cü ilin iyul ayının 2-də erməni quldurları Gorazilli kəndindən 20 nəfər azərbaycanlı girov götürmüşlər. Erməni quldurlar girov götürdükləri kənd sakinlərinin Hadrut istiqamətinə apararkən onlardan birinə Məmmədov Bəyəndik Qəhrəman oğluna işgəncə verərək qətlə yetirmişlər.

Girovluq dövründə Nuxiyev Vaqif Qutais oğlu ermənilərin əsirlərlə pis rəftar etməsinə, qadınların namusuna toxunmalarına, girovlara işgəncələr vermələrinə, xüsusən cavan-yeniyetmə oğlanların sifətlərinə siqareti yandırıb basmalarına və s. digər əməllərinə dözməyərək özünə bir neçə dəfə qəsd etmək istəmiş, lakin ermənilər bunu bildikdə onun qarşısını almışlar. Nəhayət bir gün əsir və girovların sırasından çıxaraq erməni əsgərlərinin üstünə yeriyərək onlardan

birinə əli ilə zərbə endirmişdir. Bundan sonra erməni faşistləri ona müxtəlif işgəncələr vermiş, əllərini, qollarını sındırmış və qətlə yetirmişlər.

M.Şirinov eyni zamanda izahatında göstərmişdir ki, erməni quldurları əsir və girovlara həm də mənəvi əziyyətlər vermişlər. Belə ki, ermənilər əsir və girovların eşitmələri üçün xüsusi səsgücləndiriciləri vasitəsilə ilə elan edirdilər ki, Hadrutdan Əli-Bayramlıya gedən avtobusun çıxmasına 15 dəqiqə var.

Eyni zamnda erməni vəhşiliklərini canlı şahidi Xocavənd rayonu Qaradağlı kənd sakini Tevon Tağıyevdən alınmış məlumata görə, erməni quldurları 1989-cu ilin may-iyun aylarından başlayaraq Qaradağlı kəndinə silahlı basqınlar etmişlər. Basqınlar əsasən Xocavənd rayonun Ağkənd, Heşən, Geşi, Müşkabad (ermənilər tərəfindən bu kəndin adı təhrif olunaraq Muşkapat adlandırılmışdır), Kəndkürd, Cəmiyyət və s. kəndlərindən olan erməni quldurları tərəfindən törədilmişdir.

1989-cu ilin iyun ayında Heşən kəndinin kolxoz sədri Ebil Balayanın Rəhbərliyi ilə bir qrup erməni quldurları - Muşkapat kəndindən kolxoz sərdi Şahmurad da daxil olmaqla iki nəfər erməni Cəmiyyət kəndindən iki nəfər erməni, Kəndkürddən dörd nəfər erməni, həmçinin Xocavənd Dövlət Avtomobil Müffətişliyində işləyən Artur adlı milis əməkdaşını, Vərəndəli fermasında çalışan Şirinov İltifat Əjdər oğlunu, Şirinova Qaragöz Həbib qızını, Axundova Məxmər Məcid qızını, Hüseynova Səbiqə Mürsəl qızını, Tağıyev Bakir Qaçay oğlunu və Məmmədov Tahir Cəlil oğlunu yandırmışlar.

Hüquq-mühafizə orqanları və Azərbaycan dövlət televiziyasının əməkdaşları ertəsi gün hadisə yerinə getmişlər. Hadisədən sonra azərbaycanlı polis əməkdaşları E.Balayan və digər erməniləri tutaraq Şuşa şəhərinə aparmış, oradan isə Ebil, Artir və iki nəfər erməni Bakı şəhərinə göndərilmişdir.

1992-ci il fevral ayının 17-də erməni quldurları Xocavənd (keşmiş Martuni) rayonunun Qaradağlı kəndinə soxularaq, yüz on yeddi nəfər azərbaycanlını girov götürmüşlər. Həmin tarixdə erməni yaraqlıları kəndin fermasında üç kişini və bir qadını yandırmışlar. Ermənilər əlli altı nəfər sakini (onlardan 10-12 nəfəri uşaq) güllələyərək quyuya tökmüş və üstünü traktorla torpaqlamışlar. Həmin vaxt ermənilər “KamAZ” maşını ilə kənd sakini Hüseynov Şahmuradın üzərindən keçərək onu qətlə yetirmiş, Qaradağlı kənd orta məktəbində çalışan Mobil müəllimin, 22-23 yaşlı Həsənov Altayın və Hüseynov Xanalının üzərinə dizel yanacaqı tökərək diri-diri yandırmışlar.

Qaradağlı kəndinə basqın zamanı Telman Tağıyev adlı soydaşımız da girov götürülən kənd sakinləri ilə birlikdə Xankəndi türməsinə aparılmışdır. Xankəndiyə aparılarkən T.Tağıyev yolda papağının altına gizlətdiyi əl qumbarasını çıxardaraq erməni quldurlarının üzərinə atmış və nəticədə onlardan bir neçəsi məhv olmuşdur. Bundan sonra erməni quldurları T.Tağıyevi və digər kənd sakinlərini güllələyərək onları yaxınlıqdakı silos quyusuna tökmüşlər.

Eyni zamanda alınmış məlumata görə, erməni quldurları girov götürdükləri kənd sakinləri olan qadınları və yaşlıları bir maşına, cavanları isə digər maşına mindirmişlər. Mənbənin tanışı Şirinov Familət Gəray oğlunun yaxın qohumu Şirinov Şamxal Familət oğlunun ona etdiklərindən məlum olmuşdur ki, yolda cavanlar olan maşını erməni vəhşiləri amansızcasına avtomat atəşinə tutmuşlar. Həmin atəş nəticəsində onlarla adam qətlə yetirilmiş və həmin ərazilərdə meyitlər maşında yerə tökdürülmüşdür.

Erməni quldurları qadınlar və yaşlılardan ibarət girovları Xankəndiyə apararkən şəhərə beş km qalmış maşını saxlayıb azərbaycanlılara qarşı soyunmaq əmrini vermişlər. Alt paltarında olan qadınlar və yaşlılar qışın sərt soyuğunda ayaqyalın 5 km məsafəni Xankəndiyə piyada getmişlər. İki ay yaxında davan edən girovluq həyatı dövründə Qaradağlı kənd sakinləri Quliyev Əliaslan Nəriman oğlu, Quliyev Kamal Bəyləroğlu, Şirinov Böyükişi Lələ oğlu, Vəliyev Fazil Cavad oğlu, Hüseynov Şura Hüseynalı oğlu, Nəzərova Şura İbad oğlu, Hüseynov İran Əsəd oğlu, Tağıyev Kamil Sərdar oğlu erməni hərbiçilərinin amasız zümlərinə və işgəncələrinə dözməyərək həbsxanada vəfat etmişlər. Ermənilər həbsxanada Qaradağlı kənd sakinlərindən fiziki cəhətdən sağlam olan gəncləri seçərək, onları naməlum istiqamətdə aparmışlar. Onlar barəsində hazırki vaxtadək heç bir xəbər yoxdur.

Girov götürülmüş kənd sakinləri “KamAz” markalı maşına Xankəndi şəhərinə aparılarkən erməni quldurları yolda polis leytenantı Abbasov Sərvər, Bayramov Elmar və Zahid adlı şəxslərin başlarını kəsmişlər.

Xankəndində 45 günlük əsrlik dövründə ermənilər Qaradağ kənd sakinləri Quliyev Əliaslan, Quliyev Kamal, Axundov Şura, Tağıyev Böyükkişi, Fazil və Şura adlı şəxslərə işgəncələr verərək qətlə yetirmişlər.

Erməni quldurları polis əməkdaşı, kiçik çavuş Kərimov Əliqismətin başını kəsərək, başsız bədəninin erməni ilə dəyişdirmək məqsədilə Ağdama göndərmişlər;

Tevon Tağıyev on altı gün Xankəndi türməsində girov taleyi yaşamışdır. Sonra Ebil Balayanın Xankəndi pedoqoji İnstitutunda müəllim işləyən 45 yaşlı oğlu Vartanın Quliyev Əmiraslanı, Tağıyev Talıbı və Əliyev Qasımın oğlanlarından birini Tevon Tağıyev ilə birlikdə Xocanəddənki evlərinin maşın qarajında üç gün saxlamaqda məqsədi Bakı şəhərində həbsxanada olan atası ilə dəyişdirilmək olmuşdur. Bu müddətdə Vartan Balayan Ağdam rayonunda fəaliyyət göstərmiş Azərbaycanın hökumət nümayəndələri ilə atası Ebilin dəyişdirilməsi üçün danışıqlar aparmışdır. Aparılmış danışıqlar nəticəsində Ağdamda əldə olunmuş razılaşmaya əsasən, Bakı şəhərində saxlanılmış 4 nəfər erməni cinayətkarının müqabilində 14 nəfər girovun və 13 nəfərin meyitinin dəyişdirilməsi nəzərdə tutulmuşdur.

Bundan sonra Vartan Tevon Tağıyevlə birlikdə olan digər azəbaycanlı girovları Heşan kəndinə gətirərək onları kolxoz binasının gözətçi otağında daha 14 -15 gün saxlamışdır.

Qeyd olan müddətdə girovlar gündə 3 dəfə gecə və gündüz Qaradağlı kəndinə aparılaraq 13 nəfər meyidin yığışdırılması ilə məşğul olmuşlar. Tevon Tağıyev onların arasında silos quyusunda basdırılmış oğlu Telmanın da meydini çıxarmağa səy göstərmiş, lakin bu mümkün olmamışdır. Belə ki, üç gün ərzində Xankəndindən iki dəfə erməni quldurları gələrək onları hədələmiş və işi tez qurtarmağı, deyilənlərdən artıq meyit çıxarmamağı tapşırmışlar.

Beləliklə, 1992-ci il martın 30-da mülki geyimdə olan Vartan Ağdamın Mərzili postunda Xankəndi türməsində 50 gün saxlanılmış 14 nəfər Qaradağlı kənd sakinini və qətlə yetirilmiş 13 nəfərin meyitini maşınla Ağdamın Mərzili postuna gətirərək atası Ebil və 3 nəfər erməni qulduruna dəyişdirilmişdir.

14 nəfər aşağıdakılardan ibarətdir:

Tağıyev Tevon Habil oğlu, 1925-ci il təvəllüdlü;

Hüseynov Məhəmməd Hüseyn oğlu, 1934-cü il təvəllüdlü;

Abbasov Aydın Mehdi oğlu, 50-60 yaşında;

Hüseynov Atıxan Fərman oğlu, 1936-cı il təvəllüdlü;

Şirinov Şamxal Familət oğlu, 1968-ci il təvəllüdlü;

Şirinov Elman, 1968-ci il təvəllüdlü;

Əmirxanov Güloğlan Əkbər oğlu, 1953-cü il təvəllüdlü;

Tağıyev Talib İnqilab oğlu, 1964-cü il təvəllüdlü;

Kərimov Qara Hüseyn oğlu, 60 yaşında;

Əliyev Qasımın oğlanları -23 və 25 yaşlarında, hər ikisi evlidir, Beyləqan rayonunda məskunlaşmışdır:

Quliyev Əmiraslan İmkan oğlu, 1966-cı il təvəllüdlü;

Tağıyev Sərdar Qaçay oğlu, 1940-cı il təvəllüdlü;

Tağıyev əvəz Qaçay oğlu, 1945-cı il təvəllüdlü; E.Balayana dəyişdirilmiş 13 nəfərin meyitinin 4-ü Qaradağlı kəndinin müxtəlif yerlərindən yığışdırılmış, 9 nəfərin meyiti isə kəndin yaxınlığında yerləşən silos quyularından çıxarılmışdır.

Kənddən götürülənlər:

- Hüseynov Şamurad Hüseynalı oğlu, 60 yaşında;
- Dadaşov Eldar İsa oğlu, 55 yaşında;
- Kərimov Qaran adlı kənd sakinin oğlu 20 yaşında, polis əməkdaşı, başı kəsik vəziyyətdə;
- Bayramov Rəşid Həşim oğlu 60 yaşında;

Silos quyusundan çıxarılanlar:

- Hüseynov Dəmir , 70 yaşında;
- Mobil Mürsəl oğlu, 40 yaşında;
- Əzizov Ataş Əfqan oğlu, 16 yaşında;
- Xəlilov Zahid Əyyub oğlu, 40 yaşında;

- Yaqub, 19 yaşında;
- 2 nəfər XTPD-nın işçiləri, Ağdam rayonu sakinləri.

İcraatda olan təhqiqat işi çərçivəsində keçirilən tədbirlər zamanı şahid bazası ətrafında yoxlanmış materialların təhlili göstərir ki, Xocalı faciəsində 10 gün əvvəl başlamış Qaradağlı faciəsi Azərbaycan və dünya ictimaiyyətinin nəzərindən kənarda qalmışdır. Belə ki, erməni quldurları 1992-ci il fevralın 17-də Qaradağlı kəndinə hücum edərkən Xocalıdan fərqli olaraq müxtəlif işgəncələrlə 77 nəfərdən çox azərbaycanlının vəhşicəsinə qətlə yetirmişlər.

1993-cü il avqust ayının 23-dən 1996-cı il may ayının 10-dək erməni girovluğunda olmuş 1958-ci ildə Cəbrayıl rayonunda anadan olmuş, azərbaycanlı, ali təhsilli, ailəli, Cəbrayıl rayon İcra hakimiyyətində işləmiş Mehdiyev İlqar Ərşəd oğlu girovluqda olarkən ağır işgəncələrə məruz qalmışdır.

Girovluq dövründə ona Azıərbaycan bayrağına tüpürmək əmri verildikdə o, bayrağı öpərək bağrına basmış və bu zaman ermənilər onun onurğa sümüyünü sındırmışlar. İ. Mehdiyevin boynuna zəncir bağlayaraq, ona çirkli qabda su və çörək parçası verməklə saxlayırmışlar. Əsirlikdə ona sinir sisteminin məhv edilməsi məqsədi ilə ermənilər tərəfindən müxtəlif iynələrin vurulması ehtimal edilir. Şuşa həbsxanasında saxlanılmış İ.Mehdiyevin sözlərinə görə, orada 1600-1700 həmvətənlərimiz saxlanılmış və gənclərimizin çoxunu Ermənistana apararaq daxili orqanlarını xaricə satmışlar.

Girovluqda aldığı işgəncələr nəticəsində İ.Mehdiyev 1997-ci il yanvar ayında Sumqayıt şəhərində vəfat etmişdir.

1991-ci il mayın 8-də saat 24 radələrində Xocavənd rayonunun "Sveridov" adına kolxozun Müşkabad kənd ferması yaxınlığında naməlum şəxslər tərəfindən Qarabağlı kənd sakinləri Quliyev Ələkbər Məmməd oğlunun və Hüseynov Zülfüqar Dəmir oğlunun odlu silahla qətlə yetirilməsi ilə əlaqədar 1991-ci il martın 9-da Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 88 və 95-ci maddələri ilə Xocavənd rayon Prokurorluğunun müstəntiqi R.E.Avanesyan tərəfindən qaldırılmış 34482 saylı cinayət işi Azərbaycan Respublikası Baş Prokurorluğundan ünvanımıza göndərilmişdir.

Cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, azərbaycanlı kənd sakinlərinin qətlə yetirilmələri faktı ilə əlaqədar erməni müstəntiqi R.E.Avanesyan 1991-ci il martın 11-də 1947-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonu Müşkabad kəndində anadan olmuş, milliyətcə erməni, Müşkabad kəndindəki Sverdov kolxozuna məxsus fermada gözətçi işləyən Baqdasaryan Rudik Aşotviçi şahid qismində dindirilmişdir.

Dindirilmə erməni dilində aparılmış, sonra rus dilinə tərcümə edilmişdir.

R.Baqdasaryan şahidi dindirilmə protokolunda göstərmişdir ki, 1991-ci il ilin əvəllərindən fermada gözətçi işləyir. 1991-ci i martın 8-də axşam saat 11.00 radələrində itlərin səsinə onlar çölə çıxanda görmüşlər ki, bir neçə mal-qaranı

Qaradağlı kənd istiqamətinə aparır. Guya həmin şəxslər erməni gözətçilərini görüb onlar tərəfə odlu silahlardan atəş açaraq mal-qaranı aparmaqda davam etmişlər. R.Baqdasaryan ifadəsinə görə, guya onlar mal-qaranı aparanların üç nəfər olduğunu görmüşlər. Onlardan biri atlı, ikisi isə piyada imiş. Ermənilər havaya atəş aça-aça onların arxasınca getmişlər.

R.Baqdasaryan bildirmişdir ki, həmin üç nəfər dərəyə düşəndə mal-qara ferma istiqamətində qayıtmışdır. Bu zaman guya atlı oğlan ona tərəf gələn iki payada oğlanın ermənilər olduğunu güman edərək onlara bir neçə atəş açmış və hər ikisi yerə yıxılmışdır.

Erməni müstəntiqinin suallarına cavab olaraq R.Baqdasaryan bildirmişdir ki, fermada iki tüfəng var və onlar gözətçilər tərəfindən istifadə olunur. Bundan əlavə, milliyətcə erməni müstəntiqi E.Avanesyan, 1965-ci ildə Xocavənd rayonu Müşkabad kəndində anadan olmuş, milliyətcə erməni, Sverdlov kolxozuna məxsus fermada gözətçi işləyən və Müşkabad kəndində yaşayan Beylaryan Yurik Aşotoviç və 1947-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonu, Müşkabad kəndində anadan olmuş, milliyətcə erməni, Sverdlov kolxozuna məxsus fermada gözətçi işləyən və Müşkabad kəndində yaşayan Ayrapetyan Abrik Rubenoviçdən Baqdasaryanın verdiyi ifadələrin təkrarını almışdır.

Cinayət işi 1991-ci il mayın 24-də Şuşa şəhərində keçmiş DQMV üzrə fəaliyyət göstərən əməliyyat-istintaq qrupunun müstəntiqi, polis baş leytenantı D.Q.Əhmədov tərəfindən tərtib edilmiş qərarla icraata götürülmüşdür.

1920-ci il Xocəvənd rayonu Qaradağlı kədində anadan olmuş, təqaüdçü, Qaradağlı kənd sakini Hüseynov Dəmir Masa oğlu 1991-ci il martın 29-da şahid qismində dindirilmiş və aşağıdakılar məlum olmuşdur:

Zülfüqarın qətlə yetirilməsinin həmin gün Müşkabad fermasında olmuş gözətçilər dəqiq bilirlər. Fermanın daimi gözətçiləri Müşkabad kənd sakinləri Raçiklə Suren adlı ermənlərdir.

Hadisə baş verən yerdə hərbiçilərlə birlikdə Xocavənd rayonundan milliyətcə erməni müstəntiq də olmuşdur. Lakin həmin müstəntiq hadisə yerində, eləcə də hadisədən sonra 3 ay ərzində nə onu, nə də ki, Ələkbərin ailəsini dindirməmişdir. Hərbiçilərin rəhbərinə dəfələrlə müraciət edilməsinə baxmayaraq komendant və müstəntiq onlardan izahat almamışdır.

D.Hüseynov ifadəsində bildirmişdir ki, cinayət işi ermənilərin quraşdırma sözləri ilə birtərəfli aparılmışdır.

1991-ci il iyunun 29-da 1962-ci ildə Xocavənd rayonunda anadan olmuş, milliyətcə erməni, 17.10.78-ci il tarixdə Xocavənd rayon Daxili İşlər Şöbəsi tərəfindən VI-JQ, seriyalı, 539646 saylı pasport verilmiş, Muşkapat kənd sakini Davidyan Yurik Aşotoviç şahidi dindirmə protokolunda bildirmişdir ki, 1991-ci il martın 8-də səhər Balayan Larina adlı tanış qız ona demişdir ki, dünən Müşkabad kənd sakinləri Sarkisyan Rudik və Beqlaryan Yurik odlu silahla iki azərbaycanlını qətlə yetirmişlər. Qətlin səbəbi, həmin şəxslərin gecə Müşkabad fermasına mal-

qara oğurluğuna gəlmələri omuşdur. Ə.Quliyev və Z. Hüseynov əvvəlcə erməni gözətçiləri tərəfindən saxlanılmış, sonra isə Qaradağlı kəndinə gedən yolun kənarında gösətrilən şəxslər tərəfindən qətlə yetirilmişdir.

Müstəntiqin R.Sarkisyan və Y.Beqlaryan harada yaşayır və işləyir sualına cavab olaraq Y.Davidyan bildirmişdir ki, Yurik Müşkabad kəndində yaşayır və fermada işləyir. R.Sarkisyan isə Müşkabad kəndində yaşayır və kolxoza məxsus "QAZ 53" markalı maşının sürücüsüdür.

Müstəntiqin, 08.03.1991-ci il tarixdə, təxminən saat 24:00 radələrində Muşkapat kəndi ərazisində, "Sverdlov" kolxozuna məxsus ferma yaxınlığında Qaradağlı kənd sakinləri Ələkbər Quliyev və Zülfüqar Hüseynovun qətlə yetirilməsi faktı ilə bağlı nə deyə bilərsiniz sualı? ilə əlaqədar A.Sarkisyan aşağıdakıları bildirmişdir:

1991-cı il matın 3-də fermada növbədə qalmış, fermanın sağıcısı Beqlaryan Yurik Aşotoviç, kolxozda sürücü işləyən R.Baqdasaryan Rudik Aşotoviç, orada gözətçi işləyən Ayrapetyan Abrik Rubenoviç və anbarın gözətçisi Dadamyan Mişa Maniloviç səhər ona evə zəng etmiş və bildirmişdir ki, gecə iki azərbaycanlı fermaya basqın edərək mal-qaranı oğurlamaq istəmişdir. Bu zaman iki nəfər azərbaycanlı şəxs Rudik və Yurik tərəfindən saxlanılmış, sonra isə həmin ermənilər tərəfindən odlu silahla qətlə yetirilmişlər.

Bundan sonra A.Baqdasaryan evdən çıxaraq hadisə olmuş istiqamətdə hərəkət etmiş və saat 9-30 radələrində fermaya çatmamış Perosyan Sergey Rubenoviçlər rastlamışdır.

Söhbət zamanı S.Petrosyan ona bildirmişdir ki, Rudik və Yurik iki azərbaycanlını qətlə yetirmişlər.

O, hadisə yerinə çatan zaman orada fermanın bütün işçiləri və kolxozun sədri Osipyan Rantikin olduğunu görmüşdür.

O, hadisənin kim tərəfindən törədildiyini soruşduqda, Salvik, Raçik və Abo bildirmişlər ki, iki nəfər Qaradağlı sakinini Baqdasaryan Rudik və Beqlaryan Yurik qətlə yetirmişlər. Yurik Müşkabad kəndində sürücü, Radik isə sağıcı işləmişdir.

Bundan sonra Giçi kənd sakini, əlində qoşalülə və ov tüfəngi olan bir erməni oğlan gəlmiş və demişdir ki, bu tüfəngi qətlə yetirilmiş azərbaycanlılardan götürmüşdür. Yurik Beqlaryan isə kolxozun sərdinə bildirmişdir ki, həmin tüfəng ona məxsusdur. Çünki, o tüfənglə iki azərbaycanlı şəxsi qətlə yetirdiyini demişdir.

Giçi kənd sakini olan naməlum erməni buna baxmayaraq tüfəngi Yurikə qaytarmamış və evinə aparmışdır. Sonra hadisə yerinə Yurik və müstəntiq gəlmiş, A.Sarkisyanın xidməti otağında sənədləşdirmə aparmışlar.

Bu hadisədən təxminən on gün sonra Yurik Belaryanın tələbi ilə kolxozun sədri R.Oseptyan və A.Sarkisyan tüfəngi sahibinə qaytarmaq üçün Giçi kəndinə getmişlər. Onlar kənddə əlində avtomobil silahı olmuş vəziyyəti ona danışaraq həmin ov tüfəngini sahibinə, Y.Beqlaryana qaytarılması üçün kömək etməsini

xahiş etmişlər. Marat həmin naməlum ermənini müəyyələşdirdikdən sonra, həmin şəxs ona hazırda qoşalülə tüfənginin olmadığını demiş, və onun əvəzində “TOZ - 8” markalı silahı və “Viala” markalı radiostansiyanı Y.Beqlaryana aparmaq üçün A.Sarkisyana vermişdir. A.Sarkisyan və R.Osepyan həmin silahlı və radiostansiyanı Muşkapat kəndində Yurik Beqlaryana verimişdir.

A.Sarkisyan əlavə olaraq göstərmişdir ki, hadisənin törədilməsinin təşəbbüskarı, fermada işləyən Beqlaryan Slavik Raçikoviç və kolxozda sürücü işləyən Ayrapetyan Abrik Rubenoviç olmuşlar. Onlardan başqa həmin vaxt Slavikin atası Belaryan Raçik Basklaroviç də fermada idi.

Müstəntiqin, Müşkabad kəndində quldur varmı sualına cavab olaraq bildirmişdir ki, kənd sakinləri Osipyan Qrantik, Ayrapetyan Abrik və Baqdasaryan Rudik kimi tanınırlar.

Muşkapat kəndinə silahlar harada saxlanılır və kim onlara cavabdehdir sualına cavab olaraq A.Sarkisyan bildirmişdi ki, səkkiz ədəd odlu silah femada onun xidməti otağında saxlanılmışdır. Həmin silahlar: üç ədəd (beşatılan) karabin, üç ədəd ikilüləli öv tüfəngi və iki ədəd təhlükəli tüfənglər olmuşdur. Bundan əlavə Ayrapetyan Abrik Rubenoviçin ədə əldə düzəldilmiş silahı olmuşdur. A.Sarkisyanın dediyinə görə, 1991-ci il iyulun 28-də həmin 8 ədəd tüfəngi kolxozun sədrinə qaytarmışdır.

A.Sarkisyan Ovsenyanla birgə hadisədən əvvəl səkkiz ədəd tüfəngi axşam fermada növbədə olan gözətçilərə payladıqlarını demişdir.

1991-ci il iyulun 27-də Şuşa şəhərində, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti üzrə əməliyyat-istintaq qrupunun müstəntiqi, polis kapitanı A.T.Əzimov tərəfindən, 1957-ci il təvəllüdlü, Xocavənd rayonu Müşkabad kənd sakini, milliyətcə erməni Petrosyan Karo Anuşoviçin müttəhim qismində cəlb edilməsi haqqında tərtib edilmiş qərarda aşağıdakılar göstərilmişdir:

1991-ci il iyulun 28-də Şuşa rayon Polis Şöbəsinin əməkdaşı Müşkabad kəndinə olarkən, K.Petrosyan ov tüfəngi ilə ona müqavimət göstərmiş və odlu silahdan atəş açmağa cəhd göstərməsi ilə əlaqədar o, Azərbaycan Republikası Cinayət Məcəlləsinin 189-cu maddəsinin 1-ci və 2-ci bəndlərinin tələblərinə uyğun olaraq cinayət törətdiyi üçün müqəssir qismində cəlb edilmişdir. 1991-ci i iyulun 27-də K.Retrosyan barəsində həbs qəti-imkan tədbiri seçilmişdir.

Cinayət işinin yekun təhlili zamanı məlum olmuşdur ki, Azərbaycan Respublikasının Xacavənd rayonu Müşkabad kənd sakinləri, milliyətcə erməni Beqlaryan Yurik Aşotoviç və Baqdasaeyan Rudik Aşotoviş Qaradağlı kəninin sakinləri Ə.Quliyev və Z.Hüseynovu qəsdən odlu silshla qətlə yetirmişlər.

Göstərilənləri nəzərə alaraq, Xocavənd rayonu Müşkabad kənd sakinləri - erməni quldurları Beqlaryan Yurik Aşotoviç, Baqdasaeyan Rudik Aşotoviş, Retrosyan Karo Anuşoviç və Sakisyan Aşot Ambarsumoviç barədə beynəlxalq ictimaiyyət qarşısında qanuna müvafiq tədbirlər görmək məqsədilə onların “İnterpol” vasitəsilə axtarışa verilməsi nəzərdə tutulmuşdur.

1989-cu il oktyabrın 7-də gecə saatlarında naməlum şəxslər tərəfindən Ağdamdan Şuşaya gedən şose yolunda Xəlfəliçay üzərindəki körpününü partladılması ilə əlaqədar keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin İstintaq şöbəsinin istintaq qrupu tərəfindən 1989-cu il oktyabrın 8-də Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 61-ci maddəsi ilə qaldırılmış 5 cilddən ibarət 38/33063 saylı cinayət işi təhlil edilmişdir.

İşin təhlili zamanı məlum olmuşdur ki, 24 iyun 1991-ci il iyunun 24-dəı Xankəndi şəhərində inzibati hüquqpozma ilə əlaqədar saxlanılmış 20.02. 1964-cü il tarixdə Azərbaycan Respublikasının Xankəndi şəhərində anadan olmuş, milliyətcə erməni, orta təhsilli, 1984-cü il Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 143-cü maddəsinin 2-ci hissəsi ilə məhkum olunmuş, Xankəndi şəhəri Ekimyan küçəsi ev 16, mənzil 10 saylı ünvanda yaşayan Abramyan Artur Artaşesoviç 25 iyun 1991-ci il tarixdə yazdığı ərizə ilə Xəlfəliçay üzərində olan körpünün partladılmasına iştitak etdiyini və digər iştirakçılar barəsində də ifadə verməyə hazır olduğunu bildirmişdir.

A.A.Abramyan ifadəsində cinayətin törədilməsində günahkar olduğunu təsdiq edərək Xəlfəliçay üzərindəki körpünü 07.09.1962-ci il tarixdə, AR Xankəndi şəhərində anadan olmuş, milliyətcə erməni, Xankəndi şəhəri Kubıyeş küçəsi ev 13 saylı ünvanda yaşayan Baqmanyan Akop Qavruşeviç, 1948-ci ildə Azərbaycan respublikasının Şuşa şəhərində anadan olmuş, milliyətcə erməni, əhali arasında "Muradik", "General" və "Keçəl" kimi çağrılan Petrosyan Murad Azadoviç; 1966-cı ildə Azərbaycan Republikasının Xankəndi şəhərində anadan olmuş, milliyətcə erməni, Xankəndi şəhəri Ketsxoveli küçəsi 29 saylı ünvanda yaşayan Xaçaturyan Aşot Vaçaqanoviç; 1965-ci ildə Azərbaycan Respublikasının Xankəndi şəhərində anadan olmuş, milliyətcə erməni, Xankəndi şəhəri Teryan küçəsi 20 saylı ünvanda yaşayan (ev tel: 4-10-65) Babayan Samvel Andronikoviç ilə birlikdə həyata keçirmişlər. Qeyd olunanlarla əlaqədar, 3 avqust 1991-ci il tarixdə Şuşa şəhərində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 82-ci maddəsi ilə Babayan Samvel Andronikoviç barəsində 33028 saylı cinayət işi başlamış və sonra 38/33063 saylı cinayət işinə əlavə edilmişdir.

1991-ci il iyulun 15-də Artur Abramyan şahid qismində dindirilmə zamanı bildirmişdir ki, o, 1989-cu ilin may ayında Xankəndi-Ağdam şose yolunun kənarında, Həsənabad qəsəbəsi yaxınlığında Petrosyan Muradik ilə sonuncunun təşəbbüsü ilə görüşmüşdür. M.Petrosyan sarı rəngli şəxsi "Niva" markalı, X64-03 AQ dövlət nömərli nişanlı maşında A.Abramyanın ona sürücülük etməsini təklif etmiş və sonra bildirmişdir ki, bundan sonra o, DQMV-ni Ermənistana birləşdirilməsi üçün fəaliyyətini gücləndirəcəkdir.

Bir neçə gündən sonra, Xankəndi şəhər komsomol təşkilatının qarşısında M.Petrosyan onu Aşot Xaçaturan, Akop Baqramyan, Abo, Xankəndində bazarın yanında yaşayan Qaqo və Ermənistanın Gorus rayonundan gəlmiş və əvvəllər həmin rayonda karxanada partladıcı işləmiş Slavikla tanış etmişdir.

Sonra.M.Petrosyanın göstərişi ilə həmin şəxsləri və partlayıcı maddələr doldurulmuş, idarə etdiyi "Niva" markalı maşınla Ağdaş-Şuşa şose yolunun yaxınlığında yerləşən Kərkər pioner düşərgəsinin yaxınlığına gətirmişdir. Onlar Ağa körpüsü adlanan və Şuşa ilə Ağdamı birləşdirən şose yolundakı körpüyə 400-500 metr qalmış dayanmış, sonra çayı piyada keçərək körpüyə çatmışlar. Baqramyan Akop və Slavik tərəfindən meşəlik ərazidən gətirilmiş pilləkən vasitəsi ilə partlayıcı maddələr körpünün sütunlarının altına qoyulmuşdur.

Onlar hazırlıq işlərini başa vurub Xankəndiyə qayıtdıqdan sonra Akop Baqramyan və Slavik Muradikə bildirmişlər ki, qadağan saatdan sonra partlayış olacaqdır. Ertəsi gün A.Abramyana məlum olmuşdur ki, körpü partladılmışdır.

A.Abramyan bildirmişdir ki, M.Petrosyanın göstərişi ilə körpünün partladılmasında məqsəd Ağdam Şuşanın əlaqəsini kəsmək olmuşdur. Belə ki, Akop, Abo, Qaqo, Slavik və Aşot hadisə yerinə gedərkən o, dəqiq bildirmişdir ki, Ağdamla Şuşanı birləşdirən körpünü partlatmağa gedirlər.

Qrişa Baqramyan Akopun quldur dəstəsinə daxildir. Təxminən 40-45 yaşındadır, orta boyuludur, saçları qıvrımdır, bığı var, sağ və sol yanağında yanığ izləri vardır. Xankəndi şəhəri Engels küçəsində yaşayır.

A.Abramyanın sözlərinə görə, Muradikin təxminən 40-43 yaşı olar, Yerevanda Politexnik İstitutunu bitirmişdir. Orta məktəbdə təlim işləri üçün nəzərdə tutulmuş avtomat silahını oğurladığı üçün təxminən on illik həbs cəzasına məhkum olunmuşdur. M.Petrosyan Vilayət Komitəsinin aarxasındakı dörd mərtəbəli evin üçüncü mərtəbəsində yaşayır. Bir otaqdan ibarət olan mənzilin eyvanı Vilayət Partiya Komitəsinə baxır. Ailəsi ilə birlikdə yaşayır.

A.Abramyanın sözlərinə görə, M.Petrosyan tez-tez R.Köçəryanla ünsiyyətdə olur. Bununla əlaqdar, daima Vilayət Partiya Komitəsində R.Köçəryanın xidməti otağında söhbət edirlər. Söhbətləri barədə A.Abramyan heç nə məlum deyil.

A.Abramyan bildirmişdir ki, 1991-ci ilin yanvar-fevral aylarına Xocavənd rayonunda M.Petrosyan və Akop Baqramyanda 20 güllə ilə birlikdə Çexoslavakiya buraxılışı olan "Skorpion" avtomatını görmüşdür.

Sonra M.Petrosyan onu Xocavənd rayonuna aparmış, orada prokurorluq və ya polis şöbəsinin yaxınlığındakı şəhər istilik Qazanxanalar Trestinə daxil olaraq həmin təşkilatın müdiri, quldur dəstəsinin başçılarından biri Vigen ilə tanış etmişdir. Həmin görüşdə M.Petrosyan Vigenə "azərbaycanlılardan qorunmaq" məqsədi ilə rayon sakinlərindən ibarət silahlı dəstə yaratmağı tapşırmış, Vigen isə onun 100 nəfərdən ibarət odlu silahlarla təchiz olunmuş dəstəsi olduğunu demişdir. Silahlar Yerevandan vertolyotla gətirildikdən sonra Vigen onları şəxsən dəstə üzvləri ilə paylamışdır.

Bundan sonra A.Abramyan 1989-cu ildə Vigenin neçə dəfə Xankəndiyə gəlməsinin və şəhər İcra Komitəsində, Barama Kombinatı Partiya Komitəsinin

katibi R.Köçəryanın xidməti otağında M.Petrosyanla görüşünün şahidi olduğunu bildirmişdir.

Belə ki, Vigen şəhər İcraiyyə Komitəsinə daxil olarkən A.Abramyan M. Petrosyanı aşağıda maşında gözləmişdir.

A.Abramyan bildirmişdir ki, Vigenin təxminən 38-40 yaşı olar, orta boyludur, orta bədən quruluşuna malikdir. Saçları qaradır, bığ saxlayır, burnu düzdür.

O, Xankəndi Daxili İşər İdarəsinin rəisi Kovalyov barəsində bildirmişdir ki, M.Petrosyanla Vilayət İcraiyyə Komitəsinin qarısında dayanarkən Akop Abramyan ona yaxınlaşmış və demişdir: "Akop, Armen və Samvel ilə birlikdə Kovalyova avtomat silahı ilə atəş açmışıq, lakin öldürə bilməmişik". A.Abramyanın dediyinə görə, onun Madrikə hesabat verməsindən aydın olmuşdur ki, bu işə də M.Petrosyan başçılıq etmişdir. Həmin şəxslərdə olan avtomat silahlarını da onlara M.Petrosyan vermişdir.

A.Abramyanın ifadəsinə görə, Dağlıq Qarabağa bütün odlu silahlar erməni milli ordusunun başçısı Vazgen Sarkisyan tərəfindən vertolyotla göndərildi.

M.Petrosyanın rəhbərlik etdiyi quldur dəstəsinin digər üzvləri barəsində də aşağıdakılar bildirilmişdir:

Sasun - Xankəndi şəhər sakini, Engels keçəsində yaşayır. Qara qıvrım saçları, qara gözləri var. 22-23 yaşı olmuşdur. Azərbaycan Respublikasının Xankəndi şəhər Polis əməkdaşının sahibidir.[1]

Aşot Xankəndi şəhər sakinindir. Elgels küçəsində. Sasunla üzbəüz binada yaşayır. Subaydır, "Zaporojets" markalı maşının sahibidir.

Şuşaya atılmış raket barədə ifadə verərək A.Abramyan bildirmişdir ki, hadis\ə ilə əlaqədar Azərbaycan televizityasında məlumat verildikdən sonra Xankəndi kolxoz Abramyanla bazarda rastlaşmışdır. Söhbət zamanı S.Babayan A.Abramyaa demişdir ki, Şuşanı raketlə atəşə tutulması onun işidir.

Quldurlar və onların rəhbərlərinə pullarına haradan və kim tərəfindən göndərilməsi sualına cavab olaraq A.Abramyan bildirmişdir ki, pullar Yerevandan Levonlu Ter-Petrosyanın müavini Manukyan Vazgen tərəfindən vertolyotla Xankəndi Barama Kombinatının Partiya Komitəsinin katibi Robert Köçəryana göndərilirdi. O, eyni zamanda daş karxanasının müdiri Manuçarovun bir dəfə 150 min, daha sonra 50 min rubl pulu Robert Köçəryana verdiyini qeyd etmişdir. A.Abramyanın ifadəsinə görə, o, Robert Muradikə dəfələrlə 5.000, 10.000, 30.000, 45.000, 50.000, 150.000, 200.000 məbləğində pul verməsinin dəfələrlə şahidi olmuşdur. Çünki Yerevandan pul gələn gün Robert Köçəryan Muradikə və Abramyana da "zəhmət haqqı" vermişdir.

[1] AR MTN Arxiv sənədi

Eyni zamanda A.Abramyan bildirmişdir ki, general Safonovun qətlə yetirilməsi göstərişini də Robert Köçəryan vermişdir.

1991-ci ilin qış ayları idi. A.Abramyan dostu Armenə məxsus "VAZ-1209" markalı, 54-95 (Moskva şəhərinə məxsus) dövlət nömrə nişanlı maşınla gedərkən Xankəndi şəhərinin Engels küçəsində təsadüfən Aşotla rastlaşmışdır. Aşot onu Samvel Babayanın mənzilə aparmasını xahiş etmişdir. Evə yaxınlaşan zaman S.Babayanın mənzilinin yanında idi ki, "UAZ-469" markalı birincisi X 78-50 AQ dövlət nömrəli nişanlı, ikincisi isə Xankəndi Bankına məxsus 03-91 AQA dövlət nişanlı maşınlar dayandığını görmüşdür. Maşınların yanında isə 20 nəfərə yaxın cavan oğlan, o cümlədən Samvel Babayan dayanmışdır. S.Babayan bildirmişdir ki, Martuni rayonunda azərbaycanlılar erməniləri atəşə tutumuş və hətta Çartar kəndini işğal etmişlər. Bundan sonra onlar S.Babayanın təklifi ilə həmin iki maşına yerləşərək hadisə yerinə getmişlər. Sonra onlar Xocavənd rayonunun Mismına kəndində olmuşlar. Həmin kənddə S.Babayanın ata və baba evi vardır. S.Babayanın göstərişi ilə 03-91 dövlət nömrə nişanlı maşının sürücüsü Rafik yerli oğlanlarla harasa getmiş və 15 dəqiqədən sonra qayıtmışlar. S.Babayan avtomatları, dəmir qutulardakı partonları, 4 ədəd pulemyotu, qumbaraatan silahı və 3 ədəd əl qumbaralarını Xankəndindən gələnlərə paylamışdır. Onlar Çartar kəndinə getmiş və kənd sovetinin binasına daxil olan Samvel 10 dəqiqə sonra qayıtmış və məlumatların yalan olduğunu bildirmişdir.

1991-ci il martın 11-də Çexoslovakiya istehsalı olan "Skorpion" avtomatı ilə silahlanmış Akop Baqramyanla birlikdə DQMV-nin hərbi komendantı işləmiş general-mayor V.N.Safonovu qətlə yetirmək məqsədilə vertolyotla Ağdərədən Yerevan şəhərinə getmişlər. Yerevandan Rostov-Dona gedən zaman A.Abramyan səfərdən imtina etmiş və Xankəndinə qayıtmışdır. Sonra o, mətbuatdan xəbər tutmuşdur ki, Rostov-Don şəhərində Xankəndi sakinləri xarici ölkə istehsalı olan avtomatla keçmiş SSRİ DİN-nin Daxili Qoşunlarının Şimali Qafqaz və Zaqafqaziya üzrə idarəsinin rəis müavini polkovnik V.P.Blaxotini qətlə yetirmişlər. A.Abramyanın sözlərinə görə, o, dərhal bilmişdir ki, bu A.Baqramyanın və onun qrupunun işidir. Azərbaycan xalqına qarşı Dağlıq Qarabağ və həmçinin ölkənin işğal olunmuş digər ərazilərində cinayətlər törətmiş erməni quldur dəstələri, onların rəhbərləri və ideoloqlarının müəyyən edilərək barələrində beynəlxalq ictimaiyyət qarşısında qanuna müvafiq tədbirlərin görülməsi məqsədi ilə daxil olmuş materialların təhlili nəticəsində aşağıdakı məlumatlar əldə edilmişdir:

Füzuli rayonu Üçbulaq (Hoğa) kənd sakini, məcburi köçkün kimi Fizuli rayonunun Bala Bəhmənli kəndində məskunlaşmış Zülfüqarov Xasay Şirin oğlu ərizəsində göstərmişdir ki, 1988-ci ildən erməni quldur dəstələri Ermənistanda yaşamış həmvətənlərimizə və Dağlıq Qarabağda azərbaycanlılara qarşı soyqırımı törətmişlər. 1992-ci ilin mart ayının 31-də gecə erməni quldurları kəndə hücum etmiş, əhalini qətlə yetirmiş, evləri talan edib yandırmış, mal-qaranı aparmışlar.

1998-ci ildən başlayaraq, ermənilər yaşayan qonşu Düdükçü kəndində toplaşmış erməni quldur dəstələri mütəmadi olaraq azərbaycanlılara hücum etmişlər[1]. Həmin dövrdə kənd sakini Abbasov Hüseyn şəxsi mal-qarasını ərazidə otararkən erməni quldurları tərəfindən ölümcül vəziyyətə salınmışdır. Əhali arasında gəzən söhbətlərə görə, erməni quldurlarının başçısı Ermənistandan gəlmiş Manvel adlı erməni olmuşdur.

Ermənilərin mərkəzi qərargahı həmin dövrdə Hoğa kəndinin yuxarı hissəsində meşəlikdə Ballı bulağın yaxınlığında yerləşmişdir. Hoğa kəndində yaşayan Melkumyan Nikolay Markarayeviç də həmin dəstənin üzvü idi.

- 1962-ci il təvəllüdlü, Füzuli rayonu Bala Bəhmənli kənd sakini, erməni girovluğunda olmuş Tağıyev Yaqub Oruc oğlu yazdığı ərizəsində göstərmişdir ki, 1993-cu ilin avqust ayından 1995-ci ilin dekabr ayınadək erməni girovluğunda olmuşdur. O, Hadrut və Xocavənd rayonlarında, Şuşa həbsxanasında və Xankəndidə saxlanılmışdır. Saxlanıldığı göstərilən şəxs Azərbaycanın yaşayış məntəqələrində ermənilərin əsir və girovlara qarşı son dərəcə amansız rəftarının şahidi olmuşdur. Y.Tağıyev dəfələrlə onun gözünün qarşısında azərbaycanlıların döyüldüyünün, işgəncələrə məruz qaldıqlarının və güllələndiklərinin şahidi olmuşdur. Belə ki, Füzuli rayonunun Şıxlı kənd sakinləri Müşfiqi, Rafiqi, Qədiri, Ağdaş rayonundan İlqarı, qubalı Laçını və onu ermənilər döyərək dözülməz hala salmışlar. Ermənilər bıçaqla onların bədənlərini deşir, siqaret kötüyü ilə yandırır, zopa ilə döyürdülər. Sonra onlar Laçının bədəninə 3 avtomat xəzinəsini boşaldaraq (atəş açaraq) qətlə yetirmiş, sonra isə onun meyitini tualetə tullamışlar.

Ermənilər sonra girovluqda saxlanılmış Füzuli rayonu Horadiz kənd sakini Cahangir adlı yaşlı kişini döyərək qətlə yetirmişlər. Ermənilər Füzuli rayonu Dədəli kənd sakini Ənvər adlı yaşlı kişinin qulaqlarını avtomat gülləsi ilə kəsdikdən sonra, qollarını sındırmışlar. İşgəncələrə dözməyən Ənvər vəfat etmişdir. Fizuli rayon sakini Fərman adlı şəxsi ermənilər avtomat qundağı və bel ilə döyərək qətlə yetirmişlər.

Bu vəhşilikləri törətmiş erməni quldurları - Alyoşa, Artur, Lyova və Gorgi olmuşdur.

- 1958-ci ildə Füzuli rayonunun Əhmədalılar kəndində anadan olmuş, azərbaycanlı, erməni girovluğunda saxlanılmış Suleymanov Qarahəsən Abdulla oğlu izahatında göstərmişdir ki, 1993-cü ilin oktyabr ayında yeznəsi Məmmədov Mehman Şura oğlu şəxsi “Moskviç” markalı maşınında ilə birlikdə Bakı şəhərinə gedərkən Füzuli rayonunun Yağlıvənd kəndi ərazisində ermənilər tərəfindən girov götürülmüşlər.

Girovluq dövründə o, ermənilər tərəfindən azərbaycanlılara qarşı aşağıdakı vəhşiliklərin şahidi olmuşdur:

---

[1] ARMTN Arxiv sənədi

- Belə ki, o, yeznəsi Məmmədov Mehman Şura oğlunun zopa ilə, avtomatın qundağı ilə, dəyənəklə, dəmirlə ermənilər tərəfindən döyüldüyünün şahidi olmuşdur. Döyülməkdən və işgəncələrdən Mehmanın daxiü orqanları sıradan çıxmış görə və o, vəfat etmişdir.

- Əslən Bakı şəhərindən olan Adil adlı şəxsə qarşı ermənilər tərəfindən son dərəcə ağır işgəncələr verilmişdir. O, bunlara dözməyərək özünü elektrik cərəyanına toxunduraraq həlak olmuşdur.

- Həmkəndlisi Həsənov İlham Umud oğlu ermənilərin amansız işgəncələrinə məruz qalması ilə əlaqədar bunlara dözməyərək vəfat etdi[1].

- Ermənilərin girovluqda saxlanılmış şəxslərin üstünə quduz itləri buraxaraq onları yedirtmələrinin şahidi olmuş, özünün döyülməkdən daxili orqanları sıradan çıxmışdır.

- Füzuli rayonu Üçbulaq kənd sakini Əkbərov Ənvər yazdığı izahatında göstərmişdir ki, 1988-ci ildən başlayaraq erməni quldurları mütəmadi olaraq onların yaşadıqları kəndlərə silahlı basqınlar etmiş, mal-qaranı oğurlamışlar.

1988-ci ildən başlayaraq Dağlıq Qarabağ ərazisində Hoğa kənd sakini, milliyyətcə erməni olan, orta məktəbdə riyaziyyat müəllimi işləyən Melkumyan Nikolay Markar oğlunun rəhbərlik etdiyi erməni cəmiyyəti fəallıq göstərmişdir. Həmin cəmiyyət əzəli Azərbaycan torpağı olan Qarabağın Ermənistana birləşdirilməsi üçün geniş təbliğat və digər pozuculuq fəaliyyətləri ilə məşğul olmuşdur. Bundan başqa Tuğ kənd sakini, məktəb partiya təşkilatının katibi Qriqoryan Vigen, sovxoz direktorunun müavini işləmiş Yoqa, Tuğ kəndi üzrə sahə müvəkkili, polis baş leytenantı olmuş Ediq və başqaları Qarabağın Azərbaycandan qoparılması istiqamətində fəaliyyət göstərmişlər.

1991-ci ilin sentyabr ayında özü də daxil olmaqla 5 nəfər kənd sakini - Hacıyev Rafiq Ədil oğlu, Hüseynov Nizami Adışirin oğlu, Hüseynov Zülfüqar Adışirin oğlu və Qəhrəmanov Əhliman Qəhrəman oğlu rus hərbçilərinə bələdçilik edərək ətraf erməni kəndlərində pasport rejimini yoxlamışlar. Onlar Hadrut rayonunun Gilədiz, Məmmədəzor, Tuğ, Azıx, Draktik, Hatant, Əhəngli və Sussalıq kəndinə və rayonun ən hündür meşəlik ərazisində yerləşən Qalaya getməyi planlaşdırmışlar.

Onun bələdçilik etdiyi dəstə Hatant kəndini yoxlayarkən zaman kəndin kənarında yerləşən quşçuluq fermasından 90 dəst hərbi geyim aşkar edib götürmüşdür. Hərbi geyimin papağı və onun üzərində eynəyi var idi. Rus hərbçilərindən ibarət digər dəstələr Çirəgüz kənd sakini, silah düzəldən Melik müəllimin evindən odlu silah, Draktik kəndində Yaşanın evindən bir ədəd beşatılan və radioəlaqə qurğusu aşkar edərək götürmüşlər.

---

[1] ARMTN Arxiv sənədi.

Sonra rus hərbiçiləri tərəfindən Xankəndidən Hadruta gedən yeni salınmış şose yolda reydlər keçirilmişdir. Reydlər zamanı Ermənistandan Azərbaycanın Dağlıq Qarabağ bölgəsinə qanunsuz gətirilmiş 1 ədəd "QAZ-24", 1 ədəd "ZİL-130" markalı maşınlar müsadirə edilmişdir. Məmmədəzor kənd sakininin idarə etdiyi "ZİL" markalı maşından 2 ədəd ət qumbarası aşkar edilərək götürülmüşdür.

1992-ci il mart ayının 16-da erməni quldurları meşəlik ərazidən avtomat silah ilə kənd sakini Kərim Kərimovu yaralamışlar. Elə həmin gün erməni quldurları Füzuli şəhərinə 10-dan çox "Qrad" raketi atmış və nəticədə bir neçə dinc sakin, həmkəndlisi Murtuzayev Qadir Hərbiyyə oğlu həlak olmuşdur.

1992-ci fevralın 14-də isə Gövşadlı kəndi yaxınlığında 2 nəfər azərbaycanlı minaya düşmüşdür. Onlardan Quliyev Bayram Əyyub oğlu həlak olmuş, Babayev Yusif Cahangir oğlu isə ağır yaralanaraq I qrup əlil olmuşdur.

1992-ci il martın 31-də Manvel adlı ermənininin başçılıq etdiyi 60 nəfərdən ibarət quldur dəstəsi Üçbulaq (Hoğa) kəndini işğal etmiş, üç nəfər kənd sakinini qətlə yetirmiş, bir nəfər girov götürülmüş, evlər talan edilərək yandırılmışdır. Manvelin dəstəsinin altmış nəfərdən ibarət olmasını Düdükçü kənd sakini Hayk adlı erməni hadisədən bir müddət əvvəl danışmışdır.

Erməni quldur dəstələri 2 aprel 1993-cü ildə isə Gövşadlı kəndini işğal etmişlər.

İşğal zamanı hər iki kənddən on bir nəfər şəhid olmuş, on yeddi nəfəri müxtəlif dərəcəli əlil olmaqla otuz səkkiz nəfər yaralanmışdır.

- 1958-ci ildə Füzuli rayonunun Üçbulaq (Hoğa) kəndində anadan olmuş, orta təhsilli, ailəli, hal-hazırda Füzuli rayonunun Qarabağ kolxozunda məskunlaşmış Ələkbərov Allahverdi Xanlar oğlu ərizəsində göstərmişdir ki, 1992-ci il martın 30-da idarə etdiyi "ZİL" markalı maşınla həmkəndlisi Quliyev Elman Qubad oğlu ilə birlikdə səngərdə yaralanmış Cəfərov Elyar Bəxtiyar oğlunu rayonun mərkəzi xəstəxanasına aparan zaman Üçbulaq kəndinin qəbiristanlığının yaxınlığında şose yolunda maşının altında partlayış baş vermişdir. Partlayış zamanı maşın sağ tərəfə aşmış və yanmışdır. Bu vaxt ermənilər kənardan avtomat silahları ilə onları atəşə tutmuşlar. O, maşından düşərək yaxınlıqdakı üzümlüyə qaçmışdır. Sonra o, Elyarın və Elmanın maşından kənarda olduqlarını, sonuncunun isə tamamilə yanaraq çabaladığını görmüşdür. Bir müddət sonra sovxozun direktoru Hacıyev İlyas Ədil oğlu maşınla onların köməyinə gəlmişdir. Elmanın yanığı çox olduğundan Bakı şəhərinə aparılsada, onu xilas etmək mümkün olmamışdır.

Hadisə yerində jurnalistlər tərəfindən çəkiliş aparılmışdır. Həmin hadisədən sonra 10-12 nəfər kənd sakini "PAZ-66" markalı avtobusla kənddən çıxarkən avtobus ermənilər tərəfindən qumbaraatan silahla vurulmuşdur. Cinayət hadisəsi nəticəsində gözləri kor olmuş və ayağının birini itirmiş Əliyev Əbülfət İsmayıl oğlu xəstəxanada vəfat etmişdir.

1938-ci ildə Kəlbəcər rayonunun Dəmirçidam kəndində anadan olmuş Həsənova Qəmər Binnət qızı 1993-cü il aprel ayının 4-də Kəlbəcər rayonunun Dəmirçidam kəndinə daxil olmuş erməni hərbçiləri tərəfindən yaşadığı evdə girov götürülmüş, xəstə anası Verdiyeva Tamam İbrahim qızı isə diri-diri yandırılmışdır. Bu dəhşətli hadisənin gözləri qarşısında törədilməsi, özünün isə işgəncələrə məruz qalması səbəbindən Q.Həsənova huşunu itirmiş və ayılarkən qonşu Çəpli kəndinə gətirildiyini görmüşdür. Orada bir həftə qaldıqdan sonra Ermənistanın Basarkeçər (indiki Vardenis) rayonuna aparılmış və bir neçə gündən sonra isə Yerevan şəhər hərbi polis təcridxanasına köçürülmüşdür. Q.Həsənova təcridxanada dözülməz vəziyyətdə saxlanılaraq, ağır işgəncələrə məruz qalmışdır.

Q.Həsənova 1994-cü ilin fevral ayında Qızıl Xaç Komitəsinin vasitəsilə girovluqdan azad edilərək Azərbaycana təhvil verilmişdir. Erməni girovluğunda olarkən ona verilən işgəncələr nəticəsində Q.Həsənova ağır iflic xəstəliyinə tutulmuşdur.

Qondarma "Dağlıq Qarabağ Respublikasın"da rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən azərbaycanlıların kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulmaları və qətlə yetirmələri üçün şərait yaratmış, bu işi həyata keçirmək məqsədilə erməni quldur dəstələrini zəruri vəsaitlərlə təmin etmiş R.Köçəryan, S.Sarkisyan, A.Qukasyan, S.Babayan və digərlərinin cinayət əməlləri barədə materiallar toplamaq məqsədilə Milli Təhlükəsizlik Nazirliyi xətti ilə əldə olunmuş məlumatların təhlili zamanı aşağıdakılar məlum olmuşdir:

- Cəbrayıl rayon sakini hazırda Sabirabad rayonunda məcburi köçkün kimi məskunlaşmış Əsədov Şiraslan adlı şəxs ərizəsində göstərmişdir ki, R.Köçəryanın qondarma "Dağlıq Qarabağ Respublikası"na rəhbərlik etdiyi dövrdə fəaliyyəti nəticəsində minlərlə azərbaycanlı qətlə yetirilmiş, bir milyondan çevrilmişdir. R.Köçəryan azərbaycanlılara qarşı kütləvi terror aksiyasının həyata keçirilməsini təmin etmiş, hazırda bu fəaliyyətini Ermənistanda dövlət səviyyəsində davam etdirir.

- Cəbrayıl rayonunun işğalı nəticəsində məcburi köçkün olmuş İsmayılov Tahir Məhəmməd oğlu ərizəsində göstərmişdir ki, 1993-cü ildə Robert Köçəryan, Samvel Babayan və Karen Babayanın rəhbərlik etdiyi erməni quldur dəstələri respublikamızın ərazilərini işğal edərək əmlakımızı əlimizdən aldılar, digər sakinlərlə yanaşı atamı da öldürdülər.

- Cəbrayıl rayonundan olan digər məcburi köçkün Bayramov Məhərrəm Allahverdi oğlu yazdığı ərizəsində göstərmişdir ki, 1993-cü ii avqust ayının 15-də Robert Köçəryan, Samvel Babayan və Karen Babayanın rəhbərlik etdiyi erməni terrorçu dəstələri kəndimizi işğal etdilər. Onlar tanklar və digər ağır hərbi texnikalardan istifadə etməklə kəndə hücum edib sakinləri girov götürdülər, əmlakımızı talan etdilər. Girov götürülənlər arasında qocalar, uşaqlar və cavanlar var idi".

- Cəbrayıl rayonundan olan digər məcbüri köçkün Musayev Əziz Həsən oğlu yazdığı ərizəsində göstərmişdir ki, məlum hadisələr zamanı Dağlıq Qarabağda yaşayan erməni daşnaklarının lideri Robert Köçəryanın rəhbərliyində olan dəstə Azərbaycan Respublikasının ərazilərinin işğal və talan edilməsində, azərbaycanlıların vəhşicəsinə qətlə yetirilmələrində və girov götürülmələrində fəal iştirak etmişdir. Onun rəhbərliyi altında fəaliyyət göstərmiş erməni silahlı dəstələri Cəbrayıl rayonunu işğal edərkən uşaqlara, qocalara, əlsiz-ayaqsızlara münasibətdə xüsusi qəddarlıq göstərmişlər.

- Cəbrayıl rayonunun sakini Piriyeva İmarət Nəriman qızı ərizəsində göstərmişdir ki, Robert Köçəryanın erməni terrorçu dəstələri 1993-cü ildə Cəbrayıl rayonunu işğal etdi. Ermənilərin hücümü zamanı rayon sakinləri öz doğma yurdlarından qovulub çıxarıldı, bir çoxu, o cümlədən kənd sakini Qasımov Mübariz qətlə yetirildi.

- Zəngilan rayonu Ördəkli kənd sakini Məmmədov Əliyar İsfəndiyar oğlu ərizəsində göstərmişdir ki, məlum Qarabağ hadisələri dövründə torpaqlarımıza hücüm etmiş erməni quldurları rayonu işğal, sonra isə talan etmişlər. Bu işğal Robert Köçəryanın və Arkadi Qukasyanın rəhbərliyi altında fəaliyyət göstərmiş quldur dəstələri tərəfindən həyata keçirilrniş və onların əli neçə-neçə soydaşımızın qanına batmışdır.

- Zəngilan rayon sakini Muradov Ağakişi Ağamurad oğlu yazdığı ərizəsində göstərmişdir ki, biz vaxtilə Zəngilan rayonunda yaşayarkən qondarma “Dağlıq Qarabağ Respublikası”nın prezidenti R.Köçəryan, onun əlaltıları S.Sarkisyan, A.Qukasyan və başqaları silahlı dəstələr düzəldərək yaşayış məntəqələrinə basqınlar etmiş, əhalinin var-dövlətini talamışlar. O, həmçinin bildirir ki, bu vəhşi quldurların silahlı basqınları nəticəsində qorxudan xəstəliyə tutulmuş anam yataq xəstəsidir.

- Zəngilan rayon sakini Muradov Hüseyn Ağakişi oğlu ərizəsində göstərmişdir ki, onlar Zəngilan rayonunda yaşadıqları dövrdə qondarma “Dağlıq Qarabağ Respublikası”nın prezidenti olmuş R.Köçəryan eyni zamanda, onun əlaltılarının rəhbərliyi altında fəaliyyət göstərmiş erməni silahlı dəstələri kəndlərə basqın edərək insanları vəhşicəsinə qətlə yetirmiş, mal-qaranı aparmış, evləri yandırmışlar.

Zəngilan rayon sakini Məhərrəmov Bəhruz Musa oğlu ərizəsində göstərmişdir ki, 1993-cü ildə Köçəryan və Sarkisyan kimi qatillərin rəhbərliyi altında fəaliyyət göstərmiş quldur dəstələri qəsəbəni işğal etmişlər. İşğal zamanı erməni terrorçuları rayon sakinlərini vəhşicəsinə qətlə yetirmiş, qocalara və uşaqlara rəhm etməmiş, evləri talan edib yandırmışlar. Silahsız və sağ qalmış mülki əhali özlərini müdafiə etmək məqsədilə Araz çayına girməyə məcbur olmuşlar.

- Füzuli rayon sakini Süleymanova Meyxanım İdris qızı ərizəsində göstərmişdir: “Hazırda Ermənistanda prezident kürsüsündə əyləşən R.Köçəryan və

onun silahdaşı S.Babayanın başçılıq etdiyi quldur dəstələri 1993-cü ildə rayonumuza hücum edərək dinc əhaliyə qarşı vəhşiliklər etdilər. Ölənlərin arasında yaxın qohumlarımız və qonşularımız da olmuşdur. Biz - yoldaşım və mən üstünü kol örtmüş su kanalının içində gizləndik. Qaranlıq düşəndə sürünə-sürünə, sonra isə qaçaraq çətinliklə erməni quldurlarının əlindən xilas olduq".

- Füzuli rayon sakini Qasımov Mətləb Misir oğlu yazdığı ərizəsində göstərmişdir ki, doğma Qarabağ torpaqlarımız ayrı-ayrı erməni millətçilərinin məkrli və şovinist siyasətlərinin qurbanı olmuşdur.

O, torpaqlarımızın, evinin, bütün yaşamaq imkanlarının itirildiyini, on ilə yaxındır ki, yurdsuz-yuvasız qaldığını yazır. Qasımov Mətləb Qarabağ savaşının əsl səbəkarları-R.Köçəryanın, S.Babayanın, A.Qukasyanın və digər cinayətkarların hələ də cəzasız qaldıqlarına təəssüflənir. Onun fikrincə, müsibətlərimizin baiskarları beynəlxalq məhkəmələr qarşısında cavab verməklə layiqli cəzalarını almalıdırlar.

- Füzuli rayon sakini İbrahimova Validə Cəfər qızı yazdığı izahatında göstərmişdir ki, hal-hazırda Ermənistan prezidenti R.Köçəryan və qondarma "DQR"ə rəhbərlik edən A.Qukasyan həqiqətən qaniçən, vətəndaşlarımızı güllələyən cani və cinayətkarlardır. V.İbrahimova bu alçaqlıqları öz gözləri ilə görən bir insan kimi xahiş və tələb edir ki, onlar haqqında beynəlxalq aləmdə lazımi ölçü götürsünlər, Robert Köçəryan Ermənistan kimi işğalçı bir dövlətə başçılıq edən rəhbər olaraq tanınsın.

Füzuli rayon sakini Qasımov Qasım Şahbala oğlu ərizəsində göstərmişdir ki, 1993-cü il avqustun 17-də nahar fasiləsinə yaxın erməni quldurları qəflətən kəndə hücum edərək kəndi işğal etmişlər. Ermənilər kəndə ağır hərbi texnikalarla hücum zamanı cavanları, o cümlədən kənd sakini Fikrət və oğlunu qətlə yetirmiş, nişanlı qızını isə girov götürmüşlər. Onun göstərdiyinə görə, erməni quldurları R.Köçəryanın, onun əlaltıları S.Babayanın və S.Sarkisyanın göstərişləri əsasında dinc əhaliyə qarşı amansız vəhşiliklər həyata keçirirdilər. Q.Qasımov həmin vaxt girov götürülmüş Fəxrəddinin taleyi barəsində məlumat olmadığını bildirmişdir.

Yuxarıda adları çəkilən Cəbrayıl, Zəngilan və Füzuli rayon sakinləri Azərbaycan xalqına qarşı kütləvi cinayətlərin törədilməsində erməni quldur dəstələrinə rəhbərlik etmiş. Köçəryan, S.Babayan, K.Babayan S.Sarkisyanın qanun çərçivəsində cəzalandırılmasını xahiş etmişlər.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlər zamanı aşağıdakı faktlar haqqında məlumatlar alınmışdır:

1991-ci il iyunun 26-da Ağdərə rayonunun Zəylik kəndi ərazisində 65-69 AQF dövlət nömrə nişanlı "Ural" markalı maşınla hərəkət edərkən hərbçilər tərəfindən saxlanılmış və maşında yoxlama keçirmək istəyərkən 1951-ci ildə AR Ağdərə rayonunun Hoçoqot kəndində anadan olmuş milliyyətcə erməni, orta

natamam təhsilli, Ağdərə rayonunun Yuxarı Oratağ kəndində yaşamış Ayriyan Arkadi Abramoviç əlindəki F-1 qumbarası ilə hərbçiləri öldürəcəyi ilə hədələmiş və onu buraxmalarını tələb etmişdir. Hərbçilər onu aldadaraq qumbaranı əlindən almış və axtarış zamanı maşından bir ədəd avtomat-tapança tipli silah və 40 ədəd "Makarov" tapançasına məxsus güllə tapıb götürmüşlər. O, qanunsuz silah gəzdirməsi ilə əlaqədar həbs edilmiş, istintaq zamanı onun tərəfindən azərbaycanlılara qarşı bir neçə cinayət törədilməsi təsdiqləndikdən sonra 1991-ci il dekabrın 12-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 70-ci maddəsi ilə təqsiri bilinərək cinayət işinin istintaqına başlanılmışdır.

İstintaq müddətində onunla keçirilmiş dindirilmələr zamanı verdiyi ifadəyə görə, 1991-ci il iyunun 25-də tanışı olan Aterk kənd sakini Armen adlı erməni onlara gələrək birlikdə Aterkə getməsinin vacibliyini söyləmişdir.

O, 1991-ci ilin əvvəlindən İşxanyan Zaven Vartanoviçin rəhbərliyi altında fəaliyyət göstərən quldur dəstəsinə daxil olmuşdur. Həmin dəstədə ondan başqa Ağdərə rayonunun Aterk kənd sakinləri Surik, Armen, Aşot, Rafik və Aram adlı ermənilər də olmuşdur. Həmin dəstə Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazəsində yaşayan azərbaycanlılara qarşı partizan müharibəsi aparmaq üçün Ağdərə rayonu Arqunamer asfalt zavodunun direktoru İşxanyan Zaven Vartanoviçin ideyası əsasında yaradılmışdır. Z.İşxanyan dəstənin rəhbəri, İskəndəryan Borik Vazgenoviç isə onun müavini olmuşdur. Dəstənin qarşısında qoyulan məqsəd Dağlıq Qarabağda yaşayan azərbaycanlılara qarşı silahlı hücumlarla, evləri "Alazan" raketləri və digər odlu silahlarla atəşə tutmaqla onları qətlə yetirmək və ev heyvanlarını oğurlamaqla elə bir şərait yaratmalıdır ki, bu ərazilərdəki dözülməz haldan cana doyaraq çıxıb getsinlər. Həmin dəstəyə rəhbərlik edən İşxanyan və İskəndəryan azərbaycanlılara qarşı keçiriləcək əməliyyatların planını hazırlamışdılar.

Ayriyanın ifadəsinə görə, 1988-ci ildə ermənilər ilə azərbaycanlılar arasında milli münasibətlər kəskinləşəndə İşxanyan Zaven zavodun işçilərinin və qonşu kəndin sakinlərinin maşınlarla Ağdərə rayonuna nümayişə getmələrini təşkil etmişdir.

Keçirilən əməliyyatlar zamanı dəstəyə əsas rəhbərlik Z.İşxanyan və B.İskəndəryan tərəfindən Surikə həvalə olunmuşdur. O, odlu silahdan əla atmaq qabiliyyətinə malik olmuşdur. Surik həmişə əməliyyatda qısalüləli və qundağı bağlanan AKA-74 silahından istifadə etmişdir. O, A.Ayriyana AKA-74 silahı və əldə düzəldilmiş "Makarov" tapançasının gülləleri ilə atan "Şmayser" avtomatını vermişdir. Aram hündür boylu və cüssəli olduğu üçün həmişə diskli "Kalaşnikov" əl pulemyotunu götürmüş və dəstənin mühafizə edilməsi ona həvalə olunmuşdur. Armenə və Rafikə karabin verilmişdir. Aşotun şəxsi "Kalaşnikov" avtomatı var idi. O, əvvəllər Əfqanıstanda hərbi xidmətdə olduğu üçün partizan döyüşlərində xüsusi hazırlığa malik idi. Bundan əlavə əməliyyat zamanı qrupa daxil olmuş Tamarazyan Heno Mişayeviç bəzən özü ilə silah gətirər, bəzən isə silahı Surikə verərdi. 1990-cı

ildə Tərtərdən Kəlbəcərə gedən maşın karvanına hücum zamanı Heno Tamarazyanın da "Kalaşnikov" markalı silahı olmuşdur. Həmin əməliyyatda iştirak edən Arakelyan Qarnik və Aqo adlı şəxslər 4 nəfər erməni, öz silahları, partlayıcı maddələr, qaytan və digər sursatlarla Xankəndiyə gəlmişlər. Həmin ermənilərin hansı əməliyyatlar zamanı, hansı dəstədə iştirakını İşxanyan müəyyən etmişdir.

Eyni zamanda A.Ayriyan verilən suallar əsasında bildirmişdir ki, 1991-ci il iyunun 25-də Armen öz avtomaşınında A.Ayriyanın Yuxarı Orataq kəndindəki evinə gəlmiş və Aterkə onun mənzilinə getməyi təklif etmişdir. Azərbaycanlılara qarşı yenə də əməliyyat keçiriləcəyini bilərək Aterkə getmişlər. İlkin olaraq Surik və Aram, sonra isə Aşot və Rafik gəlmişdir. Sonda B.İsgəndəryan gəlmiş və demişdir ki, səhər sübh tezdən İmarət-Qərvəndə getmək və orada azərbaycanlılara hücum etmək lazımdır. O, Suriklə təklikdə bir neçə dəqiqə söhbət etmiş və yəqin ki, əməliyyatın keçirilməsi üçün ona tapşırıqlar vermişdir. 1991-ci il iyunun 26-da saat 12 radələrində Aterk kəndi istiqamətinə atla gələn İmarət-Qərvənd kənd sakinlərinə silahlı hücum etmişlər. Surik ağ köynək geyinmiş atlının sinəsinə atəş açmış və nəticədə atlı yerə yıxılmışdır. A.Ayriyan isə digər qırmızı köynək geymiş atlıya atəş açmış və o, da yerə yıxıldıqdan sonra dərəyə diyirlənmişdir. Onlar Surik tərəfindən birinci vurularaq qətlə yetirilmiş ağ köynəkli, ağzı üstə uzanmış oğlana yaxınlaşmışlar. Bu vaxt yaylaq tərəfdən onlara atəş açıldığı üçün A.Ayriyan, Surik digər vurulmuş oğlanı axtarmadan oradan uzaqlaşmışlar.

A.Ayriyan sonradan tutulanda Şuşa türməsində ona məlum olmuşdur ki, vurulan oğlan sağdır. Belə ki, həmin oğlan - Talışov Razin Mehdi oğlu ilə türmədə üzləşəndə onu tanımışıdır. Qətlə yetirilmiş atlının isə Əzizov Dönməz Sultan oğlu olduğu məlum olmuşdur. Bu əməliyyata görə, B.İsgəndəryan quldur dəstənin hər üzvünə paylanması üçün Surikə 5000 rubl vermişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun müstəntiqi R.Y.Zeynalov tərəfindən 1992-ci il yanvarın 6-da Azərbaycan dilində tərtib edilmiş, müttəhim qismində cəlb etmək haqqında qərarda göstərilmişdir ki, Dağlıq Qarabağın azərbaycanlılar yaşayan məntəqələrinə, dövlət və ictimai təşkilatlarına, ayrı-ayrı vətəndaşlara basqın etmək məqsədilə Azərbaycan Respublikasının Ağdərə rayonunun Aterk kənd sakini və kənd sovetinin sədri İsgəndəryan Borik tərəfindən yaradılmış silahlı dəstəyə daxil olub İsgəndəryanın rəhbərliyi və göstərişi əsasında, şəxsiyyətləri istintaqa məlum olmayan Ağdərə rayonunun Aterk kəndinin sakinləri Surik, Aşot, Armen, Rafik, Aram və həmin rayonun Çapar kənd sakinləri Sarkisyan Albert Qurqenoviç və Saakyan Aqo Samveloviçlə birlikdə 1991-ci il iyunun 3-də təxminən saat 7-8 radələrində İmarət-Qərvənd kəndinin Murov yaylağında, Humaylar adlanan yurda hücum etmişlər. Həmin rayonun naxırçıları Məmmədov Halay Hüseyn oğlunun və Nəsirov Qayım Abdulla oğlunun müvəqqəti yaşayış üçün tikdiyi alaçıqlara silahlı basqın etmiş, avtomat-tapança tipli silahlarla alaçıqları gülləyə tutmuş, arxacda saxlanılan 7 baş qoyunu, bir baş

keçini, bir baş ulağı, bir baş camışı güllə ilə öldürmüş, iki baş atı, S.Vurğun adına sovxozun 71 baş və həmin azərbaycanlılara məxsus 23 baş iribuynuzlu mal-qara oğurlamışlar.

A.Ayriyan bildirmişdir ki, 1990-cı il iyulun 6-da Azərbaycanın Ağdərə rayonu ərazisində Kəlbəcər rayonu istiqamətində hərəkət edən maşın karvanına silahlı hücumdan 4-5 gün əvvəl asfalt zavodunun həyatində "KamAZ" markalı, 39-54 AQT dövlət nömrə nişanlı bitum daşıyan maşının təkərlərini dəyişərkən Tamarazyan Heno Minayeviç ona yaxınlaşmışdır. Söhbət zamanı Heno bildirmişdir ki, azərbaycanlılara qarşı mübarizə aparmaq üçün silahlı dəstə təşkil edilir. Həmin dəstəyə o da (A.Ayriyan) daxildir. Nahardan sonra Heno A.Ayriyana demişdir ki, İşxanyan Zaven Yerevanla danışacaq və oradan adamlar gəldikdən sonra əməliyyata başlayacaqlar.

1990-cı il iyulun 11-də A. Ayriyan, Rafik, Litvanın oğlu Lyova, Qalayan Vitalik Karoeviç, Tamarazyan Heno Mişayeviç, Mirzoyan Razmik Rubenoviç, Xankəndi sakini Aqo, Əsgəran rayonunun Ballıca kənd sakini Arapkelyan Qarnik Samsonoviç və Yerevandan gələn 4 nəfər erməni ilə birlikdə Tərtər-Kəlbəcər istiqamətində xalq təsərrüfatı malları daşıyan maşın karvanına silahlı basqın etmişlər. Hadisə zamanı dəstədə 7 ədəd partlayıcı qurğu, bir ədəd pulemyot, bir ədəd karabin və 8 ədəd 7, 62 kalibrli "Kalaşnikov" avtomatı olmuşdur.

Hücum zamanı Kəlbəcər rayon Partiya Komitəsinin birinci katibi Şükürov Əvəz, ondan əlavə 3 nəfər qətlə yetirilmiş, 23 nəfər isə ağır yaralanmışdır. Əməliyyatdan sonra Z.İşxanyan dəstənin hər birinə 5000 rubl vermişdir. A. Ayriyan eyni zamanda öz ifadəsində 5 may 1965-ci ildə Xankəndidə anadan olmuş, milliyyətcə erməni, orta təhsilli, metal istehsal edən zavodda ştamplayıcı vəzifəsində işləyən, Xankəndi şəhəri Teryan küçəsi 20 saylı ünvanda yaşayan Babayan Samvel Andranikoviçin də digər cinayətlərdə, o cümlədən 1990-cı il iyulun 11-də Tərtər-Kəlbəcər istiqamətində hərəkət etmiş avtomaşın karvanına silahlı basqında iştirakı barədə də bildirmişdir. Bununla əlaqədar, 1991-ci il avqustun 3-də S.Babayan barəsində 33063 nömrəli cinayət işiqaldırılmışdır.

1991-ci ilin sentyabrında S.Babayan verdiyi ifadəsində göstərmişdir ki, həmin il iyulun 11-də Tərtər-Kəlbəcər istiqamətində xalq təsərrüfatı malları daşıyan maşın karvanına silahlı basqına Ballıca kənd sakini milliyyətcə erməni Qarnik adlı quldur rəhbərlik etmiş, Kəlbəcər rayon Partiya Komitəsinin birinci katibinin həyat yoldaşı və ondan əlavə üç nəfər qətlə yetirmişdir.

S.Babayan ifadəsində Dağlıq Qarabağda yaşayan azərbaycanlılara qarşı cinayətlər törədən 8 qrupdan ibarət erməni quldur dəstəsinin fəaliyyət göstərdiyini və Qarnikin 8-ci qrupa daxil olduğunu bildirmişdir.

Qarnikin 33-34 yaşı var. Boyu 1m.70sm-dir. Orta bədən quruluşuna malikdir, Qara saçı, qalın bığı və saqqalı var. Böyük olmayan gözləri qara rəngdədir, burnu düzdür, saçlarını sağ tərəfə darayır, sifəti nazikdir. Onun qrupuna 10 nəfər Ballıca kənd sakini daxildir.

3-cü qrupa Xankəndi şəhərində təcili yardım məntəqəsi yerləşən binada yaşayan və ət kombinatında işləyən 34-35 yaşlarında olan Ado adlı quldur daxildir. Adonun boyu 1 m. 78 sm-dir. Uzun, qara sifəti, qara gözləri var. Burnu düzdür, dodaqları orta vəziyyətdədir.

Arkadik və Karen adlı quldurlar 7-ci qrupa daxildirlər. Arkadik əvvəllər Vilayət Komsomol Komitəsində işləmişdir. O, Xankəndi Pedaqoji İnstitutunun yaxınlığında yaşayır. 32-33 yaşlarında olar. Boyu 1.76-1.77 sm-dir. Qara saçları və gözləri var, qara gözlü, yumru sifətdir.

A.Ayriyanın ifadəsinə görə, Ağdərə rayonu Drombon kənd sakini Qarayan Vitalik Karoeviçin 40-42 yaşı olar, keçəldir, boyunun hündürlüyü 1.75-1.80 sm, çəkisi 90-95 kq olar, bığ saxlamır, sarışın rənglidir, qaşları qaradır. Qaşları qara olmasa rus millətinə oxşayar. Ketavan kəndində balıqçılıq kooperativi, xarici markalı maşını var. Vitalik 1991-ci ilin yanvar ayında benzin daşıyan maşının sürücüsünü vurmuş və benzini satmışdır.

- Saro da Drombon kəndində yaşayır və Ketevan kəndindəVitalikin kooperativində “KRAZ” markalı maşının sürücüsüdür. Hündürlüyü 1.60-1.65 sm-dir. Bığ saxlayır sarışındır, çəkisi 75-80 kq, yaşı 30-35 olar. Rafik Ağdərə rayonunun Drombon kəndində yaşayır və həmin kənddə fəhlə işləyir, 35-40 yaşı olar, hündürlüyü 1.60-. 1.65, çəkisi 70 kq. Bığ saxlamır, sarışındır, burnu dikdir.

- Litvanın oğlu Lyova da Drombon kəndində yaşayır və həmin kolxozda “QAZ-53” markalı maşının sürücüsüdür, hündürlüyü 1.75-80 sm, çəkisi 90-92 kq, iri gözlü, sarışındır, qaraşındır, bığ saxlayır, təxminən 30 yaşı olar.

1990-cı ilin mart ayında Kəlbəcər-Tərtər yolunda “PAZ” markalı avtobusun sürücüsünü vurmuş Qastik Ağdərə rayonunun Aterk kəndində yaşayır, Ağdərə avtobazasında “ZİL” markalı maşının sürücüsü işləyirdi, boyunun hündürlüyü 1.75-80 sm, çəkisi 70-75 kq-dır, kürəndir, bığ saxlayır, ağzının üst çənəsindəki dişlərinin təxminən 6-7-si qızıldan düzəldilmişdir. 50-52 yaşı olar, gözləri iridir, burnu əyridir.

Onun ifadəsinə görə, Qarnikin hündürlüyü 1m.70 sm-dir, orta quruluşlu bədəni, qara bığı var, bəzən saqqal saxlayır, böyük olmayan gözləri qara rəngdədir, böyük olmayan düz burnu var, saçları qaradır, sağ tərəfə darayır, sifəti nazikdir, dodaqları ortadır, normadadır.

A.Ayriyan eyni zamanda ifadəsində bildirmişdir ki 1991-ci il iyunun 25-də saat 15-16 radələrində Ağdərə rayonunun Vaquas kəndi yaxınlığında Baş Güneypəyə kəndinin, yəni M.F.Axundov adlanan kolxozun otlaq sahəsində qoyun otarmağa gedərkən, orada qoyun otaran bir nəfərin öldürülməsində Ketevan (Most) kənd sakinləri Tamrazyan Heno Mişayeviç, Samvel Ladoyeviç və həmkəndlisi Mirzoyan Ramzik Rubenoviçlə birlikdə iştirak etdiyini və onun Heno tərəfindən qətlə yetirildiyini göstərmişdir.

Göstərilənləri nəzərə alsaq, təhqiqat içi zamanı İşxanyan Zaven vartanoviç, İsgəndəryan Borik Vazqeniviç, Tamrazyan heno Mişayeviç, Arkelyan

Qarnik Samsonoviç, Mirzoyan Ramzik Ruvenoviç, Sarkisyan Artur Aleşiyev, Sarkisyan Aqo Sanveloviç, Mixaelyan Vaqo Vaçaqanoviç və Qalayan Vitalik Karoyeviç barəsində beynəlxalq ictimaiyyət qarşısında qanuna müvafiq tədbirlərin həyata keçirilməsi nəzərəd tutulmuşdur.

Ermənistanda və ermənlər tərəfindən işğal olunmuş azərbaycan ərazilərinə azərbaycanlılara məxsus tarixi və mədəni abidələrinn dağıdılması ilə bağklı məlumatların toplanılması məqsədilə Milli Təhlükəsizlik Nazirliyinin müvafiq qurumlarının imkanları ilə erməni əsirliyindən azad olunmuş şəxslərin sorğulatrı keçirilmişdir. Sorğular nəticəsində əsirlikdən olmuş şəxslərin işğal olunmuş Şuşa, Ağdam, Füzuli və digər əraziərdə abidələrin dağıdılmasının şahidi olduqları müəyyən edilmişdir.

Belə ki, 1994-cü ilin yanvar ayında əsir düşmüş Siyəzən kənd sakini Qəniyev Ariz Məhərrəm oğlu öz ifadəsində göstərir:

- "Şuşada saxlanırlarkən erməni hərbiçiləri məni digər əsirlərlə birlikdə azərbaycanlıların dəfn edildiyi qəbirstanlığa işləməyə aparmışdılar. Onlar bizi mərmər və qədim qəbir daşlarını sökməyə məcbur edirdilər. Mərmər daşlarını XX əsrin əvvəllərində erməni terror dəstələrinə başçılq etmiş Andranikin Şuşada abidəsinin tikintisində istifadə edir, qədim qəbir daşlarını isə Yerevana aparırdılar".

- 1993-1996-cı illərdə əsirlikdə olmuş Salyan şəhər sakini Məmmədov Vəliəhd Adil oğlu təqdim etdiyi izahatında Əli-Bayramlı şəhər sakini Abdullayev Rövşən və digər azərbaycanlı əsirlərlə birgə Şuşa məscidinin mərmər döşəmələrinin sökülməsində iştirak etdiyini bildirmişdir. Bülbülün ev muzeyində işləyərkən, onun büstünün təhqir olunmuş və güllələnmiş halda həyətin bir küncünə atıldığının şahidi olmuşdur. Şuşa alayının hər hansı bir avtoparkında Azərbaycanını hansısa rayonundan sökülüb gətirilmiş, kimə məxsus olduğu xatırlamadığı bir bürüncdən olan heykəlin saxlanıldığını, işğal altında olan rayonlardan azərbaycanlıların qəbirlərinin qiymətli baş və sinə daşlarının dağıdıldığını görmüş, həmçinin Oğuz rayon sakini Kərimov Kazımdan Şuşada Molla Pənah Vaqifin heykəlinin ətrafındakı döşəmələrin sökülüb naməlum istiqamətlərə aparılması barədə eşitdiyini bildrimişdir. 1993-1996-cı illərdə əsirlikdə olmuş Kərimov Kazım izahatında bu faktı təsdiqləmiş, əlavə olaraq bildirmişdir ki, İbrahim xanın qəbir daşları, Şuşa hamamının yanında yerləşən məscidin mərmərləri sökülüb aparılmışdır. Bunlardan ermənilər şəxsi mənafeləri üçün istifadə edirdilər. Kazımov həmçinin öz izahatında göstərir ki, erməni vandalları Şuşanın mərkəzi parkında ucaldılmış Üzeyir Hacıbəyovun heykəlini uçuraraq avtomaşın parkına atmışdılar. Erməni gözətçisi heykəli göstərərək təhqiramiz ifadələr işlətmişdir.

- 1994-1995-ci illərdə erməni hərbi əsirliyində olmuş Neftçala rayon sakini Abdullayev Yaşar Əbdüləli oğlu isə Xankəndində saxlanılarkən azərbaycanlıların qəbirlərinin baş və sinə daşlarının (qranit, mərmər) ora gətirildiyi, Şuşada azərbaycanlı qəbirstanlığının dağıdıldığını və heykəllərin güllə

ilə vurulduğunun şahidi olmuşdur. Ermənilər həmin heykəllərə və abidələrə azərbaycanlı əsirlərin hər vəchlə baxmasına mane olmağa çalışırdılar. Abdullayev öz izahatında Şuşa şəhərində hətta kiçik bir hasarların belə sökülərək xaç şəkilli dərilərlə əvəz edildiyini qeyd edir.

- 1993-1996-cı illərdə əsirlikdə olmuş Şəmkir rayon Çinarlı kənd sakini İsmayılov Yunis Suca oğlu öz ifadəsində göstərir ki, Şuşada yerləşən Vaqif məqbərəsi, Şuşa məscidi və digər mədəniyyət abidələri sökülərək içərisindəki qiymətli əşyalarla birlikdə Ermənistana daşınırdı. Ü.Hacıbəyovun ev muzeyindəki əşyaları talanaraq Ermənistana daşınmış, həmin binadan isə ermənilər yaşayış evi kimi istifadə etmişlər.

Həmin kəndin digər sakinin əsirlikdə olmuş 1977-ci il təvəllüdlü Rəcəbov nailin ifadələrində də yuxarıdakılar təsdiqlənir, əlavə olaraq Şuşadakı qəbiristanlıqdan gətirilmiş baş daşlarını separatçı-terrorçu rejimin rəhbərlərinin oturduğu binanın qarşısına düzüldüyü göstərilir. O, həmçinin Şuşadakı Konservatoriyanın və qədim hamamın da tamamilə dağıldığını qeyd edir.

Əsirlikdə olmuş daha bir şəxs Şükürov Şükür Yaşar oğlu bildirmişdir ki, Şuşa şəhərində qədim Alban kilsəsi kimi tanınan tarixi abidə ermənilər tərəfindən "restavrasiya" olunaraq xarici görkəmində müəyyən dəyişiklər etmişdir və bundan sonra işğalçılar abidənin guya özlərinə məxsus olduğunu iddia etmişdilər. İsmayılov Yaşar Vilayət oğlu isə ermənilərin azərbaycanlı ədiblərə ucaldılmış heyəklləri dağıdaraq əvəzində özlərinə məxsus heyəklləri qoyacaqları barədə söhbətlər eşitdiyini bildirmişdir.

Şuşadakı tarixi abidələrin dağıdılmasını təsdiq edən daha bir şəxs, 1993-1995-ci illərdə əsirlikdə olmuş Oğuz rayonu Qumlaq kənd sakini Ramazanov Rəsul Nemət oğlu izahatında göstərmişdir ki, Şuşa şəhəri yaxınlığındakı baş daşlarının, qədim azərbaycanlıların qəbiristanlığındakı baş daşlarının, qədim türbələrin, qiymətli plitələrdən ibarət olan döşəmələrin, həmçinin şəhər məscidinin söküldüyünün şahidi olmuşdur. Onun sözlərinə görə, həmin əşyalar Ermənistana daşınırdı.

Keçirilmiş sorğular zamanı işğal olunmuş ərazilərdə ictimai və yaşayış obyektlərinin də sökülərək Ermənistana daşınmasını bildirən Biləsuvar rayon sakinləri - 1992-1995-ci illərdə əsirlikdə olmuş Əliyev Həbib Əlibala oğlu və 1994-1996-cı illərdə əsirlikdə olmuş Həbib Əlibala oğlu da ermənilər tərəfində tarixi abidələrin dağıdılması faktını təsdiq etmişlər.

Beyləqan rayon sakinləri Sarıyev Əli Zöhrab oğlu Şuşa türməsində saxlanılan zaman, Kəlbəcər rayonundan Mikayıl, Qaradağ rayonun Sahil qəsəbəsidən İqor Əliyev, Füzuli rayonundan Qaraxan, Sədrəddin və Elxan, Abbasov Natiq və İsmayılov Ələddin Şuşa şəhərində və Ağdam rayonunun bir neçə kəndində ermənilər tərəfindən azərbaycanlı qəbirstanlığında ağ və qara mərmərdən olan məzarların baş və sinə daşlarının sökülməsinə məcbur edilmişlər. N.Abbasovla keçirilmiş sorğu zamanı onun adları xatırlamadığı bir neçə

azərbaycanlı əsirlərlə birlikdə Füzuli şəhər qəbirisitanlığında mərmərdən olan bir məzarın baş və sinə daşlarının Şuşa şəhərinə aparılmasında iştirak etdiyini bildirmişdir. Digər əsir və girovlarla keçirilmiş sorğular zamanı müəyyən edilmişdir ki, onların əməyindən əsasən, işğal olunmuş ərazilərdə sökülmüş tikinti materiallarının Xankəndi şəhərinə və Ermənistan Respublikasına daşınmasında istifadə olunmuşdur. Həsənabad kəndində Samvel Babayana məxsus istixana və digər tikililərin inşasında da istifadə olunmuşdur.

"İRS-Nasledie" beynəlxalq jurnalının 2002-cı ilin 4-cü sayında dərc olunmuş (müəllif: Adil Rəcəbli) "Faktı bğöt v kolokol! Prisluşaytesğ!" məqaləsindən 1994-cü ildən Ermənistan və Azərbaycan Respublikasının işğal olunmuş ərazilərində azərbaycanlı əsir və girovların saxlanıldığı altı düşərgənin mövcudluğu haqqında məlumat vermişdir.

Ermənistan silahlı qüvvələrinin faşist metodları ilə apardıqları mübarizə nəticəsində Azərbaycanın on iki rayonu işğal olunmuşdur, iyirmi dörd min soydaşımız öldürülmüş, dörd min nəfər əsir götürülmüşdür. Əsir düşənlərin böyük bir qismi uşaqlar, qocalar və qadınlar təşkil edir. İtgin düşmüş insanların ümumi sayı dörd min doqquz yüz altmış beş nəfərdir. Onların üç yüz iyirmisi qadın, altmış doqquzu uşaqdır. Erməni əsirliyindən azad olmuş 3125 nəfərin 222 qadın, 125-i uşaqlardır.

Erməni vandalları tərəfindən yaradılmış altı qadın və uşaq əsir düşərgəsi haqqında məlumat vardır:

Vardenis uşaq düşərgəsi (250 nəfər)
Razdan uşaq düşərgəsi (180 nəfər)
Xankəndi uşaq düşərgəsi (180 nəfər)
Geçaşen qadın düşərgəsi (320 nəfər)
Cermuk qadın düşərgəsi (250 nəfər)
Kəlbəcər qadın düşərgəsi (150 nəfər)

Erməni ordusu tərəfindən 870 yaşayış məntəqəsi, 10 rayon məhv edilmişdir. Erməni qəsbkarları tərəfindən 43666 inzibati obyekt, 1145 uşaq bağçası, 1831 kinoteatr, 982 kitabxana, 862 mədəniyyət mərkəzi və mədəniyyət evləri, 695 orta məktəb, 200-ə qədər tibb ocağı, 22 muzey və 1 ali tədris müəssisəsi, 7 min sənaye və tikinti obyekti, kolxoz və sovxozlar, ticarət binaları, 9 min kvadratmetr yaşayış ərazisi viran qoyulmuşdur. İşğalçı Ermənistan ordusu zəbt edilmiş ərazilərdə həmçinin xalqımızın milli-mənəvi irsinin tərkib hissəsini təşkil edən mühüm mədəniyyət, tarixi və dini abidələri məhv etmişdir. İşğal olunmuş ərazilərdə 32 məscid, 44 kilsə, 21 tarixi sitayiş yerləri, 13 qüllə, 22 kurqan, 8 körpü, 9 saray, 4 qızıl qazıntısı, 2 qranit və daş karxanası, karvansaray, 2 dövlət qoruğu məhv edilmişdir. 808 mədəniyyət mərkəzi, o cümlədən 85 musiqi məktəbi, o cümlədən onlarla rəsm qalereyası, istirahətparkı, teatrlar və konsertzalları erməni qəsbkarlarının işğalı altında qalmışdır.

Postsovet məkanında yeganə olan Ağdam Çörək muzeyi darmadağın edilmişdir. Kəlbəcər muzeyinin 13 min, Laçın Tarix-Diyarşünaslıq muzeyinin isə 45 min qiymətli eksponatı Ermənistana daşınmışdır. Habelə Şuşa Tarix muzeyinin 500 , Azərbaycan Dövlət Xalçaçılıq və Xalq Yaradıcılıq muzeyinin Şuşa filialının eksponatları, Qarabağ Tarix muzeyinin 1000, dahi Azərbaycan bəstəkarı Üzeyir Hacıbəyovun muzeyinin 300, vokal sənətinin görkəmli nümayəndəsi Bülbülün muzeyinin 400, görkəmli musiqiçi və rəssam Mir Möhsün Nəvvabın muzeyinin 100, Ağdam Tarix-Diyarşünaslıq Muzeyinin 2000, Qubadlı Tarix-Diyarşünaslıq Muzeyinin 3000, Zəngilan Tarix-Diyarşünaslıq muzeyinin 6000 eksponatı qarət edilmişdir. Ağdamda Qurban Pirimovun muzeyi və Rahib Məmmədovun hərbi muzeyi məhv edilmişdir. Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrindən olan Vaqifin, Natəvanın, Ü.Hacıbəyovun, Bülbülün, əmək qəhrəmanı S.Vəzirovun, müharibə qəhrəmanı L.Vəzirovun abidələri dağıdılmışdır. 982 kitabxana və 5 kitab fondunun 6 milyon nümunəsi qarət edilib yandırılmışdır.

Füzuli rayonu Üçbulaq kənd sakini Ə.Əkbərov yazdığı izahatında göstərmişdir ki, 1988-ci ildən başlayaraq erməni quldurları mütəmadi olaraq onların yaşadıqları kəndlərə silahlı basqınlar etmiş, mal-qaranı oğurlamışlar.

1988-ci ildən başlayaraq Dağlıq Qarabağ ərazisində Hoğa kənd sakini, milliyyətcə erməni, riyaziyyat müəllimi işləyən Melkumyan Nikolay Markara oğlunun rəhbərlik etdiyi erməni cəmiyyəti fəallaşmağa başlamışdır. Həmin cəmiyyət Qarabağın Ermənistana birləşdirilməsi üçün geniş təbliğat və digər pozuculuq fəaliyyətləri ilə məşğul idi. Bundan başqa Tuğ kənd sakini, məktəb partiya təşkilatının katibi olmuş Qriqoryan Vigen, sovxoz direktorunun müavini işləmiş Yoqa, Tuğ kəndi üzrə sahə müvəkkili, polis baş leytenantı olmuş Ediq və başqaları Qarabağın Azərbaycandan qoparılması istiqamətində xüsusi fəallıqları ilə seçilmişlər.

1991-ci ilin sentyabr ayında Hacıyev Rafiq Ədil oğlu, Hüseynov Nizami Adışirin oğlu, Hüseynov Zülfüqar Adışirin oğlu və Qəhrəmanov Əhliman Qəhrəman oğlu rus hərbiçilərinə bələdçilik edərək qonşu erməni kəndlərində pasport rejimini yoxlamaq məqsədilə Hadrut rayonunun Girlədiz, Məmmədzor, Tuğ, Azığ, Draktik, Hatant, Əhəngli və Sussalıq kəndinə və rayonun ən hündür meşəlik ərazisində yerləşən Qalaya getməyi planlaşdırmışlar. Onlar Hatant kəndini yoxlayan zaman kəndin kənarında yerləşmiş quşçuluq fermasında 90 dəst hərbi geyim aşkar etmişlər. Rus hərbçilərindən olan dəstələr Girlədiz kənd sakini, silah düzəldən Melik müəllimin evindən odlu silah, Draktik kəndində Yaşanın evindən bir ədəd beşatılan və radioəlaqə qurğusu aşkar edərək götürmüşlər.

Sonra rus hərbçiləri tərəfindən Xankəndidən Hadruta gedən yeni salınmış şose yolda reydlər keçirildi. Reydlər zamanı Ermənistandan Azərbaycanın Dağlıq Qarabağ ərazisinə qanunsuzgətirilmiş 1 ədəd “QAZ-24”, 1 ədəd “ZİL-130” markalı maşınlar müsadirə edildi. Məmmədəzor kənd sakininin

idarə etdiyi “ZİL” markalı maşından 2 ədəd əl qumbarası aşkar edilərək götürülmüşdür.

1992-ci il mart ayının 16-da erməni quldurları meşəlik ərazidən avtomat silahı ilə kənd sakini Kərim Kərimovu yaralamışlar. Elə həmin gün erməni quldurları Füzuli şəhərinə 10-dan çox “Qrad” raketi atmış və nəticədə bir neçə dinc sakin, o cümlədən onun həmkəndlisi Murtuzayev Qadir Hərbiyyə oğlu həlak olmuşdur.

1992-ci il fevralın 14-də isə Govşadlı kəndi yaxınlığında 2 nəfər azərbaycanlı minaya düşmüşlər. Onlardan Quliyev Bayram Əyyub oğlu həlak olmuş, Babayev Yusif Cahangir oğlu isə ağır yaralanaraq birinci qrup əlil olmuşdur.

1992-ci il martın 31-də Manvel adlı erməninin başçılıq etdiyi 60 nəfərdən ibarət quldur dəstəsi Üçbulaq (Hoğa) kəndini işğal etmiş, 3 nəfər kənd sakinini qətlə yetirmiş, 1 nəfər girov götürülmüş, evlər talan edilərək yandırılmışdır. Manvelin dəstəsinin 60 nəfərdən ibarət olmasını Düdükçü kənd sakini Hayka adlı erməni ona hadisədən bir müddət əvvəl danışmışdır.

Erməni quldur dəstələri 1993-cü il aprelin 2-də isə Gövşadlı kəndini işğal etmişlər.

İşğal zamanı hər iki kənddən 11 nəfər şəhid olmuş, 38 nəfər yaralanmış, onlardan 17 nəfəri əlil olmuşlar.

- 1958-ci ildə Füzuli rayonunun Üçbulaq (Hoğa) kəndində anadan olmuş, orta təhsilli, ailəli Ələkbərov Allahverdi Xanlar oğlu ərizəsində göstərmişdir ki, 1992-ci il martın 30-da idarə etdiyi “ZİL” markalı maşınla həmkəndlisi Quliyev Elman Qubad oğlu ilə birlikdə səngərdə yaralanmış Cəfərov Elyar Bəxtiyar oğlunu rayonun mərkəzi xəstəxanasına aparan zaman Üçbulaq kəndi qəbiristanlığının yaxınlığındakı şose yolunda maşının altında partlayış baş vermişdir. Partlayış zamanı maşın sağ tərəfə aşmış və yanmağa başlamışdır. Bu vaxt ermənilər kənardan avtomat silahları ilə onları atəşə tutmuşlar. O, maşından düşərək yaxınlıqdakı üzümlüyə qaçmışdır və maşına qayıdan zaman Elyarın və Elmanın maşından kənarda olduqlarını və sonuncunun yandığını görmüşdür. Bir müddət sonra sovxozun direktoru Hacıyev İlyas Ədil oğlu maşınla onların köməyinə gəlmişdir. Elmanın bədəninin çox hissəsi yandığından vəfat etmişdir. Hadisə yeri jurnalistlər tərəfindən lentə alınmışdır.

Qarabağ münaqişəsində itkin düşmüş Qubadlı rayonu Qaracallı kənd sakinləri 1930 - cu il təvəllüdlü Abdullayev Köçəri İslam oğlu, həyat yoldaşı - 1934- cü il təvəllüdlü Abdullayeva Roza Nəsib qızı və oğlu - 1966-cı il təvəllüdlü Abdullayev Zahid Köçəri oğlunun sonrakı talelərinin araşdırılması zamanı, onların itkin düşmə şəratinin şahidi K. Abdullayevin bacısı - Binəqədi rayonu 3-cü mədən, korpus 92-də yaşayan, 1946-cı il təvəllüdlü Əhmədova Raya İslam qızı müəyyən edilmiş və onunla yuxarıda adları qeyd edilən şəxslərin itkin düşmə şərati barədə əlaqədar qurumlar tərəfindən söhbət aparılmışdır.

Söhbət zamanı R.Əhmədova bildirmişdir ki, o, 1993-cü il avqustun 30-da Qubadlı rayonunun işğalı zamanı bacısı Abdullayeva Minayə İslam qızı, K.Abdullayev həyat yoldaşı Roza və oğlu Zahid Abdullayev, yaxın qohumları Zülfünaz adlı qadınla birlikdə avtomobillə Qaracallı kəndindən çıxarkən, Qubadlı rayonunun Bala Soltanlı kəndində erməni yaraqlıları tərəfindən atəşə tutulmuşlar. Atəş nəticəsində R.Əhmədova ağır yaralanmış, adları qeyd edilən digər şəxslər isə hadisə yerində həlak olmuşlar. Ermənilər onlara yaxınlaşanda həlak olduqlarını görmüş və R.Əhmədovanın yaralandığından öləcəyini zənn edib hadisə yerindən uzaqlaşmışlar. O, yaralı vəziyyətdə 1993-cü il avqustun 31-də özünü rayon mərkəzinə çatdırmış və sonradan Ələt qəsəbəsində yerləşən hospitalda yerləşdirilmişdir.

1993-cü ildə Xocavənd rayonunun Qaradağlı kəndində anadan olmuş, azərbaycanlı, Sumqayıt şəhəri, 48-ci məhəllə, bağlar sahəsində yaşayan Doluxanov Məhkəmə Müseyib oğlu 1992-ci il fevralın 17-də Qaradağlı kəndinin müdafiəsi zamanı digər həmkəndliləri ilə birgə ermənilər tərəfindən əsir götürülmüş və 1992-ci il martın 30-dan Xankəndi xəstəxanasında saxlanılmışdır. M.Doluxanov erməni əsirliyindən mərhum Allahverdi Bağırovun vasitəçiliyi ilə dəyişdirmə yolu ilə azad edilmişdir.

Qarabağ münaqişəsi zamanı itkin düşmüş şəxslərin siyahısından keçən 1982-ci il təvəllüdlü, azərbaycanlı, Xocalı şəhər sakini Ağayev Allahverdi Səttar oğlu barəsində aparılmış araşdırmalar zamanı məlum olmuşdur ki, 1992-ci il fevralın 26-da digər yaxın qohumları ilə birlikdə Xocalı şəhərini tərk etmiş, yolu azdıqları üçün iki gün qarın üstündə meşədə qalmış, aclığa və soyuğa tab gətirməyərək vəfat etmişdir. Bu zaman Səttar Ağayev (Allahverdinin atası) və digər azərbaycanlıları girov götürmüş ermənilər Allahverdinin meyitini götürməyə qoymadıqları üçün atası paltosunu çıxarıb onu bükmüş və 10 yaşlı oğlunun cəsədini meşədə qoymaq məcburiyyətində qalmışdır.

Girov götürüldükdən sonra S.Ağayev və digər Xocalı şəhər sakinləri ermənilər tərəfindən Dəhraz kəndi yaxınlığında yerləşən tövləyə aparılmışlar. Orada iki gün ağır işgəncələrə məruz qalaraq saxlanıldıqdan sonra, S.Ağayev şikəst vəziyyətdə 18 nəfər digər Xocalı sakinləri ilə birgə girovların arasından seçilərək, ermənilər tərəfindən “KamAZ” markalı avtomaşınla Xankəndi şəhərinə aparılmışdır. S.Ağayev Xankəndi həbsxanasında 35 gün saxlanıldıqdan sonra, vəziyyəti ağırlaşdığı üçün 1992-ci il martın 31-də 9 nəfər Xocavənd rayon sakini və 1 nəfər həmyerlisi ilə birgə ermənilər tərəfindən azad edilmişdir.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, eləcə də həmsərhəd rayonlarda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 1991-ci il iyun ayının 27-dən 28-nə keçən gecə Azərbaycan Respublikası Xocavənd rayonunun Qaradağlı kəndi

ərazisində yerləşən N.Nərimanov adına kolxoza məxsus iribuynuzlu mal-qara fermasının 6 nəfər işçilərinin qətlə yetirilmələri faktı ilə əlaqədar 1991 -ci il iyunun 28-də Şuşa şəhərində Vilayət Əməliyyat İstintaq Qrupunun müstəntiqi R.Mirzəyev tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 70, 88-1, 94-cü maddəsinin 4-cü və 6-cı bəndləri üzrə 32996 saylı cinayət işi qaldırılmışdır.

İşin təhlili zamanı məlum olmuşdur ki, iyunun 28-də N.Nərimanov adına kolxozun işçilərinin yaşadıqları birmərtəbəli, beşotaqlı ev erməni quldurları tərəfindən atəşə tutulmuş, nəticədə 6 nəfər azərbaycanlı - 1935-ci il təvəllüdlü Şirinova Qaragöz Habil qızı, onun oğlu, fermada sağıcı işləyən, 1962-ci il təvəllüdlü Şirinov İltifat Əjdər oğlu, sağıcı, 1936-cı il təvəllüdlü Əliyeva Səbiqə Mürsəl qızı, sağıcı, 1924-cü il təvəllüdlü Hüseynova Məxmər Məcid qızı, naxırçılar, 1948-ci il təvəllüdlü Tağıyev Bakir Qaçay oğlu və 1936-cı il təvəllüdlü Məmmədov Tohid Cəlil oğlu xüsusi amansızlıqla qətlə yetirildikdən sonra otaqların birində balon qazı vasitəsilə yandırılmışlar. Sonra ermənilər N.Nərimanov adına kolxoza məxsus 41 baş mal-qaranı oğurlayıb aparmışlar. Həmin vaxt erməni quldur dəstələri Qaradağlı kəndində olan azərbaycanlıların yaşayış evlərini müxtəlif istiqamətlərdən odlu silahlarla atəşə tutmuş, nəticədə bir çox evlərə ciddi ziyan dəymiş və üç sakin yaralandıqlarına görə xəstəxanaya aparılmışlar.

İş üzrə keçirilmiş istintaq hərəkətləri zamanı hadisə ilə bağlı 1959-cu il təvəllüdlü Azərbaycan Respublikası Xocavənd Kəndkürd kənd sakini Səfəryan adına kolxozda traktorçu işləyən, milliyyətcə erməni Petrosyan Samvel Vanyayeviç, 1957-ci il təvəllüdlü, Azərbaycan Respublikası Xocavənd rayonu Muşkapat kənd sakini, milliyyətcə erməni Petrosyan Karo Anuşavanoviç, 1944-cü il təvəllüdlü, Muşkapat kənd sakini, milliyyətcə erməni (14.04.1981-ci il tarixdə XY-YG N 613134, Xocavənd RDİŞ tərəfindən pasport verilib). Petrosyan Şahen Rubenoviç, 1960-cı il təvəllüdlü, milliyyətcə erməni, Xocavənd rayon kənd sakini ( XIY-JQ N 543253), Xocavənd RDİŞ tərəfindən pasport verilib) Osvenyan Norik Vazgenoviç, 1964-cü il təvəllüdlü, milliyyətcə erməni, Azərbaycan Respublikası Xocavənd rayonu Muşkapat kənd sakini Sarkisyan Aleksandr Benikoviç, 1962-ci il təvəllüdlü, milliyyətcə erməni, (17.10. 1978-ci il tarixdə Azərbaycan Respublikası Xocavənd rayonu RDİŞ tərəfindən ona YI-JQ seriyalı, 539646 saylı pasport verilmişdir) Xocavənd Muşkapat kənd sakini Davidyan Yuri Aşotoviç, 1937-ci il təvəllüdlü, milliyyətcə erməni, kənd orta məktəbində müəllim işləyən, Xocavənd rayonu Qriqoryan Şahmurad Qriqoryeviç şahid qismində ifadə vermişlər.

K.Petrosyan 1991-ci il iyunun 29-da şahid qismində dindirilərkən müstəntiqin sualına cavab olaraq bildirmişdir ki, 1991-ci il iyulun 28-də əməliyyat-istintaq qrupu tərəfindən ondan götürülmüş təklüləli Q 08191 N-li ov tüfəngi Sverdlov adına kolxoza məxsusdur və gözətçi Dadamyan Mişaya təhkim edilmişdir.

Eyni zamanda K.Petrosyan verilmiş suala cavab olaraq bildirmişdir ki, 1991-ci il iyulun 28-də gecə Sverdlov adına kolxoza məxsus fermada baytar həkim Sarkisyan Surik Abkaroviç, kolxozçu Musaelyan Arutyun, sürücü Ulubabyan Şaqen və briqadir Sarkisyan Yuri adlı ermənilər qalmışlar.

- A.Sarkisyan müstəntiqin sualına cavab olaraq ifadəsində bildirmişdir ki, Qaradağlı kəndinin fermasında baş vermiş hadisədən iki gün əvvəl Aşan kəndinin mal-qarası oğurlanmış və Qaradağlı kəndinə aparılmışdır. Bundan sonra Aşan kənd sakinləri olan erməni quldurları axşam kəndə gələrək 6 nəfər sakini qətlə yetirmiş və mal-qaranı oğurlayaraq Spitakaşen kəndinə, oradan isə Aşan kəndinə aparmışlar.

A.Sarkisyan suala cavab olaraq Xocavənd rayonunda tədarük kontorunda işləyən Serjik və Vasyak adlı erməniləri quldur kimi tanıdığını bildirmişdir.

- Y.Davidyan müstəntiqin sualına əsasən ifadə verərkən bildirmişdir ki, Xocavənd rayonunda yaşayan Vasyak adlı erməni beşatılan "Karabin" markalı tüfəngi mühafizə məqsədilə kolxoza vermişdir. Bundan sonra həmin tüfəng patronları ilə birlikdə fermada Norik adlı ermənilərdə saxlanılmışdır.

İşin təhlili zamanı 1992-ci il iyulun 29-da ibtidai istintaqın uzadılması barədə tərtib edilmiş qərar müəyyən edilmişdir. Həmin qərarda göstərilmişdir ki, ermən quldurları Xocavənd rayonunun Qaradağlı kəndinə basqın edərək kənddə olan yaşayış, ictimai və fərdi binaları bütün əmlakları ilə birlikdə yandırıb məhv etmiş, kənd əhalisindən 47 nəfərini girov götürmüş, 49 nəfərini isə xüsusi qəddarlıqla qətlə yetirmişlər.

İşin II cildinin təhlili zamanı VƏİQ-nin müstəntiqi Q.Zeynalov tərəfindən 1991-ci il avqustun 9-da müttəhim qismində cəlb olunmaq haqqında tərtib olunmuş qərarda göstərilmişdir ki, 1938-ci ildə Azərbaycan Respublikası Xocavənd rayonunun Aşan kəndində anadan olmuş, milliyətcə erməni, ailəli, Aşan kəndinin Levon Mirzoyan adına kolxozunun sədri vəzifəsində işləyən Balayan Emil Vartanoviç erməni quldur dəstəsinə daxil olaraq Dağlıq Qarabağ ərazisində ağır cinayət törətmişdir. Belə ki, E.Babayan 1991-ci il iyulun 28-də gecə saat 10 radələrində silahlı quldur dəstəsi ilə Xocavənd rayonunun Qaradağlı rayonuna məxsus fermaya gələrək 6 nəfər azərbaycanlını qətlə yetirmiş, sonra onları yandırmışdır.

Qeyd olunanlarla əlaqədar, E.Babayanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 70, 94 və 88-1 bəndi ilə müqəssir olduğu elan edilmişdir.

1991-ci avqust ayının 9-da Şuşa şəhərində Balayan Emil Vartanoviçin barəsində həbs qəti-imkan tədbiri seçilməsi haqqında qərar tərtib edilmişdir. E.Babayan müqəssir qismində dindirilmə zamanı törədilmiş cinayətdə özünü tam təqsirli hesab etmiş (cinayət işinin təhlili zamanı sonradan E.Babayan cinayətin törədilməsində iştirak etmədiyini bildirmişdir. Lakin həbs edilmiş A.Qriqoryanla üzləşmə zamanı o, E.Babayanın da 6 nəfərin qətlə yetirilməsində iştirak etdiyini göstərmişdir) və müstəntiqin suallarına cavab olaraq bildirmişdir ki, onun yaşadığı

kənddə quldur dəstəsinin rəhbəri, Levon Mirzoyan adına kolxozda işləyən Qabrielyan Jorik Aramoviçdir. Onun dəstəsində Avakyan Armen Rudikoviç, 27-28 yaşlarında olan kolxozçu İşxanyan David Alekseyeviç, Xankəndidə Pedaqoji İnstitutda təhsil alan Arutunyan Alyoşa Aşotoviç, 32-33 yaşlarında olan traktorçu Petrosyan Tiqran Surenoviç, 25 yaşlı, Spitakaşen kənd sakini, kolxozçu Baladanyan Kamo olmuşlar. E.Balayanın verdiyi məlumata görə, ermənilər yaşayan kəndlərdə quldur dəstələri fəaliyyət göstərmişdir.

E.Babayan ifadəsində bildirmişdir ki, 1991-ci il iyun ayının 27-də, təxminən saat 21.00 radələrində Sevidyan Vrejok adlı erməni tərəfindən idarə olunan kolxoza məxsus "ZİL-130" markalı maşınla Gəncə şəhərində anadan olmuş, təxminən 50-51 yaşlarında olan, E.Babayanın uzaq qohumu, əvvəllər futbol komandasının məşqçisi, həmin vaxt isə Xankəndi şəhər stadionunun direktoru vəzifəsində işləyən Petrosyan Razmik adlı erməni gəlmişdir.

R.Petrosyan özü ilə böyük əl çantasında Kalaşnikov avtomat silahı, ov tüfəngləri və əl qumbaraları gətirmişdir. Maşında Saşa Qabrielyan, Norayr Xaçaturyan, Armen Autamyan, Artyom adlı ermənilər də olmuşdur. R. Petrosyan ona bildirmişdir ki, Qaradağlı kəndinin fermasına basqın etmək lazımdır.

Razılaşdırılmış vaxtda fermanın yaxınlığında olan E.Babayan orada 15-20 nəfər erməninin olduğunu görmüşdür. Həmin vaxt R.Petrosyan əl çantasından 2 ədəd Kalaşnikov avtomat silahı, 5 ədəd əl qumbarasını çıxarıb Saşa Qabrielyana və Artyoma, ov tüfəngini isə E.Babayana vermiş, özündə isə tapança saxlamışdır.

Kəndkürd kəndi istiqamətində qırmızı rəngli siqnal raketi atıldıqdan sonra erməni quldur dəstəsi Qaradağlı kəndini müxtəlif odlu silahlardan atəşə tutmuş, E.Babayan isə bir neçə erməni ilə birlikdə fermaya hücum etmişdir. Atəş səslərinə fermadan bir nəfər əli tüfəngli çıxan kimi onu qətlə yetirmişlər. Sonra isə binanı əl qumbaraları və odlu silahlarla atəşə tutmuşlar.

E.Babayanın verdiyi ifadəyə görə, (cinayət işi № 32996, cild N2) fermaya silahlı basqın nəticəsində içəridə olmuş 6 nəfər azərbaycanlı qətlə yetirilmiş, sonra ermənilər binaya daxil olaraq onları yandırmış və oradakı mal-qaranı aparmışlar. 1991-ci ilin sentyabrın 23-də Şuşa şəhərində 1959-cu ildə Bakı şəhərində anadan olmuş, milliyyətcə erməni, ailəli, əvvəllər məhkum olunmuş, Ermənistan Respublikası Yerevan şəhəri 2-ci yaşayış massivi, Moldavanyan küçəsi ev 13, mənzil 34-də yaşayan Qriqoryan Aleksandr Stepanoviç müqəssir qismində ifadə vermişdir. A.Qriqoryan verilmiş suallar əsasında ifadəsində bildirmişdir ki, Qaradağlı kəndinə və fermasına silahlı hücum etmək üçün Aşan kənd kolxozunun mühasibi işləyən Qrişanın iş otağında (cinayət işi № 32996, cild №2) qaynaqçı Avakyan Armen Rodikoviç, mühasib Jora, avtomaşın çilingəri Cavanşir Maksimoviç, fəhlə Araik, Artyom, sürücü Vrej, qarajın mühəndisi Olen və Qaymyan Qabriel Gevorkoviç toplaşmış və əməliyyatın keçirilməsini planlaşdırmışlar. Armen hücumu əks etdirən kağıza çəkilmiş planı stolun üzərinə qoyaraq 3 quldur dəstəsinin hansı istiqamətdən hərəkət edəcəyini göstərmişdir.

Milli Təhlükəsizlik Nazirliyinin həyata keçirdiyi əməliyyat - istintaq tədbirləri zamanı ermənilərin vandalizm aktları barəsində aşağıdakı məlumatlar toplanmışdır:

- Cəbrayıl rayonu Böyük Mərcanlı kənd sakini Nəcəfov Məhərrəm Qulu oğlu yazdığı ərizəsində göstərmişdir ki, 1988 - 1992-ci illər ərzində Robert Köçəryan, Karo Babayan, Samvel Babayan və digər separatçılar öz fəaliyyətləri nəticəsində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda terror hadisələrinin törədilməsinə, on minlərlə insanın ölümünə və milyondan çox vətəndaşın doğma yurd-yuvalarından didərgin düşməsinə şərait yaratdılar.

- Füzuli rayon sakini Əhmədova Şəfiqə Nüsrət qızı yazdığı ərizəsində göstərmişdirki, 1988-ci ildən başlayaraq R.Köçəryan, A.Qukasyan, S.Sarkisyan və digərlərinin separatçılıq fəaliyyətləri nəticəsində Azərbaycan Respublikasının ərazilərinin 20 faizi işğal olunmuş, bir milyondan çox evi talan edilmiş azərbaycanlı doğma ata-baba yurdlarından didərgin düşmüşlər.

-Cəbrayıl rayon sakini Quliyeva Sovet Sahib qızı yazdığı ərizəsində göstərmişdir ki, qondarma Dağlıq Qarabağ Respublikasının rəhbərlərindən olan Karo və Samvel Babayan qardaşları Qarabağda azəri türklərinə qarşı cinayət tərkibli əməllər törətmişlər. İndi isə separatçı rejimin başçısı A. Qukasyan dünyanı dolaşaraq özünü əzabkeş xalqın nümayəndəsi kimi qələmə verir.

- Füzuli rayonu Şükürbəyli kənd sakini Həsənov Murad Əhmədxan oğlu yazdığı ərizəsində göstərmişdir ki, Karo Babayan, Serj Sarkisyan, Samvel Babayan və digər separatçılar 1989-1992-ci illərdə Azərbaycan Respublikasının ayrılmaz hissəsi olan Dağlıq Qarabağda terror hadisələri törədərək on minlərlə azərbaycanlının qətlə yetirilməsini və milyondan çox insanın doğma ata-baba yurdlarından didərgin düşməsini təşkil etmişlər.

- Cəbrayıl rayonu Soltanlı kənd sakini Abışova Zöhrə Əyyub qızı tərəfindən yazılmış ərizədə göstərilmişdir ki, 1988-1992-ci illər ərzində Karo Babayan, Samvel Babayan və digər erməni separatçıları Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsində milli zəmində ədavəti qızışdırmış və nəticədə erməni quldurları azərbaycanlılara qarşı qanlı cinayətlər törətmişlər. Belə ki, ermənilər minlərlə azərbaycanlını qətlə yetirmiş, Azərbaycanın tarixi ərazilərini işğal edərək bir milyondan çox insanı doğma yurdunda məcburi köçkün vəziyyətinə salmışlar.

- Cəbrayıl rayonu Çullu kənd sakini Ağayarov Murad Hüsən oğlu ərizəsində göstərmişdir ki, erməni separatçıları Karo və onun qardaşı Samvel Babayanlar 1988-1992-ci illər ərzində Azərbaycanın ayrılmaz hissəsi olan Dağlıq Qarabağda milli zəmində gərginliyə rəvac vermiş, sonra isə onların əlaltıları olan erməni quldurları on minlərlə azərbaycanlını qətlə yetirmişlər. M.Ağayarov ərizəsində yazmışdır ki, ermənilər quldur dəstələri yaradaraq beynəlxalq hüquq normalarına məhəl qoymadan azərbaycanlılar yaşayan kəndlərə hücum edib onları öldürür və ev-eşiklərini odlayırdılar.

Ərizədə habelə göstərilir ki, erməni işğalçıları Dağlıq Qarabağdakı separatçı-terrorçu rejimi dünyada tanıtmağa, doğma torpağımızı özününküləşdirməyə çalışırlar. Erməni millətçiləri olan Samvel Babayan, Arkadi Qukasyan, Karo Babayan, Robert Köçəryan diyar-diyar gəzərək özlərinin sərsəm xülyalarını gerçəkləşdirmək üçün var gücləri ilə çalışırlar. Onun sözlərinə görə, erməni vandalları azərbaycanlılara qarşı görünməmiş vəhşiliklər etmiş, soyqırımı həyata keçirilmiş, bir milyondan artıq azərbaycanlını öz Vətənindən didərgin salmış, soydaşlarımızın hüquqları pozulmuş, onlara qarşı terror aktları həyata keçirilmişdir.

- Cəbrayıl rayon sakini İsmayılov Fəzail Kamran oğlu ərizəsində göstərmişdir ki, 1988-ci dən başlayaraq Ermənistan silahlı qüvvələri xarici dövlətlərdən dəstək alaraq Azərbaycan vətəndaşlarını öz ata-baba torpaqlarımızdan zorla çıxarmışlar. Erməni terrorçuları azərbaycanlı uşaqları, yaşlıları, qız-gəlinləri girov götürərək onlara olmazın əzablar, işgəncələr vermişlər. Qatı millətçi olan Samvel Babayan, Karo Babayan, Serj Sarkisyan, Arkadi Qukasyan, Robert Köçəryan və başqalarının törətdikləri qanlı faciələri azərbaycanlılar heç vaxt yaddan çıxarmayacaqlar.

- Cəbrayıl rayon sakini Səfərli Hidayət Hümbət oğlu yazdığı ərizəsində göstərmişdir ki, 1993-cü il avqustun 23-də Dağlıq Qarabağ inzibati ərazi bölgüsünə daxil olmayan 53 min nəfərlik Cəbrayıl rayonu erməni quldurları tərəfindən işğal olunmuş və əhaliyə, o cümlədən qadınlara, yaşlılara, şikəstlərə, körpə uşaqlara münasibətdə misli görünməmiş vəhşiliklər törətmişlər. Karo Babayan və Samvel Babayanlar və digər separatçıların rəhbərliyi altında fəaliyyət göstərmiş erməni quldurlarının rayonu işğal etmələri nəticəsində 14 nəfər şəhid olmuş, 7 nəfər ağır bədən xəsarəti alaraq şikəst olmuşdur. Ümumilikdə döyüşlər zamanı təxminən 500 nəfərə qədər rayon sakini ermənilər tərəfindən qətlə yetirilmişdir.

- Füzuli rayon sakini Novruzov İsa ərizəsində göstərmişdir ki, 1988-ci ildən başlayan ermənilərin terror fəaliyyətləri nəticəsində azərbaycanlılar öz doğma yurdlarından didərgin salınmışlar.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, eləcə də həmsərhəd rayonlarda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar, Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 13/636-92 nömrəli cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, 1992-ci il 21 oktyabr tarixdə saat 16.30 radələrində Tərtər-Kəlbəcər nəqliyyat yolunda, Sərsəng su anbarının 1,5 km-də hərəkət edən “Zil-130”, “Ural”, “UAZ-469”, “Qaz-52” markalı avtomobillər odlu silahlardan atəşə tutulmuş, nəticədə altı nəfər (Əsgərov Salman Fərman oğlu, Quliyev Əşrəf Yunis oğlu, Bəylərov Mahir Əmiraslan oğlu, Orucov Musa Oruc oğlu və Bayramov Məzahir Təhməz oğlu) qətlə yetirilmişdir.

1992-ci il oktyabrın 23-də Gəncə qarnizonunun hərbi prokuroru R.M.Yusifov tərəfindən baş vermiş cinayət hadisəsi ilə əlaqədar Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 94-cü maddəsinin 6-cı və 8-ci bəndləri ilə cinayət işinin başlanılması haqqında qərar tərtib edilmiş və iş üzrə istintaq qrupu təşkil olunmuşdur. Cinayət işi ilə əlaqədar hadisə yeri müayinə edilmiş, avtomat və birdəfəlik qumbaraatanların gilizləri tapılaraq işə əlavə edilmiş, çoxlu sayda şahidlər dindirilmiş, üç nəfər barədə məhkəmə-tibb ekspertizası təyin edilmiş və Kəlbəcər Rayon Polis Şöbəsinə xüsusi tapşırıqlar verilmişdir. İstintaq zamanı cinayəti törətmiş şəxslərin iştirakı olmadan həyata keçirilməsi mümkün olan bütün istintaq tədbirləri həyata keçirilmiş, lakin cinayətkarları müəyyən etmək mümkün olmamışdır.

Müharibə şəraiti olduğu üçün və cinayəti törətmiş şəxslərin Dağlıq Qarabağ ermənilərі yaşayan ərazilərdə olması səbəbindən əməliyyat-axtarış tədbirlərini davam etdirərək onların həbs edilməsi qeyri-mümkün olmuşdur[1].

1988-ci ildən 1993-cü ilədək Azərbaycanın Dağlıq Qarabağ regionunda fəaliyyət göstərmiş qondarma DQR-də rəhbər vəzifələrdə işləmiş, Xankəndi və digər yaşayış məntəqələrindən azərbaycanlıların kütləvi surətdə öz doğma yurdlarından məcburi qovulmaları və qətlə yetirilmələri üçün şərait yaratmış, bu işi həyata keçirmiş erməni quldur dəstələrini maliyyələşdirmiş, silah, sursat, ərzaq, nəqliyyat və sairə zəruri vasitələrlə təmin etmiş R.Köçəryan, S. Sarkisyan, A.Qukasyan, S.Babayan, K.Babayan və digərlərinin cinayət əməlləri barədə materiallar toplamaq məqsədi ilə MTN-in Əli-Bayramlı Şəhər Şöbəsi, Sabirabad, Kəlbəcər, Tərtər, Şuşa və digər rayon bölmələrinə verilmiş sorğular nəticəsində daxil olmuş materialların təhlili zamanı aşağıdakılar məlum olmuşdur:

- Ermənistan prezidenti R.Köçəryan 1953-cü ildə Xankəndidə anadan olmuş, 1980-ci illərdə Xarkov Sənaye və Texnologiya İnstitutunu bitirmişdir. 1986-cı ildə Xankəndi Şəhər Komsomol Komitəsinin ikinci katibi vəzifəsində çalışmışdır. 1986-cı ilin noyabr ayında Xankəndi İpək Kombinatına azad partiya təşkilat katibi seçilmişdir. Həmin vaxtdan başlayaraq kombinatda çalışan azərbaycanlılar müxtəlif bəhanələrlə bir-birinin ardınca işdən qovulmuşlar. 1988-ci ildə artıq kombinatda azərbaycanlı milliyətindən olan işçi qalmamışdır.

- R.Köçəryan 1993-cü ildə qondarma "Dağlıq Qarabağ Respublikası"nın prezidenti seçilənədək "Daşnaksütyun" partiyasının və millətçi "Krunk" təşkilatının fəallarından biri kimi antiazərbaycan təbliğatının fəal təşkilatçısı olmuşdur. O, 1991-1993-cü illərdə "Dağlıq Qarabağ Respublikası"nın hərbi birləşmələlərinin rəhbəri olmuşdur. Dağlıq Qarabağda yerləşən Rusiyanın hərbi qüvvələrinin rəhbərləri ilə sıx əlaqələr qurmuş, onların döyüş sursatları, texniki imkanlarından və canlı qüvvəsindən azərbaycanlı əhalinin faciəli şəkildə doğma torpaqlarından qovulmasında, Şuşanın, Xocalının və Azərbaycanın digər

[1] AR MTN Arxiv sənədi.

rayonlarının işğal olunmasında istifadə etmişdir. R.Köçəryanın separatçılıq və digər cinayət fəaliyyətində ən yaxın köməkçiləri Serj Sarkisyan, Samvel və Karo Babayan qardaşları, Arkadi Qukasyan və digərləri olmuşlar.

- Alınmış məlumata görə, R.Köçəryan Xankəndidə komsomol komitəsində işlədiyi müddətdə onun iş otağı həmin vaxtlarda ermənilər tərəfindən "Daşnaksütyun" və "Krunk"un fəal dayaq nöqtəsi kimi istifadə olunurdu. 1988-ci il fevralın 12-də azərbaycanlılara qarşi ilk mitinq məhz Köçəryanın rəhbərliyi altında təşkil edilmişdir. Hadisələrin ilk aylarından Xocalı şəhərinin girəcəyində 4 evin yandırılması və azərbaycanlı ev sakinlərinin bir neçəsinin yaralanması ilə nəticələnən təxribat aksiyası konkret olaraq R.Köçəryan, Serj Sarkisyan, Arkadi Qukasyanın təşkliatçılığı və bilavasitə rəhbərliyi altında törədilmişdir.

- İlk dəfə Azərbaycanın Dağlıq Qarabağ regionunda yaşayan ermənilərin "acınacaqlı" vəziyyətdə yaşadıqlarını bildirmək üçün keçmiş Sov. İKP MK - nın milli məsələlər üzrə şöbə müdiri Mixaylovun yanına Moskvaya getmiş 8 nəfər ermənidən biri də R.Köçəryan olmuşdur.

- R.Köçəryan ipək kombinatında işləyərkən tokar sexini odlu silahlar və partlayıcı maddələr düzəltmək sexinə çevirmiş və müxtəlif döyüş sursatları hazırlatdırmışdır. R.Köçəryan həmin dövrdə şəxsən özü odlu silah və döyüş sursatı hazırlamışdır.

- 1992 - ci il 8 mayın 8-də Şuşa şəhəri işğalçı Ermənistanın silahlı qüvvələri tərəfindən zəbt olunan zaman Şuşa avtobazasının həyətində Zirehli Transpartyorun (ZTP-in) üzərində Ermənistan bayrağının dalğalandığı və bayrağın yanında R.Köçəryanın fəxrlə durduğu müşahidə edilmişdir.

-1988-ci ii oktyabr ayının axırında Əsgəran rayon təhsil şöbəsinə azərbaycanlıların əleyhinə təbliğat aparmaq üçün Xankəndidən gəlmiş və yığıncaq təşkil etmiş R.Köçəryan çıxışında türklərin və azərbaycanlıların ermənilərə qarşı bədnam "soyqırımı" təşkil etmələrini xatırladaraq pedaqoji kollektivə bu faciələri heç vaxt yaddan çıxarmamağı və şagirdləri millətçi ruhda tərbiyə etməyi tapşırmışdır.

Yığıncaqda iştirak etmiş Cəmilli kənd məktəbinin direktoru Qasım Qırxqızlı və onun müavini Quliyev Xudayar bildirmişlər ki, onlar R.Köçəryanın millətçi çıxışına öz etirazlarını bildirərək iclası tərk etmişlər.

Dağlıq Qarabağ hadisələri başlayan vaxtdan ermənilər azərbaycanlı müəllim heyətinə hədə-qorxu gəlməklə ərizələrini yazaraq işdən getməyi tələb etmişlər. Könüllü iş yerini tərk etməyən müəllimlər isə fiziki işgəncələrə və təqiblərə məruz qalmışlar.

R.Köçəryan 1988-1989-cu illərdə qatı millətçi-separatçı fəaliyyətini Xankəndidəki bütün təşkilatlarda ardıcıl surətdə həyata keçirirdi. Azərbaycanlıların öz doğma əraziləri olan Xankəndi və Qarabağın digər yaşayış məntəqələrindən kütləvi qovulmalarında R.Köçəryan, S.Sarkisyan, A.Qukasyan, Samvel və Karo Babayanların fəal rolu olmuşdur. Həmin separatçılar həmçinin 1988-ci il sentyabr

ayının 16-da Xankəndidə azərbaycanlılara məxsus 50 evin yandırılmasının və bu yönümlü digər faciəli hadisələrin fəal təşkilatçıları olmuşlar.

Eyni zamanda hazırda Ermənistanın müdafiə naziri S.Sarkisyan və qondarma "DQR"in prezidenti A.Qukasyan barəsində aşağıdakı məlumatlar alınmışdır.

- Sarkisyan Serj Azatoviç 1952-ci ildə Xankəndidə anadan olmuş, sonralar Yerevan Dövlət Universitetinin tarix fakültəsini bitirmiş, məlum hadisələr dövründə Xankəndi Şəhər Komsomol Komitəsinin birinci katibi işləmişdir. S.Sarkisyan R.Köçəryandan fərqli olaraq, olduqca hiyləgər, azərbaycanlılara qarşı hər cür vəhşiliklər törətməyə hazır olan bir şəxsdir.

Separatçı-terrorçu rejimin başçısı Qukasyan Arkadi Arşaviroviç 1951-ci ildə Xankəndidə anadan olmuş və məlum hadisələr dövründə keçmiş DQMV Komsomol Komitəsinin büro üzvü və rus dilində nəşr olunmuş "Sovetskiy Karabax" qəzetinin redaktor müavini işləmişdir. O, həmin dövrdə azərbaycanlıların əleyhinə tarixi faktları saxtalaşdırdığı yazılarla bədnam şöhrət qazanmışdır.

Ümumiyyətlə, Azərbaycanın Dağlıq Qarabağ regionunda azərbaycanlılara qarşı törədilmiş qanlı hadisələrin, soyqırımın, soydaşlarımızın kütləvi şəkildə və zorakılıqla doğma yurd yerlərindən deportasiyasının və son nəticədə torpaqlarımızın işğal olunmasının başında konkret olaraq R.Köçəryan, S.Sarkisyan, A.Qukasyan dayanır.

- Ermənistan Respublikasının hazırki müdafiə naziri S.Sarkisyan Xankəndi şəhərində anadan olmuş, təhsilini Yerevan şəhərində almışdır. Hadisələr başlayan dövrdə o, Xankəndi Şəhər Komsomol Komitəsinin birinci katibi vəzifəsində işləyirdi. "Krunk" və "Daşnaksütyun"nun fəallarından olmuşdur. Xankəndidə yaşayan ermənilərin silahla təmin edilməsini, azərbaycanlıları daşıyan Ağdam-Şuşa marşrutunda işləyən avtobusların əvvəlcə daş-qalaq edilməsi, sonra odlu silahla atəşə tutulması nəticəsində 25 nəfərin qətlə yetirilməsini, 1989-cu ildə Ağdamdan Şuşaya uçan "Mi-8" vertolyotunun vurulmasını, Malıbəyli kəndinə ilk hücumu, Əsgəran-Ağdam rayonlarının sərhədində iki azərbaycanlının qətlə yetirlməsini konkret olaraq S.Sarkisyan təşkil etmişdi. Həmin dövrdə S.Sarkisyan Ermənistandan odlu silah və döyüş sursatlarının gətirilməsi və Dağlıq Qarabağda yaşayan ermənilərə paylanılması ilə məşğul olurdu. S.Sarkisyan cinayətkar fəaliyyətinə görə Ermənistan Respublikasının müdafiə naziri vəzifəsinə təyin edilmişdir. Bu faktın özü terrorizmin Ermənistan Respublikasında dövlət səviyyəsində dəstəklənməsinə əyani sübutdur.

-1988-ci ilin noyabr ayında Dağlıq Qarabağ Muxtar Vilayətinin səhiyyə şöbəsinin müdiri, 30-35 yaşlarında olan ailəli qadın Tovmasyan milliyyətcə azərbaycanlı olan bir şəxsi kabinetinə çağırmış və işdən çıxması üçün ərizə yazmasını tələb etmişdir. Həmin vaxt telefon zəng etmiş və qarşı tərəfdən danışan şəxsin V.Oskanyan adlı birisi olduğu məlum olmuşdur. Söhbət zamanı Tovmasyan

bildirmişdir ki, artıq 60-dan artıq azərbəycanlı öz iş yerindən azad edilmişdir, yerdə qalan bir nəfər də yaxınlarda azad ediləcəkdir.

Telefon danışığı qurtarandan sonra Tovmasyan həmsöhbətinə yuxarı təşkilatların vilayət səhiyyəsində çalışan azərbaycanlıların işdən xaric olunması barədə göstəriş verdiklərini bildirmiş və ondan könüllü olaraq ərizəsini yazmağı tələb etmişdir. Əks təqdirdə Tovmasyan ona haqsızlıqla işdən qovulmuş Nizami həkimin taleyini yaşayacağı barədə hədə-qorxu gəlmişdir. Bu söhbətdən sonra Tovmasyan Şuşa rayon səhiyyə şöbəsinin müdiri Romik Məhərrəmova zəng edərək həkimin işlə təmin olunmasını xahiş etmiş və bir həftədən sonra o, ixtisası üzrə Şuşada işlə təmin olunmuşdır.

Tovmasyan 1988-1989-cu illərdə Xankəndidə qanunsuz keçirilən mitinqlərdə səhiyyə işçilərinin fəal iştirakını təmin edirdi.

Məlumatda adı qeyd olunan Nizami Aftandilov Xankəndi Uşaq Xəstəxanasında həkim-rentgenoloq işləyirdi. İşdən çıxma barəsində könüllü ərizə yazmadığına görə, 1988-ci ilin yayında Xankəndi şəhər Uşaq xəstəxanasının həyətində iş yoldaşları və digər erməni millətçiləri tərəfindən vəhşicəsinə döyülmüşdür. Bu hadisədən sonra o, yaşadığı Ağdam şəhərində aldığı daxili zədələrdən vəfat etmişdir. Nizaminin başına gətirilmiş hadisədən əvvəl iki həkim zəhərlənmə nəticəsində vəfat etmişdir.

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, eləcə də Ermənistanla həmsərhəd rayonlarında azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 1989-cu il oktyabr ayının 7-də, saat 01 radələrində Ağdamdan Şuşaya gedən şose yolunda Xəlfəliçay üzərindəki körpünün partladılması ilə əlaqədar keçmiş SSRİ DTK-nın İstintaq şöbəsinin istintaq qrupu tərəfindən 1989-cu il oktyabr ayının 8-də Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 61-ci maddəsi ilə qaldırılmış 5 cilddən ibarət 38/ 33063 saylı cinayət işi təhlil edilmişdir.

1991 -ci il 10 avqust tarixində Babayan Samvel Andranikoviç şübhəli şəxs qismində dindirilən zaman aşağıdakıları bildirmişdir:

5 mart 1965-ci il tarixdə Xankəndində anadan olmuşdur. 1982-ci ildə Xankəndi şəhər 7 saylı orta məktəbi bitirmişdir. 1983-cü ildə Yerevan şəhərində texniki-peşə məktəbində dəmirçi ixtisasına yiyələnmişdir. 1983-1985-ci illər ərzində sovet ordusunun Almaniya Demokratik Respublikasının Xalberştat şəhərində dislokasiya olunmuş hərbi hissələrdən birində xidmət etmişdir. 1986-cı ildə Xankəndi şəhərində fəaliyyət göstərən istehsalat kombinatında ştamplayıcı kimi əmək fəaliyyətinə başlamışdır. Sarı rəngli, 1984-cü il buraxılışı olan "VAZ-2106" markalı, X 71-07 AQ dövlət nömrə nişanlı şəxsi maşını vardır.

Atası - Babayan Andranik Mədətoviç 1934-cü ildə anadan olmuş, mebel fabrikində dülgər işləyir, II qrup əlilidir. Anası-Babayan Viktoriya Aramovna

1938-ci il tarixdə anadan olmuş, Xankəndidə mərkəzi bazardakı çayxanada bufetçi işləyir.

Qardaşı-Babayan Karen Andranikoviç Xankəndidə fəaliyyət göstərən "Paros" kooperativinin çörəkbişirmə sexində işləyir. Yaxın qohumları və ailəsi ilə birlikdə Xankəndi şəhərində, Teryan küçəsində yerləşən 20 saylı şəxsi evdə yaşayırlar. 1988-ci ildə ailə həyatı qurmuşdur. Həyat yoldaşı - Babayan İrina Yenekovna Xankəndi şəhərində fəaliyyət göstərən qanköçürmə laboratoriyasında katibə işləyir. İki uşağı var.

Bacıları - Anuş Akopyan Stavropolda, Karina Nersesyan isə ailəsi ilə birlikdə Xankəndidə yaşayırlar. Karinanın həyat yoldaşı, Aşot Akopyan Əhaliyə Məişət Xidməti İdarəsinin direktor müavinidir. 1988-ci ildə S. Babayan bacısının evində olarkən Aşot Akopyan dostu kimi Akop Baqramyanı onunla tanış etmiş, söhbət əsnasında A.Baqramyan ona partlayıcı qurğuları hazırlamağı təklif etmişdir. Bu görüşdən bir müddət sonra Akop Baqmanyan onu 30 nəfərə yaxın dəstəsinin üzvü ilə tanış etmişdir.

1991-ci il 4 və 10 avqust tarixlərində S.Babayan öz ifadəsində bildirmişdir ki, 1989-cu il oktyabr ayının ortalarında R.Köçəryanın tabeliyində olan Muradikin tapşırığı ilə Qaqo, Abo, A.Abramyan, A.Baqramyanla birlikdə Xankəndinin kənarındakı "Ağa körpüsü"nü partlatmışlar. O, A.Baqramyanın tapşırığı ilə partlayıcı qurğunun onun tərəfindən hazırlandığını bildirmiş və sxemini çəkmişdir. Partlayıcı qurğuya bir amunal, üç kapsul, qaytan, bir ədəd mexaniki saat və üç enerji qidalandırıcısı daxil edilmişdir. Eyni zamanda o, dəstə üzvlərinin körpüyə yaxınlaşdıqları sxemi də ətraflı çəkmişdir

Körpünü nə məqsədlə partlatmısınız? sualına cavab olaraq S.Babayan azərbaycanlıların iri və xırda buynuzlu mal-qarasını, tikinti və ərzaq məhsullarını Laçın və Şuşaya aparılmasının qarşısını almaq məqsədilə bu aksiyanı həyata keçirdiklərini bildirmişdir. Lakin o, 1991-ci il oktyabrın 25-də verdiyi ifadəni inkar etmişdir.

S.Babayanın verdiyi məlumata görə:

- M.Petrosyanda olan pulları hərbçilərdən döyüş sursatları və geyim əşyalarını Xankəndi şəhər sakini, təxminən 40 yaşında, boyu 172-173 sm olan Lyova adlı şəxs almışdır. S.Babayan ilk dəfə 1990-cı ilin avqust ayında avtomat silahı üçün 5, 45 və 7, 62 çaplı 10 minə yaxın gülləlləri və hərbi geyim əşyalarını Lyovadan aldığını bildirmişdir.

- 1991-ci ilin iyun ayında o, Petrosyan Muradikdən 20 min pul almışdır. M.Petrosyan S.Babayana demişdir ki, quldurlara vermək üçün hər ay Yerevandan Sarkisyan Vazgen adlı şəxs 20 min rubl göndərəcəkdir.

- 1990-cı ilin aprel ayında M.Petrosyanın göstərişi ilə Xocavənd rayonunun Mısmına kəndinə getmiş və orada 7 ədəd avtomat silahı, 7,62 çaplı güllə olan iki ədəd dəmir qutunu və 10 ədəd 12 kalibrli ov tüfəngini kənd sakini Alik adlı quldura vermişdir.

- M.Petrosyanın tapşırığı ilə o, yığılan pulları, silah və döyüş sursatlarını saxlamış və erməni silahlı dəstələrinə paylamışdır.

- 1991-ci ilin yazında Cəmilli kəndində Alikin quldur dəstəsinin üzvü Xankəndidə qəbiristanlığın yanında yaşayan David adlı erməni Kərkicahandan olan iki azərbaycanlı polis əməkdaşını qətlə yetirmişdir. Bundan sonra David həmin əməkdaşların avtomat silahlarını götürmüşdür.

- 1991-ci ildə Polyaniçko Vilayət Komitəsində müşavirə keçirərkən Arkadik adlı quldurun rəhbərliyi altında fəaliyyət göstərən "Avqanes" ləqəbli Aqo adlı erməni qumbaraatan silahla binaya atəş açmışdır.

- S.Babayan bildirmişdir ki, 1991-ci il iyun ayının sonlarında Xocavənd rayonunun Qaradağlı kəndi raketlə atəşə tutulmuşdur. Xankəndi istehsalat kombinatında ştamplayıcı işləyən və Arminavan qəsəbəsində yaşayan Sarkisyan (və ya Saakyan) Saşik adlı quldur ona demişdi ki, Xocavənd rayonundan olan Volodya ilə birlikdə "KamAZ" markalı maşının yük daşıyan hissəsinə bərkidilmiş "Alazan" sistemi ilə Qaradağlı kəndinə 20 raket atmışdır.

- Qeyd: Milli Təhlükəsizlik Nazirliyində olan materialların təhlili zamanı əldə olunmuş məlumata görə, S.Babayan 1993-1995-ci illlər ərzində qondarma "Dağlıq Qarabağ Respublikası"nın müdafiə naziri vəzifəsində işləmiş, rütbəsi general-leytenant olmuşdur. Onu Xankəndindən Xocalıya gedən dairəvi yolun 500 metrliyində yerləşən villası vardır.

S.Babayanın məlumatına görə keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində 8 erməni quldur dəstəsi fəaliyyət göstərir.

Birinci qrupa - Yurik Cahangiryan adlı Xankəndi şəhər sakini rəhbərlik edir. Onun təxminən 50 yaşı olar, boyu 168-170 sm-dir. Nazik bığ saxlayır. O, Yerevandan aldığı bir milyondan çox rubl sayəsində Xocalı şəhərinin yaxınlığında strateji əhəmiyyətli Osipavan kəndini tikdirməyə başlamışdır. O, həmin kənddə silah və döyüş sursatı, o cümlədən "Alazan" raket sistemi saxlayır. Həmin qrupa Cahangiryanın oğlu Karen də daxildir. Onun boyu 176 sm, sifəti yumrudur. Qrupa eyni zamanda Xankəndi şəhərinin Zavod küçəsində yaşayan, boyu 177-178 sm, təxminən 42-43 yaşlı Qraçik adlı erməni də daxil olmuşdur. Həmin qrupun vəzifəsi insanların qətlə yetirilməsi ilə nəticələnən terror aktlarını həyata keçirməkdir.

İkinci qrupa - Qaqo (rəhbər), Aşot və Slavik daxildirlər. Qaqo Xankəndi mebel fabrikində işləyir, Xankəndi şəhər 1 nömrəli uşaq bağçasının və bazarın yanındakı ikimərtəbəli evdə yaşayır. 29 yaşı var. Boyu 172 sm-dir. Saçları düzdür və soldan sağa darayır, sifəti yumrudur. Orta, düz burnu və sarı qalın bığı var. Onun yaşıl rəngli "Niva" marklı, X 67-81 AQ dövlət nömrə nişanlı şəxsi maşını var. Azərbaycan Respublikası DİN DYP-nin kartotekasından alınmış məlumata görə həmin maşın Xankəndi şəhər Ekimyan küçəsi 11 saylı evdə, mənzil 50-də yaşayan Yeqizaryan Yuliya Berjikovnanın adınadır. O, M.Petrosyanın yaxın dostudu.

S.Babayanın verdiyi məlumata görə, 1989-cu ilin sonu 1990-cı ilin əvvəllərində Qaqo, Aşot və Slavik Şuşada yanacaq doldurma məntəqəsini partlatmışlar. Bu barədə Qaqo özü ona danışmışdır.

S.Babayan ifadəsində bildirmişdir ki, 1990-cı il 30 noyabr tarixində Qaqonun qrupu Ağa körpüsünün yaxınlığında Zərinbağ adlanan ərazidə Şuşadan gələndə birinci döngədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Xüsusi Təyinatlı Polis Dəstəsinin (XTPD) hərəkət etdikləri avtobusu partlatmağa cəhd göstərmiş, sonra isə avtobusa silahlı basqın etmişlər. Belə ki, S.Babayanın ifadəsinə görə, XTPD-nin əməkdaşları Xocalı Hava Limanını mühafizə etdikləri üçün Qaqonun qrupu M.Petrosyanın tapşırığı ilə onları oradan uzaqlaşdırmaq məqsədilə təxribat aksiyaları keçirmişlər. Eyni zamanda Qaqonun rəhbərlik etdiyi qrup 1991-ci ilin aprel ayında Xocavənd rayonundakı "Amarasi" kilsəsinin yaxınlığında "UAZ" markalı maşında olan Azərbaycan Respublikası DİN-nin XTPD-nin əməkdaşlarına silahlı basqın etmişdir. Bundan əlavə Qaqonun qrupu 1990-cı ildə Əsgəran rayonunda şose yolunu partaltmışdır".

A.Abramyan öz ifadəsində bildirmişdir ki, 1991-ci ilin əvvəlləri idi. M.Petrosyanla Xankəndi bazarının yanında dayanarkən Qaqo ilə Aşot yaşıl rəngli X67-81AQ dövlət nömrə nışanlı "Niva" markalı maşınla onların yanında dayanmışlar. Qaqo Muradikə demişdir ki, onlar borunu partlatdılar, lakin XTPD-nın əməkdaşları olan avtobus oradan keçmədi. Onların söhbətindən məlum olmuşdur ki, Qaqo və onunla birlikdə olan dəstə Xankəndi və Şuşa arasında olan şose yolunun altından keçən böyük diametrli borunu partlatmışlar. Həmin boru Ağa körpüsündən bir az yuxarıda, Zərinbağ adlanan əraziyə çatmamış Füzuli və Qırmızı bazara gedən yolun ayrıcından keçir.

Aşot - Xankəndi mebel fabrikində işləyir. "Mayak" dükanı ilə üzbəüz yaşayır. Boyu 172-173 sm-dir və orta bədən quruluşuna malikdir. Saçları və gözləri qaradır, dodaqları nazikdir.

Slavik Ermənistanın Qafan rayonunda yaşayır. Xankəndində isə Qaqonun və Aşotun evində qalıb. Boyu 170 sm, saçları qara və düzdür. Qalın qara bığları var, gözləri orta qaradır, sifəti uzunsovdur.

Həmin qrupda Qaqo adlı bir quldur da vardır. O, Ermənistan vətəndaşıdır. Boyu 168 sm, saçları və gözləri qara, orta qara bığ saxlayır, təxminən 35-37 yaşı olar.

Qrupun vəzifəsinə əsasən körpülərin, evlərin və yolların partladılması daxildir.

Üçüncü qrupa - Abo adlı quldur daxildir. O, Xankəndində təcili yardım xəstəxanasının yaxınlığında yaşayır, ət kombinatında işləyir. Yaşı təxminən 34-35 olar. Boyu 178 sm, saçları düz qara, gözləri qara, dodaqları ortadır. Qrupun digər üzvlərini tanımadığını bildirmişdir. Qrupun vəzifəsi Əsgəran rayon Primıke kəndinin mühafizəsini həyata keçirməkdir. Həmin kənddə olan fermada inəklər saxlanılır.

Dördüncü qrupa - Arminavan kənd sakinləri Samvel və Saşik, Karintaq kəndindən isə Vaqo adlı quldur daxildir. Samvel Ermənistandandır, lakin Daşuşen kəndində yaşamış və limonad sexinin rəhbəri olmuşdur. Boyu 168-170 sm-dir. İri bədən qurluşuna malikdir, saçları qaradır, qara nazik bığ saxlayır, gözləri qaradır. Təxminən 43 yaşı olar.

Saşik Arminavan qəsəbəsində yaşayır. Metal zavodunun ştamplayıcı işləyir. Boyu 172-173 sm, saçları, gözləri qaradır, sıx qara bığ və saqqal saxlayır, sifəti uzunsovdur. Vaqo Daşaltı kəndində yaşayır, ermənilər bu kəndi Karentaq adlandırır.

Beşinci qrupa - Kərkicahan sakini Alik adlı quldur daxildir. Boyu 176 sm, yaşı təxminən 35-36-dır, saçları və gözləri qaradır, düz burnu, iri alnı var.

Altıncı qrupa: Xankəndidəki təcili yardım məntəqəsinin yaxınlığında yaşayan Akop adlı quldur daxildir. Boyu 172-173 sm, yaşı 28-29-dur. Saçları və gözləri qaradır. Sifəti nazikdir. Dodaqları iridir. Daima qalstuk taxır və əlində qovluq olur. Onun qrupuna əsasən tələbələr daxildirlər.

Yeddinci qrupa - Arkadik və Karen adlı quldurlar daxildir. Arkadik komsomol komitəsinin keçmiş əməkdaşıdır, hazırda Xankəndidə Pedoqoji İnstitutun yaxınlığında yaşayır. Boyu 176-177 sm, yaşı 32-33-dür, dodağı ortadır, saçları, gözləri qaradır, qara orta bığ saxlayır, sifəti yumrudur. Karen barədə heç bir məlumat yoxdur.

Səkkizinci qrupa - Ballıca kəndindən Qarnik adlı quldur daxildir. Yaşı 33-34, boyu 170 sm, saçları düz, qara, orta həcmli buruna malikdir. Qara gözləri var, qalın bığ və saqqal saxlayır. Onun qrupuna əsasən Ballıcadan 10 nəfər erməni qulduru daxildir.

Doqquzuncu qrupa - Xankəndi şəhər 10 saylı orta məktəbin yaxınlığında 100 mənzilli evdə yaşayan Qaqo adlı quldur daxildir. Onun boyu 173 sm, yaşı 38-dir. Arıq bədən quruluşuna malikdir, saçları və gözləri qaradır. Onun daxil olduğu qrup əsasən Muradik Petrosyanın tapşırıqlarını icra edir.

Onuncu qrup - Xankəndi şəhər sakini A.Baqramyan və onun qardaşı Samvelin rəhbərliyi ilə fəaliyyət göstərir.

Müstəntiqin sualına cavab olaraq Babayan bildirmişdir ki, qardaşı Babayan Karen kooperativdə işləyən və Xankəndi şəhəri Xanlar küçəsində yaşayan Rafiklə birlikdə Teryan küçəsində yaşayan Ovik, Nizami küçəsində yaşayan Oqasyan Qarnik, Engels küçəsində yaşayan Aşot, əvvəllər milisdə mühafizəçi işləmiş və Engels küçəsində yaşayan Sasunla görüşmüşdür.

Sonra Abramyan və Rafik onlara yaxınlaşmış və bildirmişdir ki, Petrosyanın göstərişinə əsasən Çartar kəndində gedən döyüşdə güllələri qurtarmış ermənilərə kömək etmək məqsədilə kəndə getmək lazımdır. Onlar Çartar kəndinə çatmamış Mısmına kəndinə dönmüşlər. S.Babayan kənddəki mənzilində 7,62 çaplı avtomat gülləri olan iki dəmir qutunu, 7 ədəd avtomat və 10 ədəd ov tüfəngini götürüb Çartar kəndinə yola düşmüşlər. Kəndə çatdıqdan sonra atışmanın

olmadığını görüb geri qayıtmışlar. Bir neçə gündən sonra Kərkicahandan olan Alik adlı quldur onda olan patron və avtomatları götürmək üçün M.Petrosyanın yazdığı kağızı ona gətirmişdir. Alik bildirmişdir ki, onlar beş qrupdan ibarət olmaqla silahlarla Hadrut rayonuna gedirlər.

Təxminən 1991-ci il mart ayının 20-də Xankəndi şəhəri, Engels küçəsində yaşayan Karen kooperativdə çörəkbişirmə sexində işləyən Aşotla birlikdə M.Petrosyanın göstərişinə əsasən təyyarə ilə Yerevana getmişlər,

Yerevan şəhərində mehmanxanada onlar Akop Baqramyan, onun qardaşı Samvel və A.Abramyanla rastlaşmışlar. Akop ona demişdir ki, Xankəndinin keçmiş komendantı general Safonovu öldürmək üçün Rostov şəhərinə gedir. Bu məqsədlə Akopda iki ədəd sandıqçası 20 ədəd güllə tutan, 50-60 sm uzunluğunda Çexoslovakiya istehsalı "Skorpion" markalı avtomat silahları olmuşdur. Sonradan məlum olmuşdur ki, həmin quldurlar Rostovda Sofonovun əvəzinə səhvən keçmiş SSRİ Daxili İşlər Nazirliyinin Daxili Qoşunlarının Zaqafqaziya və Şimali Qafqaz üzrə İdarəsinin rəis müavini polkovnik Bloxotini öz evinin qarşısında qətlə yetirmişlər.

1989-cu il 7 oktyabr tarixində Ağdam-Şuşa şose yolundakı "Xəlfəliçay" üzərində Ağa körpüsünün partladılmasında iştirakı barədə məlumatlar alınması, (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 61 və 67-ci maddələri ilə müqəssir bilinərək) 30 sentyabr 1991-ci il tarixdə Bloxotini qətlə yetirməsi ilə əlaqədar keçmiş SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Rostov vilayəti üzrə istintaq idarəsinin təcridxanasında saxlanılan Baqramyan Akop Qavruşayeviçin Bakı şəhərinə etap olunması barədə Baş Prokuror tərəfindən qərar imzalanmış, lakin onun etap olunmasına razılıq verilməmişdir. 4 noyabr 1991-ci il tarixdə onun qardaşı - 11.02.1967-ci il tarixdə Xankəndi şəhərində anadan olmuş, milliyyətcə erməni, Xankəndi şəhər Kirov küçəsi, ev 33, mənzil 15-də yaşayan Baqramyan Samvel Qavruşeviç Azərbaycan Respublikası Baş Prokurorluğunun Ağır Cinayətlər üzrə İstintaq İdarəsində şahid qismində dindirilmişdir. Cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, 15.09.1965-ci il tarixdə Hadrut rayonunun Xasabert kəndində anadan olmuş, milliyyətcə erməni, Xasabert kənd dükanında işləyən Piliyan Vaqan Mixayloviç 5 avqust 1991-ci il tarixdə şahid qismində dindirilmişdir. Dindirilmə zamanı V.Piliyan istintaqa aşağıdakı məlumatları vermişdir:

- S.Babayanla keçmiş sovet ordusunun Almaniya Demokratik Respublikasında dislokasiya olunmuş hərbi hissələrindən birində xidmət edərkən tanış olmuşdur. 1991-ci il iyulun 1-də V.Piliyan anasını kəndə aparmaq məqsədilə Xankəndidə olarkən dostu S.Babayanla görüşmüşdür. Söhbət zamanı S.Babayan ona bildirmişdir ki, o, Xankəndi ştamplayıcı zavodunda əl qumbaraları hazırlayır və dostları ilə birlikdə onlardan azərbaycanlıları qətlə yetirmək üçün istifadə edirlər. S.Babayanın sözlərinə görə, 1989-cu ilin oktyabr ayında Xankəndinin

kənarından keçən Ağdam-Şuşa şose yolundakı Ağa körpüsünü həmin zavodda düzəldilmiş qumbara ilə partlatmışlar.

Sonra V.Piliyanın verdiyi məlumata görə, S.Babayanla bir dəstədə olan Erik Abramyan adlı erməni iki ov tüfəngi və 15-20 ədəd qumbaranı onların yaşadığı kəndə gətirərək kənd sakini Lalayan Xaçikə vermişdir.

V.Piliyan eyni zamanda bildirmişdir ki, quldur kimi tanınan Hadrut rayonun Xasabert kənd səkinləri Erik Abramyan və onun qardaşı Emil adlı erməni azərbaycanlıların qətlə yetirilməsində fəal iştirak etmişlər.

29.01.1960-cı ildə Beyləqan rayonun Təzəkənd kəndində anadan olmuş Zaxaryan Serob Artaşoviçin verdiyi məlumata görə, 1990-cı ilin iyun ayında S.Babayan tanışı Rafik Arzumanyanla birlikdə minik maşınında gətirdiyi 30 güllə ilə birlikdə avtomat və TOZ-8 markalı silahları "Axtanq" kooperativinin mühafizəsini həyata keçirmiş qardaşı Karen Babayana vermişdir. Həmin vaxt o, S.Zaxaryan da K.Babayanla birlikdə olmuşdur.

Bakı şəhər Prokurorluğunun şöbə prokuroru Şükür Rzayev Şuşa şəhərində VƏİQ-nin üzvü kimi fəaliyyət göstərən zaman erməni quldurları tərəfindən girov götürülmüşdür. 1991-ci il noyabrın 29-da Azərbaycan Respublikası Baş Prokurorunun müavinin qərarı ilə S.Babayan və digər erməni cinayətkarları Azərbaycan Respublikasının ərazisini tərk etməmək haqqında iltizam alaraq Ş.Rzayevlə dəyişdirilmişlər.

Cinayət işinin istintaqı zamanı S.Babayanın 1990-cı ilin mart ayından 1991-ci ilin iyul ayınadək M.Petrosyanın təşkil etdiyi erməni quldur dəstəsinin tərkibində fəaliyyət göstərərək odlu silahların, döyüş sursatlarının, hərbi geyim və digər ləvazimatların, pul vəsaitlərinin alınması, dəstə üzvləri arasında paylanılması ilə məşğul olması, eləcə də erməni quldurlarının keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti ərazisində törətdikləri dövləti cinayətləri, Xələfəliçay üzərindəki körpünün partladılması faktını gizlədərək hüquq-mühafizə orqanlarına məlumat verməməsi tam sübuta yetirilmişdir.

Göstərilənlərlə əlaqədar, 1992-ci il yanvar ayının 9-da S.Babayanın Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 70 və 82-ci maddələri ilə müqəssir bilinərək həbs edilməsi barədə qərar qəbul edilimişdir. Onun yaşayış yeri müəyyənləşdirilmədiyi üçün barəsində axtarış elan edilmişdir.

Ağır fəsadalarla müşaiyət olunmuş Xəlfəliçay üzərindəki körpünün partladılması, millətlərarası ədavətin qızışdırılması, bu kimi digər dövləti cinayətlərlə əlaqədar A.A.Abramyan, A.V.Xaçaturyan, A.Q.Baqramyan adlı şəxslər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 61 və 67-ci maddələri ilə müqəssir bilinərək, 1992-ci il 16yanvar tarixində barələrində həbs qəti imkan tədbiri seçilmişdir. Həmin şəxslərin yaşadıqları yer müəyyənləşdirilmədiyi üçün barələrində axtarış elan edilmişdir.

1992-ci il 31 yanvar tarixində Rusiyanın Rostov vilayəti üzrə Təhlükəsizlik İdarəsinin İstintaq şöbəsi rəhbərliyinin qərarı ilə general-mayor

V.N.Safonova qarşı terror aktının hazırlanmasına dair materiallar, A.A.Abramyanın, S.A.Babayanın, M.A.Petrosyanın, R.S.Köçəryanın, V.L.Petrosyanın və A.A.Aleksanyanın cinayət əməlləri barəsində sübutlar baxılmaq üçün Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin İstintaq Şöbəsinə göndərilmişdir.

S.Babayan, A.Xaçaturyan, A.Baqramyan, M.Petrosyan, "Qaqo" ləqəbli Q.Qasparyan, Abo və Slavik adlı ermənilərin cinayət əməllərinin istintaq tərəfindən tam sübuta yetirilməsinə baxmayaraq, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin ərazisində silahlı qarşıdurmanın mövcudluğu, müvafiq regionda fəaliyyət göstərən icra strukturlarının və hüquq-mühafizə orqanlarının Azərbaycanın rəhbərliyinə tabe olmamaları ilə əlaqədar sadalanan şəxslərin yaşayış ünvanları müəyyənləşdirmək mümkün olmamışdır.

Azərbaycan Respublikasının Qarabağ bölgəsinə daxil olan rayonlarda erməni cinayətkarlarının dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayətlərdən bəzi məqamlar:

**Xocalı**

**1992.02.26.**

Ermənistan Respublikasının hərbi birləşmələri Rusiya Federasiyasına məxsus 366-cı motoatıcı alayının dəstəyi ilə fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycan Republikasının Xocalı şəhərini işğal etməklə, burada məskunlaşmış dinc əhaliyə qarşı soyqırım aksiyasını həyata keçirmişdir. Bu cinayətin nəticəsində 106 qadın, 23 uşaq da daxil olmaqla 613 nəfər dinc sakin qətlə yetirilmiş, 487 nəfər əlil olmuş, 1257 nəfər erməni quldurları tərəfindən əsir götürülmüş, 150 nəfər şəhər sakini isə itkin düşmüşdür.

**Ağdam**

**1992.03.17**

Erməni hərbi birləşmələri tərəfindən Ağdam şəhərinin elektrik yarımstansiyası və Şelli kəndi artlileriya qurğularından atəşə tutulmuşdu, eyni zamanda həmin gün "Kristall" tipli raket qurğularından Ağdərə rayonunun Seysulan kəndindən Tərtər rayonunun mərkəzi davamlı atəşə məruz qalmışdır, nəticədə 3 nəfər həlak olmuş, 17 nəfər yaralanmış, yaşayış məntəqələrinə ciddi maddi ziyan dəymişdir[1].

**1992.04.01.**

Rayonun Abdal bə Gülbalı kəndlərinin erməni yaraqlıları tərəfindən atəşə tutulması nəticəsində iki qadın yaralanmış, 15 yaşayış evinə isə ciddi maddi ziyan dəymişdir[2].

**1992.04.06.**

---

[1] AR MTN Arxivi, jurnal №1, səh-6

[2] AR MTN Arxivi, jurnal №1, səh-28

Şuşaya istiqamətlənən "Qaz-53" markalı yük maşını ermənilər tərəfindən atəşə məruz qalmışdır ki, bunun da nəticəsində bir nəfər həlak olmuş, maşının sürücüsü ağır yaralanmışdır[1].

**1992.04.13.**

Ağdam rayonunun Gülablı, Şelli, Parpavənd kəndləri istiqamətində ermənilərlə atışma nəticəsində 4 nəfər soydaşımızı yaralanmışdır.

**1992.04.20.**

Ağdamdam Şuşa şəhərinə gedən yolun atəşə tutulması nəticəsində təcili tibbi yardım maşını aşmış, maşının içərisində olan tibbi heyət yaralanmışdır. Həmin gün Şuşa şəhərinin zirehli maşınlarından atəşə tutlması nəticəsində 7 nəfər yaralanmış, 2 nəfər həlak olmuşdur[2].

**1992.04.27**

Erməni quldurları tərəfindən Abdal, Gülabalı kəndlərinin atəşə tutulması nəticəsində 10 ev dağıdılmışdır.

**1992.05.07.**

Rayonunun azərbaycanlılar yaşayan Şelli, Qardağlı, Kuropatkino kəndlərinin atəşə tutulması nəticəsində 1nəfər həlak olmuş, 4 nəfər isə yaralanmışdır. Bir gün sonra şəhərin atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 4 nəfər isə yaralanmış, 3 nəfərin evi dağıdılmışdır.

**1992.05.14.**

Rayonunun Gülablı kəndinin atəşə tutulması nəticəsində əhali arasında yaralananlar olmuşdur. May ayının son günlərində Əsgəran və Ağdərə rayonlarının ermənilər yaşayış məntəqələrində ermənilər tərəfindən Xocalı, Malıbəyli və digər yaşayış məntəqələrindən girov götürülmüş azərbaycanlılardan (əsasən qadınlar) tranşeyalar qazmaqda istifadə olunmuşdur. Onun da qeyd etmək lazımdır ki, qadınların əksəriyyəti tamamilə çılpaq vəziyyətdə olmuşlar. Bu cür faktlar həmçinin Şelli, Parpavənd kəndlərində də müşahidə olunmuşdur. İyun ayının 3-də Parpavənd kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 2 nəfər yaralanmış, bir neçə ev isə tamamilə dağdılmışdır.

**1992.06.25.**

Ağdam şəhəri düşmənlər tərəfindən "Qrad", "Kristall" mərmilər və uzaqvuran toplarla atəşə tutulmuşdur. Nəticədə şəhərə ciddi ziyan dəymişdir.

**1992.06.27.**

Axşam saatlarında Parpavənd kəndi ağır topalar və "Qrad" qurğuları vasitəsi ilə atəşə tutulmuşdur. Nəticədə bir nəfər kənd sakini həlak olmuş, iki nəfər milli ordu döyüşçüsü yaralanmışdır.

**1992.06.29.**

[1] AR MTN Arxivi, jurnal №1, səh-35
[2] AR MTN Arxivi, jurnal №1, səh-35

Rayonun Parpavənd kəndinə soxulmağa çalışan ermənilər geri oturduldu, lakin tərəfimizdən 10 nəfər həlak olmuşdur.

**1992.07.20.**

Axşam satlarında Ağdam şəhərinin mərkəzi Əsgəran istiqamətində atəşə tutlmuş, nəticədə 2 nəfər mülki vətəndaş yaralanmışdır.

**1992.08.06.**

Avqustun 5-dən 6-na keçən gecə Ağdam rayonun mərkəzi Qarabağın dağlıq hissəsi ilə həmsərhəd olan Parpavənd, Qalayçılar, Xıdırlı və Şelli ermənilər tərəfindən tanklardan, toplardan atəşə tutulmuşdur. Rayon mərkəzində və kəndlərdə dağıntılar olmuşdur.

**1992.08.12**

Avqust ayının 11-dən 12-nə keçən gecə Ağdam rayonunn Xıdırlı, Gülablı, Abdal, Şelli kəndləri erməni mövqelərindən ciddi atəşə tutulmuşdur. Bir qadın həlak olmuşdur. Ağdam-Yevlax yolu da atəşə məruz qalmışdır. Avqustun 12-si saat 14-dən başlayarq Ağdam şəhəri və sərhədyanı kəndlər "Qrad" tipli qurğulardan güclü atəşə tutulmuşdur. Mərkəzdə və kəndlərdə çoxlu dağıntılar olmuşdur.

**1992.08.16.**

Avqustun 15-də Ağdam şəhərinin atəşə tutulması nəticəsində 15 yaşlı uşaq, Gülablı kəndində isə 1 nəfər yerli sakin həlak olub.

**1992.08.21.**

Avqustun 20-dən 21-nə keçən gecə Ağdam şəhəri və ətraf kəndlər toplardan güclü atəşə tutulmuşdur. Şəhərin mərkəzində 3 binaya maddi ziyan dəymişdir.

**1922.08.24.**

Avqustun 23-dən 24-nə keçən gecə rayonun Şelli, Qasımlı, Mərzili kəndləri toplardan atəşə məruz qalıb. Mərzili kəndində iki yerli sakin həlak oşlub.

**1992.08.28.**

Avqustun 27-dən 28-nə keçən gecə Ağdaş şəhəri və rayonun Şərfalı, Şelli, Xaçın kəndləri ermənilər tərəfindən güclü atəşə tutulmuşdur. Əldə olunan məlumata görə, 10 nəfər döyüşçümüz həlak olmuş, 30 nəfər yaralanmışdır,

**1992.09.04.**

Sentyabrın 4-də saat 5 radələrində erməni yaraqlıları Ağdam rayonun Badal, Gülablı kəndinə güclü hücuma keçmişlər. Gün ərzində davam edən şiddətli döyüşlərdən sonra ermənilər kəndi ələ keçirməyə müvəffəq olmuşlar.

**1992.09.07.**

Sentyabrın 6-dan 7-nə keçən gecə ərzində Ağdam şəhəri və rayonun cəbhə xəttində yerləşən kəndləri top və atıcı silahlardan intensiv atəşə tutulmuşdur. Əhali arasında xeyli ölən və yaralananlar var.

**1992.09.20.**

Ağdam rayonun Xıdırlı kəndi Əsgəranın Xanabad yaşayı məntəqəsi istiqamətində atəşə tutulmuşdur. Nəticədə 2 ev dağılmış, 3 nəfər yaralanmışdır.

**1992.10.04.**

Ağdaş şəhərinin Əsgəran istiqamətində güclü top və "Qrad" atəşinə tutulması nəticəsində 3 qadın və 1 kişi həlak olmuşdur.

**1992.10.12.**

Rayonun Qullar kəndinin Qrad qurğularından və toplardan atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuşdur.

**1992.10.13.**

Ermənilər Əsgəran rayonu istiqamətindən Xıdırlı, Qiyaslı, Yuxarı Hacılı, Bağbanlar, Mərzili kəndlərini intensiv atəşə tutmuşlar. İlkin məlumata görə, 6 nəfər həlak olmuş, 48 nəfər yaralanmışdır. Xeyli dağıntı var.

**1992.10.14.**

Rayonun Qullar kəndinin Qrad qurğularından atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuşdur, bundan əlavə kənddə yaralılar və dağıntılar mövcuddur.

**1992.10.20.**

Rayon mərkəzində Xıdırlı, Qiyaslı, Yuxarı Hacılı, Qullar, Bağbanlar, Mərzili kəndlərinin müxtəliv növ silahlardan intensiv şəkildə atəşə tutulması nəticəsində 6 nəfər həlak olmuş, 48 nəfər yaralanmış, xeyli sayda dağıdılmışdır.

**1992.11.05.**

Rayon mərkəzi, Xıdırlı, Şelli, Mərzili kəndlərinin intensiv atəşə tutulması nəticəsində 6 nəfər həlak olmuşdur.

**1992.12.06.**

Erməni hərbi birləşmələri Mərzili kəndinə hücum edərək kəndin yarısından çoxunu yandırmışlar[1].

**1992.12.15.**

Ağdam şəhərinin mərmi atəşinə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 6 nəfər isə yaralanmışdır[2].

**1993.03.23.**

Xıdırlı kəndinin bir sakini öldürülmüş, 3 nəfər girov götürülmüş, kəndə külli miqdarda maddi ziyan vurulmuşdur.

**1993.04.01.**

Rayonun 10 sərhəd kəndinin hamısı, rayon mərkəzi və ona bitişik kəndlər artilleriya və "Qrad" qurğularından aramsız atəşə tutulmuş, 3 nəfər ölmüş, 9 nəfər yaralanmış, 25-dən artıq ev dağıdılmışdır.

**1993.06.15.**

---

[1] ARMTN Arxivi, jurnal № 26,səh-7

[2] ARMTN Arxivi, jurnal № 230,səh-16

Ermənilərin cəbhə boyu hücuma keçməsi nəticəsində dinc əhali arasında çoxlu sayda insan həlak olmuş və yaralanmışdır. İşğal olunmuş kəndlərdən 11-i düşmən tərəfindən tamamilə yandırılımışdır.

**1993.06.26.**

Müasir texnika ilə silahlanmış erməni hərbi birləşmələri Şelli, Xramord, Yeddi Xırman istiqamətlərində qəti hücuma keçmişlər. Mülki əhali arasında böyük itkilər mövcuddur.

**1993.07.24.**

Azərbaycan Respublikasının Ağdam şəhəri erməni yaraqlıları tərəfindən işğal olunmuşdur. Rayonun yüz əlli minə qədər sakini öz yaşayış yerlərini tərk etmək məcburiyyəti qarşısında qalmışdır.

**Goranboy**

**1992.03.13.**

13 mart səhər saat 4.00-dən 6.30-a qədər erməni yaraqlıları Qaraçinar kəndi və Yenikənd istiqamətlərindən iriçaplı pulemyotlar və avtomat silahlardan istifadə etməklə Azərbaycan Respublikasının silahlı qüvvələrinin Şəfəq kəndində yerləşən mövqelərini atəşə tutmuşlar. Səhər saat 11.00 radələrində ermənilər tərəfindən yenidən atışmaya başlanılmış, bu dəfə atışma saat 15.00-a kimi davam etmişdir. Erməni yaraqlıları bu dəfə bir ədəd Piyadaların Döyüş Maşını (PDM-2), RPQ-7 və avtomat silahlardan istifadə etmişlər. Nəticədə Goranboy batalyonunun əsgəri Hümbətov Çingiz Vəli oğlu qətlə yetirilmiş, iki əsgər - Kərimov Namiq Mail oğlu və İsmayılov Faiq Yusif oğlu ağır yaralanmışlar[1].

**1992.03.30.**

Goranboy rayonun Tapqaraqoyunlu kəndinin Ağdərə rayonun Talış kəndi istiqamətindən mərmilərdən atəşə tutulması nəticəsində kəndə gələn elektrik xətti və qaz kəməri partladılmışdır[2].

**1992.05.12.**

Erməni quldurlarının Goranboy rayonunun Tapqaraqoyunlu kəndini atəşə tutması nəticəsində kəndin 3 sakini yaralanmış, 3 ev isə dağıdılmışdır[3].

**1992.05.20.**

Erməni silahlı birləşmələri Yenikənd və Qaraçinar istiqamətindən T-72 tanklarından, PDM-dən Şəfəq və Zeyvə kəndlərini atəşə tutmuşlar. Zeyvə kəndində bir neçə ev dağılmışdır[4].

**1992.08.28.**

Tapqaraqoyunlu kəndindən olan bir ailə Talış kəndi istiqamətində meşədə quldurlar tərəfindən güllələnmişdir. 7 nəfərdən 2 uşaq sağ qalıb. 2 kişi, 2 qadın və bir uşaq qətlə yetirilmişdir.

---

[1] ARMTN Arxivi, jurnal № 1 səh-3
[2] ARMTN Arxivi, jurnal № 30 səh-25
[3] ARMTN Arxivi, jurnal № 30 səh-89
[4] ARMTN Arxivi, jurnal № 2 səh-11

**1992.10.03.**

Keçmiş Şaumyan rayonunun Gürzələr və Erməni Borisi kəndləri arasındakı yolda "MAZ" markalı avtomaşın minaya düşmüş, 3 nəfər Goranboy sakini yaralanmışdır. Salıküt kənd sakinləri işə gedərkən erməni yaraqlıları tərəfindən atəşə tutulmuş, nəticədə 5 nəfər kənd sakini həlak olmuş, 7 nəfər yaralanmışdır.

**Füzuli**

**1992.04.02.**

Rayonun Arış, Qaradağlı, Cəmilli, Gövşadlı yaşayış məntəqələrinin atəşə tutulması nəticəsində 2 nəfər həlak olmuş, bir neçə ev isə dağıdılmışdır[1].

**13.04.1992**

Saat 05.00 radələrində erməni yaraqlıları Cəmilli və Qacar kəndini atəşə tutmuşlar. Cəmilli kəndini tamamilə yandırmışlar[2].

**1992.04.25.**

Hadrut rayonu istiqamətindən Füzuli şəhərinin toplardan atəşə tutulması nəticəsində iki ev yanmışdır. Bundan əlavə həmin gün Ağdam rayonunun Şotlanlı kəndinin atəşə tutulması nəticəsində bir ev dağıdılmış, 3 nəfər kənd sakini isə yaralanmışdır[3].

**1992.04.29.**

Şəhərin "Kristall" tipli raketlərdən atəşə tutulması nəticəsində 12 ev, bir gün sonra şəhərin yenidən atəşə tutulması nəticəsində isə daha 3 ev dağıdılmışdır[4].

**1992.05.05.**

Hadrut rayonunun Tuğ və Qarvin kəndləri istiqamətindən ermənilərin atəşə başlamaları nəticəsində rayonun Gövşadlı kəndinə düşmüş mərmilər 2 nəfərin qətlə yetirilməsi, 8 nəfərin isə yaralanmasına səbəb olmuşdur. 07.05.1992 tarixində rayonun Cuvarlı kəndinin atəşə tutulması nəticəsində isə 4 nəfər qətlə yetirilmiş, 3 nəfər isə yaralanmışdır.

**1992.06.25.**

Yuxarı Dilağarda və Cuvarlı kəndləri erməni yaraqlıları tərəfindən atəşə tutulmuşdur. Nəticədə 1 qadın həlak olmuş, 2 nəfər yaralanmışdır[5].

**1992.07.17.**

Qaradağlı, Qacar, Aybasanlı, Xatınbulaq kəndləri "Qrad" qurğularından atəşə tutulmuşdur. Füzuli şəhərində 4 ev dağıdılmışdır.

**1992.10.08.**

Gün ərzində ermənilərin şiddətli hücumları davam etmişdir. Ermənilər xüsusən Üryandağ, Xaçın yüksəklikləri, Qacar, Gövşadlı kəndləri istiqamətində

---

[1] ARMTN Arxivi, jurnal № 1 səh-28
[2] ARMTN Arxivi, jurnal № 1səh-46
[3] ARMTN Arxivi, jurnal № 1 səh-61
[4] ARMTN Arxivi, jurnal № 3 səh-22
[5] ARMTN Arxivi, jurnal № 3 səh-22

fəal olmuşlar. Nəticədə Milli Ordumuzun və dinc əhalinin arasında 30-a qədər ölən, 100-ə qədər yaralanan vardır[1].

**1992.10.28.**

Rayon mərkəzi şiddətli top atəşinə tutulmuşdur, şəhərdə bir ev dağıdılmış, bir nəfər həlak olmuşdur.

**1992.12.13.**

Rayon mərkəzinin toplardan atəşə tutulması nəticəsində bir neçə müəssisə, yaşayış binaları, o cümlədən PMK - 44 qəsəbəsinə ziyan dəymişdir.

**1993.04.01.**

Füzuli rayonunun Veysəlli kəndinə hücum edən erməni yaraqlıları evlərin bir qismini dağıtmış, bir qismini isə yandırmışlar. Bundan əlavə kənddə 24 nəfər ölmüş, 22 nəfər yaralanmışdır, ölənlərin 2-si uşaqdır.

**1993.03.09.**

Divanalılar kəndində 1 "KamAZ" markalı yük maşını və təcili yardım maşını minaya düşmüş, nəticədə 2 nəfər ölmüş, 2 nəfər yaralanmışdır[2].

**1993.04.26.**

Əsir düşmüş Azərbaycan vətəndaşı, Aşağı Veysəlli kənd sakini Babayev Eldar Şahverdi oğlu geri qaytarılarkən qeyd etmişdir ki, ermənilərin Kəlbəcərin işğalı zaman əsir götürdükləri 200-ə yaxın qadın və uşaq Xankəndi türməsində saxlanılır, bundan əlavə 300-ə qədər kişi də Şuşada dözülməz şəraitdə saxlanılır[3].

**1993.06.17.**

Edilli kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 1 nəfər isə yaralanmışdır.

**1993.07.02.**

Erməni yaraqlıları rayonun Gorazlı, Günəşli, Qaradağlı kəndlərinə daxil olaraq həmin yaşayış məntəqələrini talamış və yandırmışlar. Erməni yaraqlıları həmçinin ələ keçirdikləri yüksəkliklərdən bütün gün ərzində mülki əhalinin yaşadığı məntəqələri atəşə tutmuşlar, nəticədə 8 nəfər ölmüş, 2 nəfər isə yaralanmışdır[4].

**1993.08.23**

Erməni hərbi birləşmələri Azərbaycan Respublikasının Füzuli rayonunu zəbt etmişlər. Nəticədə yüz əlli minə qədər həmvətənimiz zorla öz yerlərini tərk etmək məcburiyyətində qalmışdır.

**1993.08.27.**

12 erməni tankı Aşağı Əbdürrəhmanlı kəndindən Şükürbəyli kəndinə doğru atəş açа-açа hərəkət edir.

**1993.10.22.**

---

[1] ARMTN Arxivi, jurnal № 1 səh-35
[2] ARMTN Arxivi, jurnal № 8 səh-33
[3] ARMTN Arxivi, jurnal № 9 səh-9
[4] ARMTN Arxivi, jurnal № 11 səh-37

Böyük Mərcanlı kəndinin ermənilər tərəfindən “Qrad” qurğularından atəşə tutulması nəticəsində 1 ev yanmış, 2 nəfər həlak olmuş, 7 nəfər yaralanmışdır[1].

**1993.10.24**

Erməni terror və quldur birləşmələri Horadiz qəsəbəsini işğal etmişlər.

**1993.12.24**

Dekabrın 24-də Əhmədbəyli və Bala Bəhmənli kəndlərinin erməni yaraqlıları tərəfindən “Qrad” atəşinə tutulması nəticəsində 2 ev yanmışdır.

**1994.01.05.**

Azərbaycan Respublikasının hərbi qüvvələri tərəfindən azad edilmiş ərazilərdə güllələnmiş azərbaycanlı əsirlərə rast gəlinmişdir.

**1994.03.21.**

Milli Ordumuzun əsgərilərilə yaxınlarının görüşü zaman həmin əraziyə mərmi atılması nəticəsində 3 nəfər həlak olmuşdur.

**1994.04.18.**

Erməni yaraqlılarının Böyük Bəhmənli kəndini raket atəşinə tutması nəticəsində 4 ev dağıdılmış, 3 nəfər mülki şəxs yaralanmışdır[2].

**1994.10.20**

Əldə olunmuş məlumatlara görə, erməni quldurları rayonun işğal altında saxladıqları yaşayış məntəqələrində kütləvi şəkildə soyğunçuluq, talançılıq və yanğın əməlləri ilə məşğuldurlar.

**Cəbrayıl**

**1992.06.28.**

Cəbrayıl rayon mərkəzi ermənilər tərəfindən ağır toplardan və “Qrad” tipli raketlərdən atəşə tutulub. Nəticədə 6 nəfər həlak olub. Rayonda çoxlu dağıntılar vardır.

**1992.06.29.**

Şəhərə 8 ədəd “Qrad” tipli mərmi düşüb. 16 nəfər yaralanmış, 3 ev dağıdılmışdır.

**1992.07.01.**

Şəhər mərkəzi Sur və Şaqax istiqamətlərindən atəşə tutulmuşdur. 1 nəfər həlak olmuş, 3-4 ev isə dağıdılmışdır.

**1993.07.02.**

Rayonun Qışlaq, Süleymanlı, Qaracallı kəndləri artilleriya qurğularından atəşə tutulmuşdur. Nəticədə 5 nəfər həlak olmuş, 10 nəfər isə yaralanmışdır.[3]

**1992.07.03.**

Rayonun mərkəzi Süleymanlı və Qışlaq kəndləri istiqamətindən atəşə tutulmuşdur. 5 nəfər həlak olmuş, 10 nəfər isə yaralanmışdır.

---

[1] ARMTN Arxivi, jurnal №14 səh-11

[2] ARMTN Arxivi, jurnal № 14 səh-31

[3] ARMTN Arxivi, jurnal № 11 səh-36

**1993.07.03.**

Səhər saatlarından başlayaraq rayonun mərkəzi “Qrad” qurğularından şiddətli şəkildə atəşə tutulmuşdur. 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmış, uşaq bağçası və bir neçə şəxsi ev yanmışdır.[1]

**1993.08.18.**

Ermənilər tərəfindən bütün istiqamətlərdən, malik olduqları hər növ silah və insan ehtiyatlarından istifadə olunmaqla hücum başlamışdır. Daşkəsən kəndi yandırılmışdır. Girov götürülən, ölənlər və yaralananlar vardır.

**1993.08.25**

Erməni quldur dəstələri Azərbaycan Respublikasının Cəbrayıl rayonunu işğal etmişlər və altmış minə qədər azərbaycanlı zor gücünə daimi yaşayış yerlərindən qovulmuşdur.

**1993.08.26.**

Şullu, Köhnə Şullu, Dağtumas kəndləri ermənilər tərəfindən atəşə tutulmuş, kəndlərin maddi əmlakına ciddi ziyan dəymişdir.

**1993.08.30.**

Ayın 23-dən 28-nə qədər ermənilər tərəfindən aşağıdakı şəxslər girov götürülmüşdür:

1. Rüstəmov Üzeyir Əşrəf oğlu
2. Mehdiyev İlqar Ərşad oğlu
3. Şükürov Şükür Yaşar oğlu
4. Verdiyev Cəlal Sultan oğlu
5. Məmmədov Azər Zabit oğlu
6. Məhərrəmov Nazim Cəmşid oğlu
7. Şirəliyev Yusif Oruc oğlu

**1992.08.31.**

Saat 19-dan başlayaraq rayon mərkəzi, Daşkəsən və Süleymanlı kəndləri top atəşinə tutulub. Daşkəsən kəndində ölən və yaralananlar var.

**1993.09.02.**

Ermənistan Silahlı Qüvvələri Bakı-Culfa şose yolunun kənarında yerləşən Sarıcallı və Gavdad kəndlərinə hücum etmişlər. İlkin məlumata görə, 10 nəfər həlak olmuş, 50 nəfər yaralanmışdır. Ermənilər mülki əhaliyə qarşı kimyəvi silah işlətmişlər.

**Tərtər**

**1993.07.12.**

Erməni yaraqlıları minomyot mərmiləri vasitəsilə rayon mərkəzini atəşə tutmuşlar, nəticədə 2 nəfər həlak olmuşdur.

**1993.12.24.**

[1] ARMTN Arxivi, jurnal № 7 səh-38

Dekabrın 24-də gün ərzində bir neçə dəfə Tərtər şəhəri erməni yaraqlıları tərəfindən mərmi atəşinə məruz qalmışdır. Nəticədə 1 nəfər azyaşlı uşaq olmaqla 2 nəfər həlak olmuş, 12 nəfər yaralanmışdır.

**1994.04.14.**

Erməni yaraqlılarının şəhər mərkəzini artilleriya atəşinə tutması nəticəsində 4 uşaq yaralanmışdır. 13 aprel tarixində ermənilər tərəfindən rayon ərazisinə 7 mərmi atılmış, 4 nəfər yaralanmış, dağıntılar olmuşdur.[1]

**1994.04.22.**

Şəhərin mərkəzi mərmi atəşinə tutulmuş, 2 qadın və 1 uşaq yaralanmışdır[2].

**Ağdərə**

**1992.03.12.**

Erməni yaraqlıları Ağdərə rayonun Daş Güneypəyə, Sırxavənd, Xatınbəyli və Malıbəyli kəndləri istiqamətində intensiv hücuma keçmişlər. 17 nəfər həlak olmuş, 20 nəfər yaralanmış, 3 nəfər itkin düşmüşdür. Nəticədə Azərbaycanın Qaragilə, Bəşirli, Xatınbəyli, Orta Güneypəyə kəndlərinin sakinləri yaşayış yerlərini tərk etməyə məcbur olmuşlar. Bu kəndlərdə 7000 həmvətənimiz yaşayırdı.

**1992.04.14.**

Ağdərə rayonunun Yeni Qaralar kəndi həmin rayonun Sırxavənd yaşayış məntəqəsində möhkəmlənmiş eməni yaraqlılarının daimi hücumlarına məruz qalır. Axşam saat 10.00 radələrində ermənilərin girov saxladıqları azərbaycanlı qızları və qadınlarının danışdırılmaları ratsiya vasitəsilə izlənilmişdir.

**1992.05.12.**

Ağdərə rayonun Mərgüşəvan kəndi istiqamətindən atəş nəticəsində və RDİŞ-nə, həmçinin Bərdə istiqamətində atılan “Kristall” tipli raketlər nəticəsində 2 ev dağıdılmış, 6 nəfər isə həlak olmuşdur[3].Ermənilər tərəfindən “Qrad” qurğularından 3-4 mərmi atılmış, 1 ev dağıdılmış, 1 nəfər yaralanmışdır.

**1992.06.11.**

11.06.1992-ci il tarixdə Ağdərə rayonunun Vanklu kəndi ərazisindən Nariştar kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak, 1nəfər isə yaralanmışdır. İyunun 16-da ermənilərin Vardenis rayonu istiqamətindən Kəlbəcər rayonunun Söyüdlü kəndinə hücuma keçməsi nəticəsində 2 nəfər özünümüdafiə qüvvələrinin əsgəri həlak olmuşdur[4].

**1993.06.28.**

Erməni quldur dəstələri Azərbaycan Respublikasının Ağdərə şəhərini zəbt etmişlər. Dinc sakinlər arasında xeyli sayda ölən və yaralanan var.

---

[1] ARMTN Arxivi, jurnal №19 səh-42
[2] ARMTN Arxivi, jurnal №19 səh-58
[3] ARMTN Arxivi, jurnal № 30 səh-90
[4] ARMTN Arxivi, jurnal № 30, cild № 2 səh-4

**Beyləqan**
**1993.12.16.**

Ermənilər Beyləqan şəhərinə "Qrad" qurğularından 40 mərmi atmışlar. Şəhərdə ciddi dağıntılar var, 7 nəfər həlak olmuş, 8 nəfər isə yaralanmışdır.

**Ağcabədi**
**1994.04.13.**

Ağcabədi rayonunun Hindarxı kəndi ermənilər tərəfindən artilleriya atəşinə tutulmuş, nəticədə bir nəfər mülki şəxs həlak olmuşdur[1].

## II Fəsil: Azəbaycanın həmsərhəd rayonlarında erməni işğalçılarının törətdikləri cinayətlər

Dövlətlər arasında baş verən müharibələrdə adətən hərbi əməliyyatların daha fəal surətdə cərəyan etdiyi və müvafiq olaraq da bu müharibələr nəticəsində ən çox maddi və insani itkiyə məruz qalan ərazilər həmsərhəd bölgələr olur. Bu mənada Ermənistan dövləti tərəfindən Azərbaycan Respublikasına qarşı elan olunmamış müharibənin ağırlığını ilkin olaraq məhz Azərbaycanın həmsərhəd rayonlarının hiss etməsi təsadüfi deyildir. Belə ki, Ermənistan tərəfindən dövlətimizə qarşı aparılan işğalçı müharibənin aktiv fazasının 1992-1993-cü illərə təsadüf etməsinə baxmayaraq, həmsərhəd rayonlarımız artıq 1988-ci ildən bu təcavüzü və onun fəsadlarını müxtəlif formalarda hiss etməyə başlamışdılar. Azərbaycan Respublikasının Ermənistanla həmsərhəd rayonlarında erməni yaraqlıları tərəfindən törədilən cinayətlərin ümumi cəhətlərindən biri də ilkin mərhələdə onun quldurluq və soyğunçuluq xarakterinə malik olmasındadır. İlkin mərhələdə məhz quldurluq, soyğunçuluq kimi vasitələrə üstünlük verilməsində əsas məqsəd bir tərəfdən bu növ cinayətlərin sərhəd bölgələrində məskunlaşmış azərbaycanlılar arasında qorxu, inamsızlıq, təşviş əhval-ruhiyyəsinin bərqərar olunması idisə, digər tərəfdən irimiqyaslı hərbi əməliyyatlarla müqayisədə daha az xərc tələb etməsi və yerli erməni əhalisinin məhdud imkanları hesabına reallaşmasının mümkünlüyündə idi. Bu müstəvidə, qeyd olunması zəruri əhəmiyyət kəsb edən məqam ondan ibarətdir ki, müvaviq cinayət aksiyaları həcmcə nisbətən kiçik miqyaslı kimi səciyyələndirilsə də, xarakteri və məzmununa görə ümumilikdə erməni cinayətkarlığına xas olan başlıca xüsusiyyətləri özündə əks etdirir.

Ermənistanın Azərbaycana 1988-ci ildən başlayan təcavüzü Azərbaycanın həmsərhəd rayonlarında çoxsaylı insan qırğınlarına rəvac vermiş, kütləvi dağıntılar törətmişdir. Ermənistanın bu mərhələdəki işğalçılıq niyyətinin əsas məqsədlərindən biri Dağlıq Qarabağı Ermənistanla quru yolla birləşdirmək üçün Azərbaycan ərazisindən dəhliz açmaq olmuşdur. Bu məqsədə nail olmaq üçün Ermənistanın

[1] ARMTN Arxivi, jurnal №19 səh-41

Vardenis rayonundan Kəlbəcərə, Gorus rayonundan Laçına, Qafan istiqamətindən Zəngilan, Cəbrayıl və Qubadlı rayonlarına mütəmadi hücumlar təşkil olunmuşdur. Azərbaycan ordusunu bir neçə cəbhədə eyni vaxtda vuruşmağa vadar etmək və əhali arasında vahimə yaratmaq niyyəti ilə erməni qəsbkarları Ermənistanın Tauş, Noyemberyan, İcevan rayonlarından Azərbaycanın qərb rayonlarına və Naxçıvanla həmsərhəd rayonlardan bu ərazilərə hücumlar etmişlər. Aşağıdakı məlumatlar Ermənistanın işğalçılıq niyyəti ilə həyata keçirdiyi hücumlar nəticəsində törədilmiş qanlı cinayətlərin, erməni vəhşiliklərinin ümumi xronikasını əks etdirir.

Erməni cinayətkarlarının 1992-1994-cü illərdə müharbənin aktiv fazasının gedişində Ermənistan Respublikası ilə həmsərhəd rayonlarımızın ərazisində yaşayan dinc azərbaycanlı əhaliyə qarşı törətdiyi cinayətlərdən bəzi məqamlar:

**Laçın**

**1992.05.11.**

Ermənilər tərəfindən hücumların intensivləşdirilməsi nəticəsində çoxlu sayda insan itkisi və dağıntılar mövcuddur. 30 nəfər həlak olmuş və 40 yaralanmış şəxs Laçın şəhərinə gətirilmişdir. Öz növbəsində 08.09.05.1992-ci il tarixlərində Laçın şəhərinin intensiv şəkildə atəşə tutulması nəticəsində 20-yə qədər ev dağıdılmış, 127 nəfər isə qətlə yetirilmişdir. Laçın şəhərinin növbəti dəfə 11.05.1992-ci il tarixində atəşə tutulması 14 nəfər həmyerlimizin həlak olması ilə nəticələnmişdir[1].

**1992.05.18.**

Erməni yaraqlıları Laçın rayonunu işğal etmişlər. Dinc əhali arasında xeyli sayda ölən və yaralananlar vardır. Rayonun altmış mindən çox sakini öz yaşayış yerlərindən didərgin salınmışlar.

**Kəlbəcər**

**1992.04.08.**

Rayonun Ağdaban kəndi erməni yaraqlıları tərəfindən tamamilə işğal olunmuşdur. Kənddəki bütün evlər yandırılmış, uşaq və qadınlar əsir götürülmüş, yerdə qalan sakinlər isə qətlə yetirilmişdir.[2]

**1992.10.16.**

Ağdərə rayonunun Həsənirs kəndində itkin düşmüş Kəlbəcər rayon sakini 1939-cu il təvəllüdlü Ələsgərov Vaqif Süleyman oğlunun yeri müəyyənləşdirilmişdir. O, Ermənistan Respublikasının Vardenis şəhərində girov qismində saxlanılır.[3]

**1992.10.22.**

---

[1] ARMTN Arxivi, jurnal №30 səh-82-84
[2] ARMTN Arxivi, jurnal № 5 səh-63
[3] ARMTN Arxivi, jurnal №7 səh-74

Tərtər - Kəlbəcər yolunda hərəkət edən maşın karvanı hücuma məruz qalmış və nəticədə 6-ya qədər maşın məhv edilmişdir. Kəlbəcər DİŞ-nin müstəntiqi də ölənlər arasındadır.

**1993.27.01.**

Tərtər-Kəlbəcər istiqamətində hərəkət edən QAZ-69 markalı maşının atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuşdur.

**1993.04.03**

Azərbaycan Respublikasının Kəlbəcər rayonu erməni yaraqlıları tərəfindən işğal edilmişdir. Nəticədə altmış minə qədər insan öz yaşayış yerlərindən didərgin düşmüşdür. 511 nəfər qətlə yetirilmiş, 321 nəfər isə itkin düşmüş və əsir götürülmüşdür.

**Qubadlı**

**1992.07.01.**

Rayonun mərkəzi Qafan rayonu istiqamətindən toplardan və digər iriçaplı silahlardan atəşə tutulmuşdur. Nəticədə 2 ev dağıdılmış, 2 nəfər həlak olmuş, bir neçə nəfər yaralanmışdır. Həmin gün Qubadlı şəhəri yenidən eyni istiqamətdən atəşə tutulmuşdur. 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmış, 10 ev isə dağıdılmışdır.

**1992.08.08.**

Rayon mərkəzinin "Qrad" qurğularından atəşə tutulması nəticəsində 1 körpə uşaq və 19 yaşlı qız həlak olmuş, 6 nəfər isə yaralanmışdır.

**1992.08.27.**

İşğal olunmuş Laçın rayonu istiqamətindən Muradxanlı kəndinin atəşə tutulması nəticəsində iki nəfər xəsarət alıb.

**1992.09.26.**

Saat 15.00 radələrində Qafan rayonu tərəfindən "Qrad" tipli mərmilərdən açılan atəş nəticəsində Qubadlı rayonunun Tarovlu kəndində 2 ev yanmışdır.

**1992.09.30.**

Rayon məkəzinin "Qrad" tipli mərmilərdən atəşə tutulması nəticəsində 5 nəfər şəhər sakini yaralanmışdır.

**1992.10.09.**

Rayonun Muradxanlı kəndinə 3 mərminin düşməsi 3 evin dağılmasına səbəb olmuşdur.[1]

**1992.10.11.**

Rayonun Muradxanlı kəndinin "Qrad" və toplardan atəşə tutulması nəticəsində 1 nəfər yaralanmışdır[2].

**1992.11.25.**

---

[1] ARMTN Arxivi, jurnal №4 səh-73

[2] ARMTN Arxivi, jurnal №5 səh-51

Noğullu kəndi ətrafında atışma nəticəsində tərəfimizdən 2 nəfər həlak olmuşdur.

**1992.12.24.**

Rayonun Göyyam kəndinin atəşə tutulması nəticəsində 3 ev dağıdılmış, 2 nəfər isə yaralanmışdır.

**1993.07.23.**

Səhər saatlarından başlayaraq rayonun mərkəzi və kəndləri toplardan, müxtəlif artilleriya qurğularından atəşə tutulmağa başlamışdır. Dağıntılar var, taxıl zəmiləri yandırılmışdır.

**1993.08.18.**

Ermənistan Respublikasının Qafan rayonu ərazisindən Qubadlı rayon mərkəzi top və "Qrad" qurğularından şiddətli atəşə məruz qalmış, 1 nəfər yaralanmış, 2 ev isə dağıdılmışdır.

**1993.08.31.**

Erməni hərbi qüvvələri Azərbaycan Respublikasının Qubadlı rayonunu işğal etmişlər. Otuz mindən çox dinc sakin öz yaşayış məskənlərini məcburiyyət qarşısında tərk etməli olmuşdur.

**1993.09.01.**

Rayonu işğal etmiş erməni quldurları soyğunçuluq və talançılıqla məşğul olmuşlar.

**Zəngilan**

**1992.04.25.**

Qafan rayonu istiqamətindən Qazançı, Seyidlər, Ağkənd, Canbar, Gilqışlaq, Kirveys, Dərəli, Sarıkənd, Kollu Qışlaq kəndlərinin atəşə tutulması nəticəsində sadalanan yaşayış məntəqələrində dağıntılar olmuşdur.

**1992.05.14.**

Rayonun Mehri ilə həmsərhəd bölgələrində Vəcnəli kənd sakinləri - kənd məktəbinin müəllimi və şagirdi əsir götürülmüşdür.

**1992.05.20.**

Milli Ordu qüvvələri üçün çörək daşıyan "UAZ" avtomobili atəşə tutulmuş, 2 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır. May ayının 23-də rayonun Ağkənd yaşayış məntəqəsinin atəşə tutulması nəticəsində 4 nəfər həlak olmuşdur, onlardan ikisi yerli sakin, 1 nəfər DİN xüsusi alayının, 1 nəfər isə Milli Ordunun əsgəridir.

**1992.07.17.**

Rayonun Seyidlər, Şərikan kəndləri və Şayıflı qəsəbəsi atəşə tutulmuşdur. Şayıflı qəsəbəsinin iki sakini qəlpə yarası almışdır.[1]

**1992.08.31.**

---

[1] ARMTN Arxivi, jurnal №4 səh-5

Avqustun 30-da rayonun Qazançı kəndinin ermənilər tərəfindən atəşə tutulması nəticəsində rayonun hərbi komendantı və Milli Ordunun bir döyüşçüsü yaralanmış, bir polis əməkdaşı şəhid olmuşdur.

**1992.09.17.**

Qafan və Mehri rayonu istiqamətindən Zəngilan rayonunun bütün sərhədyanı kəndləri atəşə tutulmuşdur. 2 nəfər əsgərimiz həlak olmuş, beş nəfər isə yaralanmışdır.

**1992.09.29.**

Rayonun Şərikan və Seyidlər kəndləri Qafan rayonu ərazisindən iriçaplı pulemyotlar və toplardan atəşə tutulmuşdur. Şərikan kəndində dağıntılar vardır[1].

**1992.09.30.**

Saat 17.30-da Qafan rayonu ərazisindən Kollu qışlaq kəndi atəşə tutulmuşdur. Nəticədə həmin kəndin sakinlərindən bir qadın həlak olmuş, iki nəfər ağır yaralanmışdır.

**1992.10.01.**

Zəngilan rayonunun Ermənistanla sərhəddə yerləşən Saralı Xəşdab kəndinin 2 nəfər sakini və bir neçə baş mal-qara Qafan rayonunun Hərək və Ağavurd kəndlərində olan döyüşçülər tərəfindən girov götürülmüşdür.

**1992.10.03.**

Rayonun Kollu Qışlaq, Rəzdərə, Seyidlər, Qazançı və Ağkənd kəndləri Qafan rayonu ərazisindən atəşə tutulmuş, nəticədə bir neçə ev, yaşayış binası, kənd məktəbi dağıdılmışdır.

**1992.12.12.**

Rayonun Pirveyisli, Qazançı, Dərəli, Günqışlaq kəndləri istiqamətlərində döyüşlər davam edir. Rayon mərkəzi mütəmadi olaraq "Qrad" tipli qurğulardan atəşə tutulur. Məlumatlara görə, 12 nəfər həlak olmuş, 40 nəfərə yaxın yaralanmış, 30 nəfərin taleyi isə məlum deyildir.[2]

**1992.12.26.**

Ermənistanın Qafan rayonu istiqamətindən Kollu Qışlaq kəndinin avtomat və pulemyotlardan atəşə tutulması nəticəsində 1 nəfər yaralanmışdır.

**1993.01.17.**

Kollu Qışlaq kəndinin atəşə tutulması nəticəsində 1 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**1993.10.30.**

Erməni silahlı birləşmələri Azərbaycan Respublikasının Zəngilan rayonunu zəbt etmişlər. Nəticədə otuz mindən çox həmyerlimiz öz yaşayış yerlərini tərk etməyə məcbur olmuşdur.

**Qazax rayonu**

---

[1] ARMTN Arxivi, jurnal №5 səh-9

[2] ARMTN Arxivi, jurnal № 7 səh-13

Ermənilərin Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunda, eləcə də Ermənistanla həmsərhəd rayonlarda azərbaycanlılara qarşı törətdikləri cinayətlər, vandalizm aktları barəsində məlumatların toplanılması istiqamətində keçirilən tədbirlərlə əlaqədar Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 1990-cı il martın 24-də Qazax rayonunun Bağanis-Ayrım kəndində 7 nəfər azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsi ilə əlaqədar Qazax rayon Prokurorluğu tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 67-ci maddəsinin 3-cü hissəsi və 70-ci maddəsi ilə qaldırılmış 11709 saylı cinayət işi təhlil edilmişdir.

Cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, müxtəlif vaxtlarda bir-birinə yaxın ərazilərdə eyni tipli odlu silahlarla, azərbaycanlılara qarşı erməni quldur dəstələri tərəfindən buna oxşar qətl hadisələri törədildiyi üçün qaldırılmış 10 cinayət işinin istintaqının 11709 saylı iş çərçivəsində davam etdirilməsi qərara alınmışdır.

Beşinci epizod:

İşin beşinci cildinin təhlili zamanı məlum olmuşdur ki, SSRİ Daxili İşlər Nazirliyinin (DİN) Baş Cinayət Axtarış İdarəsinin baş əməliyyat müvəkkili milis podpolkovniki A.M.Kuş 1990-cı il aprelin1-i tarixində Azərbaycan Respublikası daxili işiər nazirinin müavini polkovnik R.X.Məmmədova raportla müraciət etmişdir.

O, raportda göstərmişdir ki, 1990-cı il martın 24-də saat 14-00-da ona və V.V.Qusarova daxil olmuş məlumata görə, Ermənistanın Bağanis kəndi ərazisində dislokasiya olunmuş (Kirovakandakı 15-ci diviziya) 343 saylı alayın hərbçiləri 2 ədəd əldə düzəldilmiş minaatan döyüş sursatı və 30 ədəd mina olan 11 nəfər ermənini saxlamışlar.

Raportda əlavə olaraq qeyd olunmuşdur ki, faktla əlaqədar toplanmış (müəyyənedici və digər) materiallar 343 saylı alay üzrə xüsusi şöbənin əməkdaşına, baş leytenant rütbəli zabitə (soyadını yadda saxlamamışdır) verilmişdir. Sonra o, həmin zabitdən materialların istintaq qrupuna verilməsini xahiş etmişdir.

Bir müddət sonra A.M.Kuş və Qusarov Bağanis kəndinə qayıdarkən məlum olmuşdur ki, Noyemberyan RDİŞ-də saxlanılmış ermənilər azad edilmişdir. Xüsusi şöbənin əməkdaşı isə ermənilərdən götürülmüş döyüş sursatlarını hərbi hissənin zabitləri arasında paylamışdır.

Cinayət işində döyüş sursatının ballistik ekspertizasından əlavə digər, xüsusən ermənilər barədə müəyyənedici məlumatlar aşkar edilmişdir.

Altıncı epizod:

İşin 5-ci cildinin təhlili zamanı məlum olmuşdur ki, 1990-cı il martın 16-da "Tbilisi-Yerevan" sərnişin qatarı ilə Ermənistana keçərkən, sərhəddə erməni quldurları sərnişinlərin şəxsiyyətini yoxlayarkən Bakı şəhər sakini, azəbaycanlı Sarıyev Afət Cəlil oğlu saxlanılmışdır.

A.Cəlilov 1990-cı ilin mart ayının 16-dan aprel ayının 5-dək Ermənistan Respublikasının Alaverdi qəsəbəsi yaxınlığında yerləşmiş quldurların qərargahında saxlanılmış, mütəmadi olaraq onlar tərəfindən döyülmüş və işgəncələrə məruz qalmışdır.

1990-cı il aprel ayının 5-də A.Sarıyev Yerevan şəhərinə aparılmış və orada "Erməni Ümumilli Hərəkatının" rəhbərləri ilə görüşmüşdür.

1990-cı il aprelin 13-də A.Sarıyev hərbçilərin köməyi ilə Bakı şəhərinə gətirilmişdir. 1990-cı il aprelin 23-də göstərilənlərlə əlaqədar Azərbaycan Respublikası CM-nin 130-cu maddəsinin 1-ci hissəsi ilə A.Sarıyev barəsində 18/35115 saylı cinayət işi başlanmışdır.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Mərkəzi Ünvanlar Bürosunun qeydiyyatları üzrə yoxlama nəticəsində məlum olmuşdur ki, A.Sarıyev 1947-ci ildə Bakı şəhərində anadan olmuş, milliyətcə azərbaycanlıdır, 1981-ci ildən Səbayıl rayonu Şeyx Şamil küçəsi ev №3, mənzil 12 ünvanında qeydiyyatdadır.

1990-cı il yanvarın 2-də Səbayıl Rayon Daxili İşlər İdarəsi tərəfindən A.Sarıyevə XXIV-JQ seriyalı, 644789 №-li pasport verilmişdir.

Yeddinci epizod:

11709 saylı cinayət işinin 4-cü cildində, 11712 saylı cinayət işinin başlanması haqqında, Azərbaycan Respublikası Prokurorluğunun İstintaq İdarəsi rəisinin 1-ci müavini, kiçik ədliyyə müşaviri R.Ə.Əliyev tərəfindən 1990-cı il martın 30-da tərtib edilmiş qərar müəyyən edilmişdir. Qərarda göstərilmişdir ki, 1990-cı il martın 29-da saat 20 radələrində SSRİ DİN-nin Qoşunlarının hərbi əməliyyatlar qrupunun rəisi, podpolkovnik Naqirniy Vasiliy Vasilyeviç, SSRİ DİN-nin Baş Cinayət Axtarış idarəsinin baş əməliyyat müvəkkili Qusarov Valeri Viktoroviç, bölük komandiri, kapitan Kosteneviç Vladimir, SSRİ DİN-nin baş əməliyyat müvəkkili, milis baş leytenantı Lixaçov Valeri və sürücü, 5455 nömrəli hərbi hissənin yefreytor Veşkortsev Viktordan ibarət əməliyyat-istintaq qrupu erməni quldurları tərəfindən odlu silahlarla atəşə tutulmuşlar.

Belə ki, göstərilən əməliyyat-istintaq qrupunun üzvləri həmin tarixdə, regionda ictimai asayişin mühafizəsi üzrə xidməti vəzifələrini yerinə yetirdikdən sonra, 02-45 QAZ dövlət nömrə nişanlı, "UAZ-469" markalı maşınla Qazax şəhərinə gələrkən rayonun Məzəm və Abbasbəyli kəndlərinin arasında, Coğaz çayı üzərindəki bəndin yaxınlığında, erməni quldurları onları qəsdən qətlə yetirmək məqsədi ilə şose yoluna daşlar düzərək avtomaşını dayandırmağa çalışmışlar.

Lakin sürücü V.Veşkortsev avtomaşını sürətlə sürərək çətinliklə həmin ərazini keçə bilmişdir. Bunu görən erməni quldurları avtomat və ov silahları ilə maşını atəşə tutmuş və nəticədə maşının bir neçə hissəsində güllə yerləri açılmış, lakin xəsarət alan olmamışdır.

Göstərilənlərlə əlaqədar, Azərbaycan Respublikası CM-nin 15, 94-cü maddəsinin 3-cü və 4-cü bəndləri və 191-1-ci maddəsi ilə cinayət işi başlanmışdır.

İşdə 1990-cı il martın 30-da SSRİ DİN Daxili Qoşunlarının hərbi əməliyyat qrupunun rəisi, podpolkovnik V.V.Naqirniy tərəfindən Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini polkovnik R.X.Məmmədova və SSRİ Baş Cinayət-Axtarış idarəsinin baş əməliyyat müvəkkili milis podpolkovniki V.V.Qusarovun idarənin rəisi polkovnik A.A.Pleşkova yazdığı raport müəyyən edilmişdir. Həmin raportlarda göstərilmişdir ki, 1990-cı il martın 29-da üzərində xüsusi fərqlənmə nişanı - "Milis" yazısı olan "UAZ-469" markalı maşınla gedərkən Məzəm və Abbasbəyli kəndləri arasında əməliyyat-istintaq qrupunun üzvləri naməlum şəxslər tərəfindən pusquya salınmış və odlu silahlardan atəşə tutulmuşlar.

SSRİ Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının rəis müavini general-mayor Kasalapovun qərarı ilə cinayətkarların axtarılması və tutulması məqsədi ilə əməliyyat-istintaq qrupu 2 PDM-in müşayiəti ilə həmin əraziyə getmişlər. Ermənistan ərazisində olan hadisə yerinin müayinəsi zamanı su anbarının yanında əməliyyat-istintaq qrupu 12 nəfər silahlı erməniləri tutmuşlar. Həmin ermənilərdən dörd nəfəri Ermənistan Respublikası Dilican şəhər milis şöbəsinin əməkdaşları olmuşlar. Ermənilərdən 6 ədəd əldə düzəldilmiş əl qumbarası, 4 ədəd (D 20516, D 20262, D 20936) təklüləli ov tüfəngi, 18 ədəd 16 kalibr, 32 ədəd 12 kalibr, 2 ədəd 7,62 kalibr (karabin üçün), 1 ədəd AK-74 silahının 5,45 kalibrli gülləri, 2 ədəd 26 kalibrli siqnal raketinin gülləri aşkar edilərək götürülmüşdür.

Bir neçə dəqiqə sonra isə hadisə yerinə İcevan RDİŞ-nin rəisi gəlmiş və razılıq əsasında saxlanılmış ermənilər ona təhvil verilmiş və onlardan götürülmüş odlu silah, partlayıcı maddələr və digər döyüş sursatları Qazax RDİŞ-nə gətirilmişdir.

İstintaqın gedişində 1947-ci il təvəllüdlü, Ukrayna Respublikası, İvanovo-Frankovsk vilayəti, Tlumaç şəhər sakini, milliyyətcə ukraynalı, sərhəd qoşunları məktəbini bitirmiş, Tbilisi şəhərindəki 3405 hərbi hissədə əməliyyat bölməsinin rəisi vəzifəsində işləyən podpolkovnik Naqirnıy Vasiliy Vasilyeviç, 1947-ci il təvəllüdlü, Moskva şəhər sakini, milliyyətcə rus, 1976-cı ildə SSRİ DİN-in ali məktəbini bitirmiş, SSRİ DİN-nin Baş QAİ-nin baş əməliyyat müvəkkili podpolkovnik Qusarov Valeriy Viktoroviç, 1963-ci il təvəllüdlü, Ukrayna Respublikası Voroşilovqrad vilayəti, Krasnodon şəhər DİŞ-də baş əməliyyat müvəkkili vəzifəsində işləyən Lixaçov Valeriy Anatoliyeviç, 1969-cu il təvəllüdlü, Sverdiovsk vilayətinin Kamensk-Uralsk şəhər sakini, orta ixtisas təhsilli, Tbilisi şəhərində dislokasiya olunmuş 5455 saylı hərbi hissənin sürücüsü, Beşkursev Viktor Vladimiroviç, 1962-ci il təvəllüdlü, Belarusiya Respublikası Bobruysk şəhər sakini, SSRİ DİN-nin ali siyasi məktəbini bitirmiş, Tbilisi şəhərində dislokasiya olunmuş 3219 saylı hərbi hissənin xüsusi təyinatlı bölüyünün (rotasının) komandiri, kapitan Kosteneviç Vladimir Nikolayeviç yuxarıda göstərilən ifadələri vermişlər.

1990-cı il iyunun 10-u tarixində istintaq qrupunun rəhbəri S.A.Solopon Ermənistan Respublikası İcevan RDİŞ-ni rəisinin ünvanına sorğu göndərmişdir. O, həmin sorğuda göstərmişdir ki, silah və döyüş sursatları hərbçilər tərəfindən saxlanılmış və sonradan İcevan RDİŞ-nin xahişinə əsasən sonuncuya təhvil verilmiş 12 nəfər erməni barəsində tam müəyyənedici məlumatların Qazax rayon Prokurorluğuna göndərilməsini xahiş etmişdir.

1990-cı iyunun 18-də Ermənistan Respublikası İcevan şəhər DİŞ-nin rəisi milis podpolkovniki İ.S.Əmirxanyan istintaq qrupunun rəhbəri S.A.Soloponun ünvanına göndərdiyi sorğuya cavabda aşağıdakıları göstərmişdir:

-1936-cı il təvəllüdlü Kazaryan Şamir Vasilyeviç, İcevan rayonu Qetaovit kənd sakini, İcevan şəhər DİŞ-nin sahə müvəkkili;

-1967-ci il təvəllüdlü, Dilijan şəhər DİŞ-nin əməkdaşı, Dilijan şəhəri Qaya küçəsi 84/28 ünvanda yaşayan Nazaryan Anatoli Abdulkərimoviç;

-Dilican şəhər DİŞ-in əməkdaşı, İcevan rayonu Açacur kənd sakini Xaçaturyan Radik (atasının adı göstərilmir);

-Dilican şəhər DİŞ-in əməkdaşı, İcevan rayonu Handzəkar kənd sakini Meliksetyan Aşot (atasının adı göstərilmir);

-İcevan rayonu Berkaber kənd sovetinin sədri, İcevan rayonu Sariqyux kənd sakini Ellaryan Aram (atasının adı göstərilmir);

-1938-ci il təvəllüdlü, Berkaber sovxozunun direktoru, Berkaber kənd sakini Muradyan Manvel Əzizoviç;

-1949-cu il təvəllüdlü, Berkaber sovxozunun baş aqronomu, Berkaber kənd sakini Arutunyan Edik Jorayeviç;

-1956-cı il təvəllüdlü, Berkaber sovxozunun mühəndisi, Berkaber kənd sakini Arzumanyan Paşik Norayroviç;

-1952-ci il təvəllüdlü, su anbarının hərbiləşdirilmiş mühafizə dəstəsinin rəisi, Berkaber kənd sakini Arutunyan Qadik Jorayeviç;

-1967-ci il təvəllüdlü, HMD-nın atıcısı, Berkaber kənd sakini Yeşayan Qarik Qarnikoviç;

-1966-cı il təvəllüdlü, HMD-nın atıcısı, Berkaber kənd sakini Dilbaryan Areq Kolyayeviç;

İcevan RDİŞ-in rəisi sorğuya cavabda on ikinci erməni barəsində məlumat verməmişdir.

İşin təhlili zamanı götürülmüş 4 ədəd ov tüfəngi; 7, 62; 5, 45; 16 və 32 kalibrli güllələr və əldə düzəldilmiş 6 ədəd qumbaranın ballistik ekspertizası keçirilərək onlar barədə aşağıdakı rəy verilmişdir:

Ov tüfəngləri və əl qumbaraları döyüşə tam yararlıdır. Əl qumbaralarının yoxlanışı zamanı qəlpələrin 100 metr radiusdan artıq məsafəyə hərəkət etdiyi müəyyən edilmişdir.

Voskepar kəndi istiqamətindən hərəkət edən, kabinası yaşıl rəngli olan, 24-34 dövlət nömrə nişanlı "QAZ-66" markalı maşın qara pencəkli şəxsdən 30-40

metr aralı məsafədə dayanmışdır. N.Həsənov həmin maşının Voskepar kənd sakini Armen adlı ermənıyə məxsus olduğunu tanımışdır. Maşından Armenin qardaşı, əlində odlu silah olan Aro adı ilə çağırılan Ararat adlı erməni düşmüş və qara pencəkli şəxsə atəş açmışdır. Nəticədə həmin şəxs yerə yıxılmışdır.

Bundan sonra "QAZ-53" markalı maşının, adını bilmədiyi sürücüsü və İlyas adlı erməni odlu silahla vurulmuş qara və boz pencəkli şəxsləri maşının kuzasına tullayaraq ferma istiqamətinə getmişlər. N. Həsənov əlindəki durbinlə 200-300 metr məsafədə yerləşən hadisə yerinə baxdığı üçün İlyası və Ararat adlı ermənini asanlıqla tanıya bilmişdir.

Müstəntiqin, siz Voskepar kənd sakinləri Araratı və ilyas adlı erməniləri nə vaxtdan və haradan tanıyırsınız sualına? cavab olaraq N.Həsənov bildirmişdir ki, qonşu kəndlərdə yaşadıqları üçün on ildən artıq müddətdir ki, onları tanıyır. O, Araratın təxminən 23-25, İlyasın isə 47- 48 yaşı olduğunu qeyd etmişdir.

1990-cı il martın 3-də 1962-ci il təvəllüdlü, Qazax rayonu Aşağı Əskipara kənd sakini Əsgərov Kəsəmən Məhəmmədəli oğlu şahidi dindirmə protokolunda göstərmişdir: 1990-cı il martın 3-də o, kənd sakinləri Etibar Hüseynov, Nemət Həsənov, Füzuli Qafarov və digər şəxslər kəndin kənarındakı mühafizə postunda dayanarkən "QAZ-24" və "VAZ-2103" markalı maşınlar Aşağı Əskipara istiqamətində hərəkət etmişlər. "Voskepar" sovxozuna məxsus fermaya təxminən 50-60 metr qalmış oradan 15-30 nəfər silahlı erməni quldurları onları odlu silahdan atəşə tutmuşlar. "Volqa" maşını atəşdən sonra dərhal geri dönərək sürətlə hərəkət etməyə başlamışdır. "Jiquli" maşını isə "Volqa" döndüyü yerdə dayanmış, onun içərisindəki qara və boz pencəkli şəxslər düşərək K.Əsgərovun və digər kənd sakinlərini dayandıqları posta tərəf qaçmağa başlamışlar. Həmin vaxt fermadan təzə öz yükünü boşaldan "QAZ-53" markalı maşın sürətlə onların arxasınca getmişdir. Maşının kuzasında olan İlyas avtomat silahı ilə atəş açaraq boz pencəkli şəxsi qətlə yetirmişdir.

K.Əsgərovun verdiyi ifadəyə görə, onların dayandığı yerdən hadisənin törədildiyi əraziyə təxminən 300-400 metr məsafə olardı. Buna görə o, və N.Həsənov mülki geyimli şəxsi tanıya bildiklərini demişdir. İkinci, qara pencəkli şəxs isə hadisə yerindən təxminən 20-40 metr məsafədə olmuşdur. Həmin anda onun qarşısını "QAZ-66" maşınla kəsən və sürücü tərəfdən düşən, yaxşı tanıdığı Voskepar kənd sakini, "erməni milli ordusu" adlanan quldur dəstəsinin hərbi formasında olmuş Ararat odlu silahla ikinci şəxsi qətlə yetirmişdir. İkinci şəxs qətlə yetirildikdən sonra təxminən 5-10 nəfər erməni qulduru "VAZ-2103" markalı maşını itələyərək fermaya aparmışlar.

1935-ci il təvəllüdlü, Qazax rayonu Çaylı kənd sakini Abdiyev Paşa Məmmədkərim oğlu şahidi dindirmə protokolunda göstərmişdir ki, 1990-cı il martın 24-də Bağanis-Ayrım kəndində ermənilər tərəfindən törədilmiş qəti hadisələri ilə əlaqədar sakinlərə müəyyən kömək göstərmək məqsədilə həmin tarixdə saat 12-13 radələrində qardaşına məxsus E 61-31 AQ markalı "QAZ-24"

markalı maşına kənd istiqamətində hərəkət etmişdir. Voskepar kənd fermasının yaxınlığından keçərkən təxminən 50-60 metr məsafədə, yolda üzü ona tərəf dayanmış göy rəngli "QAZ-53" markalı maşının arxasından hərbi formalı, odlu silahlı 2-3 nəfər erməni qarşısına çıxaraq atəş açmışlar. Atəş nəticəsində maşın 3 yerdən deşilmiş və P. Abdiyev çətinliklə Aşağı Əskipara istiqamətində maşını sürərək ermənilərin əlindən qurtara bilmişdir.

1960-cı il təvəllüdlü, Aşağı Əskipara kənd sakinləri Hüseynov Etibar Qəmbər oğlu, 1962- ci il təvəllüdlü, Qazax rayonu Çaylı kənd sakini, Bakı şəhəri, Kooperativ küçəsi 29 saylı ünvanda yaşayan Carçıyeva Mehriban Təyyar qızı, 1935-ci il təvəllüdlü, Qazax rayonu Çaylı kənd sakini Saniyeva Nigar Sadıq qızı, 1925- ci il təvəllüdlü, Qazax rayonu Çaylı kənd sakini Saniyev Şəmsəddin Qasım oğlu, 1956-ci il təvəllüdlü, Qazax rayonu Yuxarı Göyçəli kənd sakini, Qazax Rayon Daxili İşlər şöbəsinin əməkdaşı Abbasov Şəmsi Fərzalı oğlu, 1955-ci ildə Gədəbəy rayonunda anadan olmuş, Ağstafa şəhər sakini, Qazax Rayon Daxili İşlər şöbəsinin sahə müvəkkili Sadıqov Elxan İsa oğlu, 1954-cü ildə Tovuz rayonunda anadan olmuş, Ağstafa şəhər sakini, Qazax RDİŞ-nin sahə müvəkkili Əhmədov Akif Qəzənfər oğlu, 1958-ci ildə Qazax rayonu Köçvəlli kəndində anadan olmuş, Qazax rayon sakini, Rayon Daxili İşlər Şöbəsinin əməkdaşı Quliyev Tahir Qoca oğlu, 1950-ci ildə Cəbrayıl rayonunda anadan olmuş, Qazax RDİŞ-də Dövlət Avtomobil Müfəttişliyi bölməsinin rəisi Hüseynov Cəbrayıl Qurban oğlu, 1959-cu ildə Tovuz rayonu Alagöl kəndində anadan olmuş, Qazax Rayon Daxili İşlər Şöbəsinin baş əməliyyat müvəkkili vəzifəsində işləyən İbrahimov Məhərrəm Ənvər oğlu, 1953-cü il təvəllüdlü, Ağstafa polis bölməsinin sahə müvəkkili Sadıqov Elxan İsa oğlu, 1954-cü ildə Tovuz rayonunda anadan olmuş, 1966- cı il təvəllüdlü, Qazax rayonu Çaylı kənd sakini Əmrazov Qorxmaz Əziz oğlu da şahidi dindirmə protokolunda yuxarıda göstərilən məqamları təsdiq etmişlər.

Şahid ifadələri əsasında 1990-cı il martın 28-də saat 11.20-dən 15.40 dəqiqəyədək Azərbaycan Respublikası Prokurorluğunun mühüm işlər üzrə müstəntiqi R.Əliyev tərəfindən 17.02.1968-ci il tarixdə, Ermənistan Respublikası Noyemberyan rayonu Voskepar kəndində anadan olmuş, milliyyətcə erməni, üzərində AVL seriyalı, 363084 saylı sürücülük vəsiqəsi olan Gevorkyan Ararat Lipartoviç şübhəli şəxs qismində dindirilmişdir.

A.Gevorkyan dindirmə zamanı müstəntiqin sualına əsasən özü və ailə üzvləri barəsində danışaraq bildirmişdir ki, onlar 3 bacı və üç qardaşdırlar. 28-29 yaşlarında olan böyük qardaşı Armen "Voskepar" sovxozunda yaşıl rəngli, kuzası lentlə bağlı "QAZ-66" markalı, 24-34 dövlət nömrə nişanlı maşını idarə edir. Onlar atası Lipar, anası Sarıgül və böyük qardaşının ailəsi ilə birlikdə Voskepar kəndində bir evdə yaşayırlar.

Müstəntiqin, Əsgərov Kəsəmən və Həsənov Nemət qətiyyətlə bildirirlər ki, 1990-cı il martın 24-də siz avtomat silahı ilə azərbaycanlılardan birini qətlə yetirmisiniz, bu barədə nə deyə bilərsiz sualına? cavab olaraq A.Gevorkyan həmin

tarixdə guya əlinə avtomat almadığını və Voskepar kəndində olduğunu bildirmişdir. O, ümumiyyətlə həmkəndlilərindən həmin tarixdə əlində avtomat silahı olanları görmədiyini demişdir. Bundan sonra müstəntiq, həmin tarixdə saat 15.45-dən 18.05-dək N.Həsənovla A. Qevorkyanı üzləşdirmişdir.

N.Həsənov, siz qarşınızda əyləşən vətəndaş Gevorkyanı tanıyırsınızmı sualına? cavab olaraq bildirmişdir ki, o, A. Qevorkyanı Ermənistan Respublikası Noyemberyan rayonu Voskepar kənd sakini kimi 10 ildən çox müddətdir ki tanıyır. Belə ki, o uşaqlıqda A.Qevorkyanla birlikdə Çoxaz çayında dəfələrlə çimmişlər. A.Qevorkyan isə onun çayda çimməsinə baxmayaraq N. Həsənovu tanımadığını bildirmişdir.

N.Həsənov üzləşmə zamanı 1990-cı martın 24-də A.Qevorkyanın qardaşı Armenin idarə etdiyi "QAZ-66" markalı maşınla hadisə yerinə gələrək azərbaycanlılardan birini avtomat silahla qətlə yetirdiyini demişdir.

Azərbaycan Respublikası Baş Prokurorluğundan daxil olmuş bir neçə cinayət işinin materialları, o cümlədən 1990-cı il martın 24-də erməni quldur dəstələri tərəfindən Qazax rayonu Bağanis-Ayrım kəndində 7 nəfər azərbaycanlının vəhşicəsinə qətlə yetirilməsi ilə əlaqədar Qazax rayon Prokurorluğu tərəfindən Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 67-ci maddəsinin 3-cü hissəsi və 70-ci maddəsi ilə qaldırılmış 11709 saylı cinayət işi tərəfimizdən təhlil edilmişdir.

İşin təhlili zamanı məlum olmuşdur ki, 1990-cı il martın 24-də saat 7-8 radələrində Ermənistan ərazisindən odlu silahlarla təchiz olunmuş üç erməni quldur dəstəsi Qazax rayonu Bağanis-Ayrım kəndinə müxtəlif istiqamətlərdən qəflətən basqın edərək kənd sakinləri 1915-ci il təvəllüdlü Əsliyev Dədəkişi Bayram oğlunu və onun ailə üzvləri - 1923-ci il təvəllüdlü Əsliyeva Pakizə Qulu qızını, 1959-cu il təvəllüdlü Əsgərova Havaxanım Dədəş qızını, 1963-cü il təvəllüdlü Adıgözəlova Alya Dədəş qızını, 1990-cı ilin fevral ayında anadan olmuş Adıgözəlov Hafiz Ramiz oğlunu, onların həmkəndlisi, 1942-ci il təvəllüdlü Məhərrəmov Alməmməd Gülməmməd oğlunu və xidməti vəzifəsini həyata keçirən 1965-ci il təvəllüdlü, polis əməkdaşı Məmmədov Məcid Oqtay oğlunu odlu silahlarla qəsdən qətlə yetirmiş, Adıgözəlov Mülkədar İsrafil oğlunu və polis əməkdaşı Əhmədov Zirəddin Musa oğlunu isə odlu silahlarla yaralamışlar.

Bundan əlavə erməni quldurları kənd sakinləri Adıgözəlov Bəxtiyar Ələmdar oğlunun, Adıgözəlov Ədalət Səfər oğlunun, Məhərrəmov Səməd Gülməmməd oğlu, Piriyeva Məleykə Seyid qızının, Qafarov Təşkilat Mahmud oğlunun, Quliyev Cavanşir Məhəmməd oğlunun və Əsliyev Bayram Mehralı oğlunun evlərini talan etdikdən sonra yandırmışlar.

Cinayət işinin təhlili zamanı məlum olmuşdur ki, 1990-cı il martın 25-də Qazax rayon Prokurorluğunun qərarı ilə məhkəmə-tibb ekspertizası şöbəsinin müdiri K. Şəmmədov erməni quldurları tərəfindən qətlə yetirilmiş Bağanis-Ayrım kənd sakinlərinin meyitlərinin tibbi ekspertizasını keçirmişdir. D.B. Əsliyevin tibbi

ekspertizası nəticəsində məlum olmuşdur ki, həmin şəxsin sol qulağı kəsilib götürülmüş, odlu silahla qətlə yetirildikdən sonra yandırılmışdır.

H.D.Əsgərovanın müayinəsi zamanı məlum olmuşdur ki, başından odlu silahla qətlə yetirilmiş, sol qulaq seyvanı ətraf yumşaq toxuması ilə birlikdə kəsilib atılmışdır. Eyni zamanda onun alnında və sol yanağında sıyrıqlar aşkar edilmişdir. Göstərilən xəsarətlər küt alətlə törədilmiş, sonra yandırılmışdır. Daxili orqanlarında 3-4-cü dərəcəli və kömürlənmiş yanıqlar aşkar edilmişdir.

A.D. Adıgözəlovanın müayinəsi zamanı məlum olmuşdur ki, o, odlu silahla qətlə yetirilmiş, bədən səthinin yumşaq toxmalarının 95 faizi və sümükləri də kömürləşmiş, 3-4-cü dərəcəli yanıqlar aşkar edilmişdir. Göstərilən yanıqlar A.D. Adıgözəlovanın ölümündən sonra törədilmişdir.

P.Q. Əsliyevanın müayinəsi zamanı məlum olmuşdur ki, o, odlu silahla qətlə yetirilmiş, sağ qulaq seyvanı ətraf yumşaq toxuması ilə birlikdə kəsilib atılmışdır. Göstərilən xəsarət kəsici-deşici alətin təsirindən törədilmişdir. P.Əsliyevanın bədən səthinin yumşaq toxumalarında olan yanıqlar ölümündən sonra əmələ gəlmişdir.

1990-cı ilin fevral ayında anadan olmuş, qırx günlük Adıgözəlov Hafiz Ramiz oğlunun müayinəsi zamanı məlum olmuşdur ki, odlu silahla başından aldığı xəsarətlər nəticəsində (beyin maddəsi dağılmış vəziyyətdə) vəfat etmişdir. Bədənində olan yanıqlar olümündən sonra törədilmişdir.

İşin təhlili zamanı məlum olmuşdur ki, aşağıda göstərilən Bağanis Ayrım kənd sakinləri şahid qismində dindirilmişlər:

1954-cü il təvəllüdlü, Qazax rayonu Bağanis-Ayrım kənd sakini Əsgərov Fərmuz Xanluma oğlu şahidi dindirmə protokolunda göstərmişdir ki, 1990-cı il martın 23-də səhər saat 6-00 radələrində avtomat və karabin silahları ilə silahlanmış təxminən 150-200 nəfərdən ibarət erməni quldur dəstələri müxtəlif istiqamətlərdən kəndə hücum etmişlər. Onların ardınca kəndə yaşıl rəngdə "Ural" markalı benzin daşıyan maşın, "Qaz-66" markalı və iki təcili yardım maşını gəlmişdi. Maşınlar dayandıqdan sonra ermənilər vedrə ilə "Ural" markalı maşından benzin daşıyaraq Adıgözəlov Ələddinin, Məhərrəmov Səmədin, Məhərrəmov Əliməmmədin və Əsliyev Dədəkişinin evlərini yandırmışlar.

O, Əsliyev Dədəkişinin evinə yaxınlaşdıqdan sonra evin bütövlükdə yandığını, sonra isə tövlədə Havaxanımın, Dədəkişinin, Pakizənin, Alyanın və onun iki aylıq körpəsinin yanmış meyitlərini tapmışdır. Erməni quldurları eyni zamanda sakinlərin çıxması üçün müqavimət göstərmiş polis əməkdaşını odlu silahla qətlə yetirmişlər. F.Əsgərov bildirmişdir ki, 1990-cı il mart ayının 3-ü tarixində Bağanis-Ayrım kəndinə hücum etmiş Ermənistan Respublikası Noyemberyan rayonunun sakinləri Ağabəyi, Yegişi, Quzunun oğlunu, Davidun oğlu Hoviki, Xoşkotan kəndindən Vovikin qardaşı Sofiki və Emil adlı ermənini tanımışdır.

Yegişin 40-42 yaşı olar, dülgərdir. Ağabəyin 50-52 yaşı olar, gözətçidir. Vovikin qardaşı Sofikin ağ rəngli "QAZ-24" markalı maşını vardır. Emilin isə 40 yaşı olar, o, sovxoz direktoru olmuşdur. Karabin odlu silahları ilə silahlanmış göstərilən erməni quldurları kənd sakinlərini qətlə yetirmiş, evlərini talan etmiş və yandırmışlar.

1947-ci il təvəllüdlü, Bağanis-Ayrım kənd sakini Əsgərov Cəlal İsaxan oğlu şahidi dinidirmə protokolunda göstərmişdir ki, 1990-cı il mart ayının 24-də kəndə silahlı basqın edən erməni quldurları arasında qonşu kənddə yaşayan Ağabəyin, Beqlaryan Vanikin, Davidin oğlunun, Xoşkotanlı kənd sakini Jovikin, Cücəvəli kənd sakini həkim Revikin Bağanis-Ayrım kəndindəki evləri talan etdiklərinin və yandırıldıqlarının şahidi olmuşdur. Eyni zamanda, erməni quldurları kənd sakinlərini atəşə tutarkən onlarla gəlmiş erməni qadınları maşınlardan vedrə ilə benzin daşıyıb evlərə tökmüş və yandırmışlar. Basqın zamanı kəndə "QAZ-53", "Kamaz", "Zil-131" markalı maşınlar gətirilmişdir. Həmin maşınlar arasında yalnız "KamAZ" markalı maşının dövlət nömrə (14-61 ADF) nişanı olmuşdur.

1961-ci il təvəllüdlü, Bağanis-Ayrım kənd sakini Daşdəmirov Bəşir Həsrət oğlu şahidi dindirmə protokolunda bildirmişdir ki, 1990-cı il mart ayının 24-də səhər saatlarında kamuflyaj geyinmiş erməni quldurları Ermənistan ərazisindən kəndə basqın etmiş, evləri yandırmış, 5 nəfər kənd sakinini qətlə yetirmişlər.

B.Daşdəmirovun məlumatına görə, basqın edən quldurların arasında o, qonşu kənddə yaşayan Yegişi, Ağabəyi, Davidin oğlu Hoviki, Mişanı, Xoşkotan kəndindən Voviki tanımışdır. Belə ki, basqın zamanı əvvəlcə silahlı erməni quldurları atəş aça-aça kəndə daxil olmuş, onların arxasınca isə "MAZ" və "Ural" markalı benzin daşıyan maşınlar hərəkət etmişdir. Ağabəy adlı erməninin başçılığı ilə bir neçə quldur vedrələri benzinlə dolduraraq evləri yandırmaqla məşğul olmuşlar. Yandırma işini həyata keçirmiş ermənilər arasında qadın da olmuşdur.

B.Daşdəmirov ailəsini götürüb kəndin yaxınlığındakı təpənin arxasında gizlənərkən, erməni quldurlarının kənd sakini Alməmməd Məhərrəmovu ot tayasına ataraq yandırmalarının və odun ətrafında əl çalaraq şənlik etdiklərinin şahidi olmuşdur. Ertəsi gün kənd sakinləri ot tayasının yerində Alməmməd Məhərrəmovun sümüklərini aşkar etmişlər.

1950-ci il təvəllüdlü Məmliyeva Qaratel Dadaş qızı şahidi dindirmə protokolunda göstərmişdir ki, 1990-cı il mart ayının 24-də Bağanis və Xoşkotan kənd sakinlərindən olan erməni quldurları Qazax rayonunun Bağanis-Ayrım kəndinə basqın etmişlər.

Q.Məmliyeva həmin quldurlar arasında Bağanis kənd sakinləri-dülgər Yegişi, rəssam Hoviki, gözətçi Ağabəyi, briqadir Mişanı, onun qardaşı Vahanı, Xoşkatan kənd sakinləri Voviki, Rantiki, toyuq fermasında işləyən Vazgeni və Suriki tanımışdır. Rantik isə Noyemberyan rayonunda mühasib vəzifəsində işləmişdir.

Q.Məmliyeva göstərilən ermənilləri yaxından tanıdığını bildirmişdir. Belə ki, onun sözlərinə gorə, 1988-ci ilin məlum hadisələrinədək Bağanis-Ayrım kənd sakinləri, o cümlədən onun atası qonşu kənddə yaşayan ermənilərlə mehriban münasibətlərdə olmuşlar. Bununla əlaqədar, göstərilən ermənilər bir neçə dəfə atasının qonağı olduqlarına görə, Q. Məmliyeva onların sifətlərini tanımışdır. 1988-ci il hadisələri başlayandan sonra ermənilərlə münasibətlər pisləşmiş və əlaqələr kəsilmişdir. Q.Məmliyeva bildirmişdir ki, erməni quldurlarının kənd sakinlərinə məxsus evlərin yandırılmasında iki qadın iştirak etmişdir.

1950-ci il təvəllüdlü, Məhərrəmova Ofeliya Şəmsi qızı şahidi dindirmə protokolunda göstərmişdir ki, 1990-cı il martın 24-də səhər saat 7 radələrində güllə səslərinə yuxudan ayılmışlar. Güllələrin bir neçəsi pəncərənin şüşəsini sındıraraq evə düşmüşdür. Bir neçə dəqiqə sonra onun qaynı Səməd və həyat yoldaşı Gülşən də onların evinə gəlmiş və bildirmişlər ki, ermənilər kəndi mühasirəyə alaraq sakinləri odlu silahlardan atəşə tuturlar. Sonra O.Məhərrəmova, həyat yoldaşı Alməmməd Məhərrəmov, oğlu Vüqar, qaynı Səməd, onun həyat yoldaşı Gülşən çarpayının altında gizlənmişlər. Bir neçə dəqiqədən sonra ermənilər evə daxil olmuşlar. O.Məhərrəmova və A. Məhərrəmov onların içərsində qonşu kənddə, Bağanisdə yaşayan Allahverdinin oğlu Yeqişi, onun həyat yoldaşı Feniki və rəngsaz işləyən Hoviki, Ağabəyin qızı Aqniki tanımışdılar. Ermənilər paltar dolabında qırmızı şala bükülüb gizlədilmiş 18 min rublluq dövlət istiqraz vərəqələrini, 500 rubl nəğd pulu, 1000 rubl dəyərində bir ədəd boyunbağı və qızıl zənciri, 3000 rubl dəyərində brilyant qaşlı digər zinət əşyalarını götürmüşlər.

Erməni quldurları əşyaları götürdükdən sonra otaqda olan yorğan-döşəyə od vuraraq evi tərk etmiş və 50-100 metr məsafədə olan Dədəşin, sonra Bəxtiyarın və Ədalətin evlərini yandırmışlar. Bundan sonra O.Məhərrəmova və evdə gizlənmiş digər ailə üzvləri çarpayının altından cıxmış və ermənilərin həyətdən uzaqlaşdığını görüb alovu söndürdükdən sonra, sürünə-sürünə mal-qara saxlanılan tövləyə getmişlər.

O.Məhərrəmova təxminən beş dəqiqə sonra tövlənin qapısından baxarkən ermənilərin yenidən onların evinə qayıtdığını görmüşdür. O.Məhərrəmova bunu mənzilin yanmaması ilə əlaqələndirmişdir. Erməni quldurları evə daxil olduqdan sonra çoxsaylı atəş səslərini eşitmiş və güman etmişdir ki, onlar həyat yoldaşı A.Məhərrəmovu qətlə yetirmişlər. Ermənilər evdən çıxaraq evi, sonra isə evin arxasındakı ot tayasını yandırmış və ətrafında rəqs etməyə başlamışlar. Bu zaman O.Məhərrəmova erməni quldurları arasında Xoşkotan kənd sakinləri Mardonu, onun qardaşı Ardonu, qonşu Bağanis kəndində yaşayan Ağabəyi, Yeqişi, poçtalyon Azmikin oğlunu, sürücü Seryojanı və briqadir Mişanı tanımışdır. O.Məhərrəmovanın məlumatına görə, həmin ermənilər avtomat silahları ilə silahlanmışlar. Onun sözlərinə görə, erməni quldurları 25-30 nəfərdən ibarət bir neçə silahlı dəstələrlə kəndə basqın etmişlər.

Eyni zamanda O.Məhərrəmova bildirmişdir ki, Ağnikin atası Ağabəyi qonşu Bağanis kəndində sovxoz bağının və torpaq sahələrinin gözətçisi kimi tanıyır. O, 1-2 il bundan əvvələdək kəndə tez-tez gəlib-getmiş, sakinlərdən su, çay istəmişdir. Onun qızı Ağnik isə qonşu Bağanis kəndindəki quşçuluq fermasında işləmiş və dəfələrlə onların evinə çay, bel və s. əşyalar üçün gəlmişdir. Ağnik ailəlidir, 24-26 yaşı olar. Həyat yoldaşı (adını və soyadını bilmir) mövsümi işlərlə əlaqədar Rusiyaya və başqa respublikalarla gedir. Ağnik alçaq boylu qadındır, saçları qaradır, ağbənizdir.

**Qazax**

**1992.03.14.**

Ermənilər tərəfindən rayonun Xeyrimli, Aşağı Əskipara, Məzəm, Quşçu Ayrım kəndləri "Qrad" qurğuları, pulemyotlar, tank və avtomat silahlardan intensiv atəşə tutulmuşdur. Silahlı qüvvələrimizin bir tankı və Xeyrimli kəndindən din əhlini çıxaran avtobus vurulmuşdur[1].

**1992.03.21.**

Rayonun Ermənistanla sərhədində baş verən atışma nəticəsində 4 azərbaycanlı həlak olmuş, 6 nəfəri isə yaralanmışdır[2].

**1992.04.23.**

Qazax rayonunun Cəfərli, Balacəfərli, Barxudarlı kəndlərinin Ermənistan istiqamətindən iriçaplı pulemyotlardan və toplardan atəşə tutulması nəticəsində müvafiq yaşayış məntəqlərindən dağıntılar baş vermişdir.[3]

**1992.05.10.**

Rayonun atəşə tutulması nəticəsində 6 nəfər yaralanmış, 2 ev isə dağıntılara məruz qalmışdır.

**1992.08.11**

Səhər saatlarından başlayaraq ermənilərin intensiv şəkildə atəşə başlaması nəticəsində rayonda 1 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır. Ağstafa rayonunun ərazisində yerləşən yaşayış məntəqələrində isə 5 nəfər yaralanmışdır, dağıntılar vardır.

**1992.10.24.**

Mərcan və Fərəhli kəndləri pulemyot, avtomat və ağır texnikadan atəşə tutulmuşdur. Bir nəfər baş nahiyəsindən ağır yaralanmışdır.

**1992.10.26.**

Rayonun Daş Salahlı, Kosalar, Əzizbəyli kəndləri, həmçinin Qazax şəhəri Ermənistanın İcevan rayonu istiqamətindən "Qrad" tipli qurğularından atəşə tutulmuşdur. Əzizbəyli kəndinin 4 nəfər sakini qəlpə yarası almışdır.

**1992.13.30.**

---

[1] ARMTN Arxivi, jurnal №1 səh-4

[2] ARMTN Arxivi, jurnal №1 səh-11

[3] ARMTN Arxivi, jurnal №1 səh-64

Döyüşlərin gedişi zamanı 33 nəfər itkin düşmüşdür.

**1992.12.07.**

Kəmərli, Mərzəli, Fərəhli, Qızıl Hacılı, Daş Salahlı kəndlərinin top atəşinə tutulması nəticəsində bir uşaq qətlə yetirilmiş, 4 nəfər yaralanmışdır.[1]

**1993.02.22.**

Rayonunun Dağkəsəmən kəndinə 8, rayon mərkəzinə 6 mərmi düşmüş, 1 nəfər qadın və 2 uşaq yaralanmışdır, dağıntılar var[2].

**1993.03.07.**

Qazax rayonunun Quşçu-Ayrım, Məzəm və Fərəhli kəndləri toplardan və digər odlu silahlardan atəşə tutulmuşdur. Məzəm kəndinin 1 sakini yaralanmışdır.

**1993.05.02.**

Rayon mərkəzinin "Qrad" qurğularından atəşə tutulması nəticəsində 1 nəfər ölmüş, bir neçə nəfər isə yaralanmışdır.

**1993.06.18.**

Erməni silahlı qüvvələrinin birləşmələri rayonunun Kəmərli kəndi yaxınlığında Daşbulaq deyilən yerdə mövqelərimizə hücum etmişlər, 1 nəfər kənd sakini yaralanmışdır.

**1993.09.15.**

Gecə saatlarında rayon mərkəzi Ermənistanın Noyemberyanlı rayonu istiqamətində fasiləsiz atəşə tutulmuşdur. 12 nəfər yaralanmış, 2 nəfər həlak olmuşdur.

**1993.10.26.**

Ermənistan istiqamətindən rayonunn Fərəhli kəndi avtomat və pulemyotlardan atəşə məruz qalmışdır. Nəticədə bir uşaq həlak olmuşdur.

**1993.12.25.**

Saat 11.30-dan başlayaraq Qazax şəhərinin mərkəzi, Ermənistanın İcevan rayonu istiqamətindən müxtəlif növ silahlardan müntəzəm atəşə tutulmuş, əhalinin sıx məskunlaşdığı ərazilərə 30-a qədər mərəmi düşmüşdür. 4 nəfər həlak olmuş, 11 nəfər yaralanmışdır.

**1993.12.29**

Ermənistanın İcevan rayonu istiqamətində şəhərin mərkəzi top və "Qrad" qurğularından atəşə tutulmuş, nəticədə mülk yaşayış binalarına, mərkəzi doğum evinə, qaçqınların məskunlaşdığı şəhərciyə ciddi ziyan dəymiş, 7 nəfər mülki şəxs həlak olmuş, 13 nəfər yaralanmışdır.

**1994.04.18.**

Balacəfərli kəndi ermənilər tərəfindən müxtəlif növ silahlardan atəşə tutulmuş, nəticədə bir nəfər mülki şəxs həlak olmuş, 1 nəfər yaralanmışdır.

**1993.03.26.**

---

[1] ARMTN Arxivi, jurnal № 7 səh-84
[2] ARMTN Arxivi, jurnal №7 səh-10

Saat 15:00 Ağstafa rayonu Köhnə Qışlaq kəndinin 6 nəfər sakini Ermənistan Respublikası İcevan rayonunun Çinar kəndi istiqamətindən gələn erməni yaraqlıları tərəfindən əsir götürülmüşdür.

**1992.07.21.**

Ermənistan istiqamətindən Ağköynək və Köhnə Qışlaq kəndlərinin atəşə tutulması nəticəsində 3 nəfər həlak olmuş, 2 nəfər yaralanmışdır. Bununla yanaşı, yaşayış məntəqələrinə ciddi maddi ziyan dəymişdir.

**1992.08.11.**

Ağstafa rayon mərkəzinin atəşə tutulması nəticəsində 5 nəfər yaralanmışdır.

**1993.02.22.**

Rayonun Ağköynək kəndinin atəşə tutulması nəticəsində ölənlər və yaralananlar olmuşdur.

**Tovuz**

Cinayət işinin ikinci cildinin təhlili zamanı, 1990-cı il mayın 14-də keçmiş SSRİ Prokurorluğunun İstintaq qrupunun rəhbəri S.A.Solopon tərəfindən cinayət işinin və həbsdəki şəxslərin saxlanılma müddətinin uzadılması bardə tərtib edilmiş qərar müəyyən edilmişdir. Həmin qərarda S.A.Solopon göstərmişdir ki, 19910-cı il martın 29-da, səhər Tovuz rayonuun Əlibəyli kənd ərazisindəki meşəlik ərazidə polis naryadı tərəfindən Ermənistan Respublikasının Şəmsəddil rayonunun Berd qəsəbəsi sakinləri - Qaleçyan Yervand Yeqoroviç, Babayan Liparid Mexatoviç, Xaçaturyan Samvel Arşakoviç və Aperyan Araik Saikisoviç saxlanılmış və onlardan yivli odlu silahlar, partlayıcı qurğular, əldə düzəldilmiş qumbaralar, kiçik kalibrili tüfənglər, "naqan" tapaçası və digər silahlar qüçün güllələr, döyüş sürsatları götürülümüşdür. Göstərilən şəxslər barəsində həbs qəti-imkan tədbiri seçilmişdir.

1990-cı il aprelin 3-də həmin ermənilər Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 220-ci maddəsi il müqəssir elan edilmiş və həbsdə saxlanılmaları barədə qərar qüvvədə qalmışdır. E.E.Qaleçyan, S.A.Xaçaturyan, A.S.Aperyan, L.M.Babayan öz günahlarını tam etiraf etmiş və bildirmişlər ki, onlara əldə düzəldilmiş qumbaraları, kiçik kalibrili tüfəngləri, partlayıcı qurğuları və digər döyüş sürsatlarını naməlum erməni "saqqallıları" vermişlər. Bundan sonra "saqqallılar" onlara sərhəddə yerləşən Tovuz rayonunun Əlibəyli kəndi ərazisində etmələrini tapşırmışlar. Onlara razılaşdırılmış əraziyə getdikdən sonra orada təlimat alacaqları bildirilmiş, lakin yolda polis naryadı tərəfindən həbs edilmişlər.

Eyni zamanda S.A.Solopon qərarda göstərmişdir ki, S.A.Xaçaturyan, A.S.Aperyan və A.M.Babayanın odlu silah və döyüş sursatları gəzdirmək haqqında müvafiq icazələri olmamışdır.

**1992.03.22.**

Tovuz rayonunun Əlibəyli kəndi Ermənistanın Tauş rayonunun Moşedbex və Nergindirminaxtyür kəndləri istiqamətindən atəşə tutulmuş və nəticədə dörd ev dağıdılmışdır[1].

**1992.04.06.**

Saat 14.50-də Ermənistan istiqamətindən Əlibəyli kəndi atəşə tutulmuşdur. Atışma saat 24.00-a qədər davam etmişdir. Nəticədə kənddə 9 ev dağıdılmış, 2 nəfər öldürülmüş, 12 nəfər isə yaralanmışdır.

**1992. 04. 16.**

Əlibəyli, Hacalı kəndləri ermənilər tərəfindən artilleriya atəşinə tutulmuş, 2 nəfər yaralanmışdır[2].

**1992.05.10.**

Bir nəfər Hacalı kənd sakini ermənilərin basdırdığı minaya düşərək yaralanmışdır. Bundan əlavə may ayının 12-də 2 nəfər Əlibəyli kənd sakini minaya düşərək yaralanmışdır[3].

**1992.06.25.**

Saat 5-6 radələrində Ağdaban, Muncuqlu və Qoşa kəndləri Ermənistanın Şəmşəddil rayonu istiqamətlərindən atəşə tutulmuş, 2 nəfər həlak olmuşdur.

**1992.23.07.**

Əlibəyii kəndinin Ermənistan istiqamətindən atəşə tutulması nəticəsində 14 yaşlı qız xəsarət almışdır.

**1992.08.03.**

Rayon mərkəzi, Əlibəyli, Ağdam kəndləri güclü artilleriya atəşinə tutulmuşdur. Nəticədə Yağ-pendir zavodu, Dəmiryolu Yardımçı Elektrik Stansiyası ərazisinə mərmilər düşmüşdür. Nəticədə 3 nəfər həlak olmuş, 10 nəfər yaralanmışdır.

**1992.08.05.**

Tovuz rayonunun Əlibəyli, Ağdam kəndləri "Qrad" qurğularından atəşə tutulmuş, nəticədə 2 nəfər həlak olmuşdur.

**1992.08.11.**

Tovuz rayonunun Əlibəyli, Ağdam, Vahidli, Yuxarı və Aşağı Öysüziü kəndləri və rayon mərkəzi atəşə tutulmuşdur. Nəticədə 20 ev dağılmış, 4 nəfər həlak olmuş, 17 nəfər yaralanmışdır.

**1992.08.12.**

Avqustun 11-də Tovuz rayonunun mərkəzi və sərhəd kəndlərinin atəşə tutulması nəticəsində 20 nəfər yaralanmışdır, onlardan 6 nəfəri həlak olmuş, 14 nəfəri isə xəstəxanada yerləşdirilmişdir.

**1992.09.21.**

---

[1] ARMTN Arxivi, jurnal №1 səh-62

[2] ARMTN Arxivi, jurnal №10 səh-20

[3] ARMTN Arxivi, jurnal №8 səh-21

Rayonun Hacalı və Əlibəyli kəndi istiqamətində atışmalar baş verib. Əlibəyli kəndində evə düşən mərmidən 10 yaşlı uşaq həlak olub.

**1993.01.06.**

Rayon mərkəzinin mərmilərdən atəşə tutulması nəticəsində 4 ev dağıdılmışdır. Bununla yanaşı, kəndlərdə 6 ev dağılıb, 2 nəfər isə yaralanmışdır[1].

**1993.01.09.**

Rayon mərkəzinin ağır artilleriya və "Qrad" qurğularından atəşə tutulması nəticəsində 8 ev dağıdılıb, 1 nəfər ölüb, 1 nəfər isə yaralanıb.

**1993.03.01.**

Rayonun Əlibəyli, Hacalı və Ağdam kəndləri və rayon mərkəzi müxtəlif növ silahlardan və "Qrad" qurğularından atəşə tutulmuş, nəticədə 2 mülki şəxs yaralanmışdır.

**1993.03.03.**

Əlibəyli, Hacalı və rayon mərkəzi toplardan, "Qrad" qurğularından intensiv atəşə tutulmuş, nəticədə 5 nəfər həlak olmuş, 4 nəfər isə ağır yaralanmışdır. Dağıntılar vardır.

**1993.03.05.**

Ağbulaq, Koxa Nəbi, Ağdam kəndlərinə müxtəlif növ silahlardan atəş açılmış, nəticədə Ağbulaq kəndinin 1 sakini yaralanmışdır.

**1993.03.14.**

Tovuz rayonunun Əlibəyli, Hacalı, Ağdam kəndiəri, rayon mərkəzi və ona bitişik bir neçə kənd müxtəlif növ silahlardan və "Qrad" qurğularından atəşə tutulmuş, nəticədə 3 nəfər dinc sakin yaralanmış, 15 ev dağıdılmışdır.

**1993.03.26.**

Rayonun Əlibəyli, Hacalı, Ağdam kəndləri, rayon mərkəzi atəşə tutulmuş, nəticədə 6 nəfər mülki şəxs yaraianmış, 18 ev dağıdılmışdır.

**1993.03.27.**

Əlibəyli, Əsrik Kürdəxanı, Ağdam kəndiəri ermənilər tərəfindən müxtəlif növ artilleriya qurğularından atəşə tutulmuş, nəticədə 5 ev dağıdılmışdır.

**1993. 06. 04.**

Ermənistanla həmsərhəd Əlibəyli, Hacalı, Ağdam kəndləri və rayon mərkəzi müxtəlif növ silahlardan intensiv olaraq atəşə tutulmuşdur. Nəticədə 4 nəfər öldürülmüş, 3 nəfər ağır yaralanmışdır.

**1993.08.05.**

Axşam saatlarından başlayaraq rayon mərkəzi, Ağdam, Hacalı, Əlibəyli, Yuxarı Öysüzlü, Vahidli kəndləri minomyotlardan, toplardan və "Qrad" qurğularından intensiv atəşə məruz qalmışdır. Mülki vətəndaşlar arasında 5 nəfər həlak olmuş, 4 nəfər isə yaralanmışdır.

**1993.08.13**

---

[1] AR MTN Arxivi, jurnal №10 səh-20

Gecə saatlarından etibarən rayon mərkəzi, Ağdam, Hacalı, Əlibəyli, Yuxarı Öysüzlü, Koxa Nəbi, Qazqulu kəndləri artilleriya qurğularından, “Qrad” və toplardan intensiv atəşə tutulmuşdur. Nəticədə mülki əhaiidən 4 nəfər həlak olmuş, 4 nəfər isə yaralanmışdır.

**1993.08.17.**

Axşam saatlarında Ağdam, Hacalı, Əlibəyli kəndləri avtomatlardan, iriçaplı pulemyotlardan, zirehli texnika və digər vasitələrdən aramsız atəşə məruz qalmışdır. Nəticədə Ağdam kəndində 1 mülki şəxs yaralanmış, bir neçə ev dağıdılmışdır[1].

**1993.10.21.**

Qələmçə deyilən yerdə “KamAZ” markalı avtomaşın minaya düşmüşdür. Nəticədə 1 nəfər mülki şəxs yaralanmışdır.

**1993.12.29.**

Saat 14-dən başlayaraq Tovuz rayonunun mərkəzi, Ermənistanla həmsərhəd olan bütün kəndiər müxtəlif növ silahlardan artilleriya və “Qrad” qurğularından atəşə tutulmuş, nəticədə rayonun infrastrukturuna xeyli ziyan dəymişdir.

**1994.01.11.**

Rayonun mərkəzinin Əlibəyli, Yuxarı Öysüzlü, Koxa Nəbi, Hacalı kəndlərinin atəşə tutulması nəticəsində 2 nəfər mülki şəxs ağır yaralanmış, 15 ev dağıdılmışdır.

**1994.10.27.**

Rayonun Koxa Nəbi və Ağbulaq kəndləri erməni silahlıları tərəfindən atəşə tutulmuş, nəticədə 1 nəfər kənd sakini yaralanmışdır.

**Gədəbəy**

**1992.08.03.**

Rayonun Novosaratovka, Düzrəsullu, Mərmər kəndlərinin Ermənistan Respublikasının Krasnoselsk rayonundan atəşə tutulması nəticəsində 3 ev dağıdılmış, 2 nəfər - qadın və uşaq həlak olmuşdur.

**1993.04.03.**

Rayonun Novoivanovka, Novosaratovka və Mormor, Arabaçı, Göyəli, Qaravəlilər kəndləri artilleriya və “Qrad” qurğularından aramsız atəşə tutulmuş, nəticədə 6 ev dağıdılmış, 1 nəfər mülki şəxs ölmüş, 4 nəfər yaralanmışdır.

**1993.06.27.**

Novoivanovka kəndi erməni quldurları tərəfindən şiddətli atəşə məruz qalmışdır. Kəndin 3 nəfər sakini girov götürülmüş, mülki əhalinin əmlakı talanmışdır[1].

**1993.07.23.**

---

[1] AR MTN Arxivi, jurnal №3 səh-11

Ermənilər Vardenis rayonu ərazisindən hücuma keçərək rayon əhalisinin əmlakını talamış və geri çəkilimişlər.

## III Fəsil: Erməni separatçıları tərəfindən törədilmiş terror aktlarının xronoloji ardıcıllığı

Bu fəsildə əks olunmuş faktlar beynəlxalq terrorizmin tərkib hissəsi olan erməni terrorizminin XX əsrin yalnız son onilliklərində törətdiyi terror aktlarının xronoloji mənzərəsini əhatə edir. Həmin faktlar yalnız Ermənistan-Azərbaycan münaqişəsinin cərəyan etdiyi zaman və məkanla məhdudlaşmır. Xronologiya tarixi proseslərin öyrənilməsi metodu kimi konkret halda erməni terrorunun dərin köklərə malik olduğunu, Azərbaycan xalqının dünyada son dövrlərdə aktuallaşmış olan terrorizm probleminin hədəfinə artıq çoxdan çevrildiyini əyani surətdə sübuta yetirir. Erməni terrorunun hədəfləri müxtəlifdir - dinc əhali, dövlət xadimləri, nəqliyyat vasitələri və sairə. Lakin erməni terroru forma müxtəlifliyinə rəğmən mahiyyət etibarilə terrorizm anlayışına xas bütün dəhşətləri özündə ehtiva edir.

Erməni terrorunun xronologiyası nəzərdən keçirilərkən belə qənaətə gəlmək olar ki, ermənilər üçün müharibə elə əslində terror ilə eyniləşdirə bilər, azərbaycanlılarla açıq döyüşə girməkdən çəkinən erməni qəsbkarları özünə inamsızlığın, hərb mədəniyyətindən məhrumluğun göstəricisi olaraq terroru çirkin məqsədlərinin təmin olunması naminə başlıca vasitə seçmişlər. Təsadüfi deyil ki, erməni terrorunun obyektləri sırasında nəqliyyat vasitələrində törədilmiş terror aktlarının çoxluğu diqqəti cəlb edir. Bu amil dinc əhali arasında vahimə və qorxu yaratmağa, itkilərin sayını artırmağa hesablanıb.

Milli Təhlükəsizlik Nazirliyi əməkdaşlarının gərgin zəhməti nəticəsində meydana gəlmiş xronologiya konkret cinayət faktlarına toxunmaqla, əslində hər bir cinayətin arxasında gizlənən ağrı-acıları, sarsıntıları bir daha yaşamağa və təhlil etməyə yardımçı ola bilər. Xronologiya erməni terrorunun nəticələri ilə dünyada baş vermiş terror hadisələrini müqayisəli surətdə nəzərdən keçirməyə imkan verir.

### Erməni terrorçuları tərəfindən nəqliyyatda törədilmiş terror aktları

#### Sərnişin avtobuslarında törədilmiş terror aktları

**1.1984-cü ildə** Bakı şəhərində 106 saylı marşrut avtobusu erməni terrorçusu Vartanov tərəfindən partladılmış, nəticədə 1 qadın həlak olmuş və 3 nəfər yaralanmışdır.

**2.16 sentyabr 1989-cu il** Tbilisi-Bakı marşurutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 5 nəfər həlak olmuş, 25 nəfər yaralanmışdır.

**3.13 fevral 1990-cı il** Yevlax-Laçın avtomagistralının 105-ci kilometrində Şuşa-Bakı marşrutu ilə hərəkət edən avtobus partladılmış, 13 nəfər azərbaycanlı yaralanmışdır. Terrorçuları həbs etmək mümkün olmamışdır.

**4.11 iyul 1990-cı il** tarixdə Tərtərdən Kəlbəcərə sərnişin aparan avtobus və xalq təsərrüfatı malları daşıyan maşın karvanına qarşı ermənilər tərəfindən terror aksiyası keçirilmiş, nəticədə 1 qadın, 7 kişi qətlə yetirilmiş, 23 nəfər isə ağır yaralanmışlar (cinayət işi 44/33013). İstintaq zamanı müəyyən edilmişdir ki, terror aksiyasını Xankəndi şəhər sakinləri Napaleon ləqəbli Ayriyan Arkadi Abramoviç və Babayan Samvel Andronikoviç törətmişlər. Onlar 1990-cı il dekabrın 15-də Əsgəran rayonunun Cəmilli və Kosalar kəndi arasında 3 nəfər azəbaycanlı kəndlisini qətlə yetirmişlər. Hər 2 cinayətkar həbs olunmuş, 1992-ci il iyunun 19-da ölüm hökmünə məhkum edilmişlər. S.Babayan 1992-ci ilin iyulunda azərbaycanlı girov və əsirlərlə dəyişdirilmişdir. (1993-99-cu illərdə qondarma DQR-in müdafiə naziri olmuş, hazırda o, prezident A.Qukasyana qarşı sui-qəsddə təqsirli bilinir).

**5.10 avqust 1990-cı ildə** "Şamxor-Gəncə" avtomobil yolunda Xanlar rayonunun Nadel kəndi yaxınlığında "LAZ" markalı 43-80 AQF nömrəli avtobus partladılmış, nəticədə 17 nəfər həlak olmuş, 16 nəfər yaralanmışdır.

**6.10 avqust 1990-cı il** - Tbilisi-Ağdam marşurutu ilə hərəkət edən sərnişin avtobusu partladılmış, 20 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Cinayəti törətmiş erməni terrorçuları Armen Mixayloviç Avanesyan və Mixayil Mixayloviç Tatevosov həbs olunmuş, 1992-ci ilin mayında A.Avanesyan ölüm cəzasına məhkum edilmiş, M.Tatevosov isə 15 il azadlıqdan məhrum edilmişdir. İstintaq zamanı məlum olmuşdur ki, cinayətkarlar 1991-ci ilin iyulun 17-də Ağdam-Tbilisi marşurutu ilə hərəkət edən sərnişin avtobusunu da partlatmağı planlaşdırmış, lakin özlərindən asılı olmayan səbəblərdən aksiyanı həyata keçirə bilməmişlər. M.Tatevosov 1992-ci ilin may ayında Tərtər rayonunda azərbaycanlı girovlarla dəyişdirilmişdir.

**7.30 noyabr 1990-cı ildə** Əsgəran rayonundakı Ağa körpü adlanan ərazidə DİN əməkdaşlarını Şuşadan Xankəndi aeroportuna aparan avtobus partladılmış, nəticədə 2 milis işçisi yaralanmışdır.

**8.14 mart 1991-ci ildə** "Ağdam-Şuşa" marşrutu üzrə hərəkət edən avtobus partladılmış, 3 nəfər həlak olmuş, 4 nəfər yaralanmışdır.

**9.8 sentyabr 1991-ci il** tarixdə Ağdam-Qaradağlı marşrutu ilə işləyən avtobusun partladılması nəticəsindən 6 nəfər qətlə yetirilmiş, 36 nəfər yaralanmışdır; - Cəmi Qaradağlı kəndinin 77 nəfər mülki sakini terror qurbanı olmuşdur; Həmin tarixdə ermənilər Qaradağlı kəndində 3 nəfər kənd sakininin üzərinə dizel yanacağı tökərək yandırmış, iki nəfər Qaradağlı kənd sakininin başını kəsmişlər.

**Həlak olanlar: 68 nəfər (əsasən qadınlar, uşaqlar, qocalar)**
**Yaralananlar: 132 nəfər**

**Sərnişin va yük qatarlarında törədilmiş terror aktları**

**1. 24 mart 1990-cı ildə** “Noraşen-Bakı” yolunun 364-cü km-də dəmir yolu partladılmış, nəticədə teplovoz və 3 vaqon partladılmış, 150 metrdən çox dəmir yolu xətti yararsız hala düşmüşdür.

**2.30 may 1991-ci ildə** Dağıstanın Xasavyurt stansiyası yaxınlığında “Moskva-Bakı” sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 22 nəfər ağır yaralanmışdır.

**3. 31 iyun 1991-ci ildə** Dağıstan Respublikasının Temirtau stansiyasının yaxınlığında “Moskva-Bakı” sərnişin qatarı partladılmış, 16 nəfər həlak olmuş, 20 nəfər ağır yaralanmışdır. Cinayətkarı müəyyən etmək mümkün olmamışdır.

**4.28 fevral 1993-cü il** - Dağıstan Respublikası ərazisində, Qudermes stansiyası yaxınlığında “Kislovodsk-Bakı” sərnişin qatarı partladılmış, 11 nəfər həlak olmuş, 18 nəfər yaralanmışdır.

**5.2 iyun 1993-cü** il - Bakı Dəmir yol vağzalında ehtiyat yolda dayanan sərnişin qatarının vaqonu partladılmışdır. Həlak olan və yaralanan yoxdur. Cinayəti törətmiş Xatkovski İqor Anatolyeviç 1994-ci il iyunun 22-də AR Hərbi Məhkəməsinin hökmü ilə 8 il azadlıqdan məhrum edilmişdir.

**6.1 fevral 1994-ci ildə** - Bakı Dəmir yol vağzalında Kislovodsk-Bakı sərnişin qatarında terror aktı törədilmiş, 3 nəfər həlak olmuş, 20 nəfər yaralanmışdır.

**7.9 fevral 1994-cü ildə** Xudat stansiyası yaxınlığında ehtiyat yolda dayanan yük vaqonu partladılmışdır.

**8.13 aprel 1994-cü** il Dağıstan Respublikasının Daqestanskie Oqni stansiyasının yaxınlığında Moskva-Bakı sərnişin qatarı partladılmış, 6 nəfər həlak olmuş, 3 nəfər yaralanmışdır.

**Həlak olanlar: 74 nəfər**
**Yaralananlar: 125 nəfər**

**Bakı metropolitenində törədilən terror aktları 1.19 mart 1994-cü il**

Bakı metropoliteninin 20 yanvar stansiyasında elektrik qatarında törədilmiş terror aktı nəticəsində 14 nəfər həlak olmuş, 49 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. İstintaq tədbirləri zamanı müəyyən edilmişdir ki, terror aksiyası Ermənistan XXO rəhbərliyi ilə separatçı Sadval Ləzgi Xalq Hərəkatı təşkilatının üzvləri tərəfindən həyata keçirilmişdir.

**2.3 iyul 1994-cü il** Bakı metropoliteninin 28 may - Gənclik stansiyaları arasında elektrik qatarında törədilmiş partlayış nəticəsində 13 nəfər həlak olmuş, 42 nəfər müxtəlif dərəcəli bədən xəsarəti almışdır. Cinayəti əsirlikdə olarkən Ermənistan xüsusi xidmət orqanları tərəfindən məxfi əməkdaşlığa cəlb edilərək

terror aksiyası həyata keçirmək tapşırığı ilə respublikaya göndərilmiş AR vətəndaşı Azər Salman oğlu Aslanov törətmişdir.

**Həlak olanlar: 27 nəfər**
**Yaralananlar: 91 nəfər**

### Hava nəqliyyatında törədilmiş terror aktları

**1.20 noyabr 1991-ci il** Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında erməni terrorçuları tərəfindən Mİ-8 tipli vertolyot vurulmuşdur. Nəticədə Xankəndinə sülhməramlı missiya ilə səfər edən 22 nəfər - AR Milli Məclisin deputatı, Dövlət katibi T.İsmayılov, Baş nazirin müavini millət vəkili Z.Hacıyev, Dövlət müşaviri millət vəkili M.Əsədov, Baş Prokuror İ.Qayıbov, millət vəkilləri V.Cəfərov və V.Məmmədov, AR Prezident Aparatının şöbə müdiri O.Mirzəyev, Meliorasiya və su təsərrüfat nazirinin birinci müavini Q.Namazəliyev, Dağlıq Qarabağ Muxtar Vilayətinin prokuroru İ.Plavski, MTN-in DQMV üzrə İdarəsinin şöbə rəisi S.İvanov, DQMV Daxili İşlər İdarəsinin rəisi V.Kovalyov, DQMV Fövqəladə vəziyyət rayonunun komendantı N.Cinkin, AR Dövlət katibinin köməkçisi R.Məmmədov, Azərbaycan Respublikası Dövlət Teleradio Şirkətinin əməkdaşları, A.Mustafayev, A.Hüseynzadə və F.Şahbazov, Rusiya federasiyasından olan müşahidəçilər general-mayor M.Lukaşov, və podpolkovnik V.Koçarov, Qazaxstan Respublikasının Daxili İşlər Nazirinin birinci müavini S.Serikov və 3 nəfər ekipaj üzvü həlak olmuşdur.

**2.28 yanvar 1992-ci il** Şuşa şəhəri yaxınlığında Ağdam-Şuşa marşrutu ilə sərnişin daşıyan mülki vertolyot erməni terrorçuları tərəfindən vurulmuş, əksəriyyəti qadın və uşaq olan 41 nəfər sərnişin və 3 ekipaj üzvü həlak olmuşdur.

**3.18 mart 1994-cü ildə** Xankəndi şəhəri yaxınlığında erməni terrorçuları tərəfindən İran Hərbi Hava Qüvvələrinə məxsus Herkules tipli təyyarə vurulmuş, 34 nəfər həlak olmuşdur.

**Həlak olanlar: 104 nəfər**

**Sərnişin daşıyan dəniz bərəsində törədilmiş terror aktı**

1.08 yanvar 1992-ci ildə “Krasnovodsk-Bakı” sərnişin bərəsi partladılmış, nəticədə 25 nəfər həlak olmuş, 88 nəfər ağır yaralanmışdır.

**Yaşayış məntəqələrində və mülki obyektlərdə törədilmiş terror aktları**

**1.15 may 1988-ci ildə** Kəlbəcər rayonunun Kapalı kəndində X.İsmayılovun evi partladılmış, 3 nəfər həlak olmuşdur.

**2.1988-ci ilin** yayında Xankəndi Uşaq xəstəxanasında həkim-rentgenoloq işləyən əslən ağdamlı şəxs erməni milliyyətindən olan iş yoldaşları tərəfindən xəstəxananın həyətində döyülərək qətlə yetirilmişdir.

**3. iyul 1988-ci il** tarixdə ermənilər tərəfindən Xocavənd rayonunda yaşayan azərbaycanlıların həyətyanı sahəsinə atılmış əl qumbarası nəticəsində iki partlayış hadisəsi baş vermiş və iki nəfər mülki şəxs yaralanmışdır.

**4.28.06.1989-cu il** tarixdə ermənilər tərəfindən Bədərə kəndindən Meşəliyə gedən şosse yoluna qoyulmuş partlayıcı qurğunun işə düşməsi nəticəsində maşındakı 6 nəfər mülki azərbaycanlı ağır yaralanmışlar.

**5.16 oktyabr 1989-cu il** tarixdə iki nəfər Kərkicahan qəsəbə sakinləri evə qayıdarkən ermənilər tərəfindən qətlə yetirilmişlər.

**6.19 oktyabr 1989-cu ildə** Culfa rayonunun Ərəfsə kəndi yaxınlığında yerli sakinlər Q.Bayramov və İ.Qafarov qətlə yetirilmişlər.

**7.14 noyabr 1989-cu ildə** Qubadlı rayonunun Seytas kəndi yaxınlığında kənd sakini Babaşov qətlə yetirilmiş, azyaşlı X.Əliyev yaralanmışdır.

**8.17 noyabr 1989-cu ildə** Hadrut rayonunun Tuğ kəndində 9-cu sinif şagirdi T.Süleymanov qətlə yetirilmişdir.

**9.24 noyabr 1989-cu il** tarixdə üç nəfər Qaradağlı kənd sakini qətlə yetirilmişdir.

**10.29 noyabr 1989-cu ildə** Qubadlı rayonunda Q.Ələsgərov, T.Hümbətəliyev və Mehdiyev qətlə yetirilmişlər.

**11.9 yanvar 1990-cı il** tarixdə Qaradağlı kəndi, N.Nərimanov adına kolxozun sədri S.Bayramov qətlə yetirilmişdir;

**12.31 yanvar 1990-cı ildə** Gədəbəy rayonuda A.Cəmilov, M.Vəliyev, A.Zeynalov, A.Qurbanov, İ.Hüseynov, F.Niftəliyev qətlə yetirilmişlər.

**13.8 mart 1990-cı il** tarixdə iki nəfər Qaradağlı kənd sakini Vərəndəli fermasında qətlə yetirilmişdir.

**14.4 mart 1990-cı ildə** Qazax rayonunun Bağanıs-Ayrım kəndində 7 nəfər dinc sakin diri-diri yandırılmış, 1 nəfər yaralanmış, 13 yaşayış evi partladılmışdır.

**15.4 mart 1990-cı il** tarixdə erməni quldurları Qazax rayonunun Bağanis-Ayrım kəndinə silahlı basqın edərək 7 nəfər azərbaycanlını qətlə yetirmişlər, 2 nəfəri isə ağır yaralamışlar (cinayət işi 11709).

**16.24 mart 1990-cı il** tarixdə Bakı şəhərindən Bağanis-Ayrım kəndinə qonaq getmiş, əslən Qazax rayonu Çaylı kənd sakinləri olan 3 nəfər mülki şəxs ermənilər tərəfindən qətlə yetirilmişlər (cinayət işil 1709).

**17.28 mart 1990-cı ildə** Kərməçataq kəndində bir neçə yaşayış evləri yandırılmış, mal-qara aparılmış, Azərbaycan KP VPK-nin dövlət hüquq şöbəsinin sədri V.Zeynalov qətlə yetirilmişdir.

**18.29 mart 1990-cı il** tarixdə ermənilərin Tovuz rayonunun Əlibəyli kəndinə hücumu nəticəsində 3 nəfər yaralanmışdır.

**19.09 aprel 1990-cı ildə** Qubadlı rayonunun Çayzəmi kəndində "UAZ-462" markalı 96-92 AQD dövlət nömrə nişanlı avtomobil partladılmış, nəticədə rayon sakini Ş.Həsənov həlak olmuş, N.Mehdiyev və T.Eyvazov yaralanmışdır.

**20.26 iyun 1990-cı ildə** Gədəbəy rayonunun Göyəli adlanan ərazisində yerli sakinlər Nuriyev, Nağıyev və Orucov qətlə yetirilmişlər.

**21.08 avqust 1990-cı ildə** Laçın rayonunun ərazisində "QAZ-53" markalı avtomaşın partladılmış, nəticədə 2 nəfər həlak olmuş, 1 nəfər ağır yaralanmışdır.

**22.9 yanvar 1991-ci il** Molodyoj Azerbaydjana qəzetinin müxbiri S.Əsgərova və hərbi qulluqçular – podpolkovnik S.Larionov, mayor İ.İvanov və serjant İ.Qoekinin hərəkət etdiyi avtomobil Laçın-Şuşa yolunun 5-ci kilometrində erməni terrorçuları tərəfindən atəşə tutulmuş, sərnişinlərin 4-ü də qətlə yetirilmişdir. Cinayətkarlar - Mkrtçyan Arno Mixayloviç, Petrosyan Qraçik Armenakoviç, Manqasaryan Arvid Aşotoviç, Arustamyan Qaqik Mayoroviç müəyyənləşdirilərək həbs olunmuş, 1993-cü ildə ölümə məhkum edilmişlər. Terrorçu qrupunun digər üzvləri -Mkrtçyan Artaşes Mixayloviç, Zaxaryan Artur Artaşesoviç, Sarkisyan Manvel Şabaqatoviç, Osipyan Yenok Rubenoviç 15 il müddətinə, Qriqoryan Qaraqen Serikoviç 5 il müddətinə həbs cəzasına məhkum olunmuşlar. Göstərilən şəxslərin hamısı 1996-cı il mayın 8-də birtərəfli qaydada Ermənistana verilmişdir.

**23.9 yanvar 1991 - ci il** - Xankəndi şəhərində Baqmanyan Akop Qavruşoviç, Baqmanyan Samvel Qavruşoviç və Antonyan Artyuşa Qriqoryeviç tərəfindən Dağlıq Qarabağ Muxtar vilayətinin Daxili İşlər İdarəsinin rəisi general-mayor V.Kavalyovun həyatına sui-qəsd edilmişdir.

**24.27 yanvar l991 - ci ildə** Xanlar rayonunun Dozular kəndi yaxınlığında "VAZ-2106" markalı S 25-10 AQ və "QAZ-52" markalı 59-07 AQN dövlət nömrəli avtomaşınlar partladılmış, nəticədə 3 nəfər həlak olmuş, 2 nəfər ağır yaralanmışdır.

**25.20 fevral 1991-ci ildə** Xanlar rayonunun Dozular kəndi yaxınlığında "UAZ-469" markalı 27-29 AQD dövlət nömrəli avtomaşını partladılmış, nəticədə sovxoz direktoru Q.Musayev və sürücü D.İmanov həlak olmuşlar.

**26.24 fevral 1991-ci ildə** Xankəndi yaxınlığında Şuşadan Ağdam rayonuna gedən "PAZ-3205" markalı dövlət nömrəli avtobus partladılmış, nəticədə 7 nəfər ağır yaralanmışdır.

**27.7 aprel 1991-ci ildə** Qubadlı rayonunun Yuxarı Kibikli kəndində hərbi komendantın müavini Y.Babak və 2 nəfər qətlə yetirilmiş, 4 nəfər ağır yaralanmışdır.

**28.8 aprel 1991-ci il** - SSRİ Din Daxili Qoşunlar Zaqafqaziya və Şimali Qafqaz üzrə İdarəsinin rəis müavini polkovnik V.Blaxotin qətlə yetirilmişdir.

**29.** Cinayəti törətmiş S.Baqmanyan, A.Baqmanyan, A.Antonyan, K.Akopyan, K.Yegiyan müəyyənləşdirilərək həbs lunmuş, RF Rostov vilayəti məhkəməsinin Kollegiyası tərəfindən-müxtəlif müddətlərə azadlıqdan məhrum edilmişlər.

**30. 6 aprel** 1991-ci ildə Ağdamdan Füzuli rayonuna gedən “Moskviç-412” markalı 93-69 AQV dövlət nömrəli avtomaşını Martuni rayonu ərazisində partladılmış, 2 nəfər həlak olmuş və 2 nəfər ağır yaralanmışdır.

**31.16 aprel 1991-ci ildə** Goranboy rayonunun Zeyvə kəndinin otlaq sahəsində 2 nəfər sovxoz fəhlələri qətlə yetirilmişdir.

**32.18 aprel 1991-ci ildə** Füzuli rayonunun Aşağı Divanalılar kəndində 3 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**33.18 aprel 1991-ci ildə** Xocavənd rayonunda Q.Sarkisyanın başçılıq etdiyi erməni terrorçuları 3 nəfəri qətlə yetirmişlər.

**34.20 aprel 1991-ci ildə** Goranboy rayonun Gürzəlilər kəndində 1 nəfər milis işçisi qətlə yetirümiş, 2 nəfər ağır yaralanmışdır.

**35.28 aprel 1991-ci ildə** Naxçıvan MR Şərur rayonunun Sədərək qəsəbəsində partlayış nəticəsində 14 nəfər ağır yaralanmışdır.

**36. 29 aprel 1991-ci ildə** Qazax rayonunda 3 nəfər ağır yaralanmışdır.

**37. 9 may 1991-ci il** Xankəndi şəhərində AR Dağlıq Qarabağ üzrə təşkilat komitəsinin üzvü V.Polyaniçkonun həyatına sui-qəsd edilmişdir.

**38. 1991-cı il iyunun 27-dən 28-nə keçən gecə** terrorçu qrup tərəfindən Xocavənd rayonunun Qaradağlı kəndinə silahlı basqın olunmuş, 6 nəfər dinc sakin qətlə yetirilmişdir.

**39. 1991-ci ilin yayında** Xankəndi-Şuşa avtomobil yolunda SSRDİN Daxili Qoşunlar mayoru Xomiç qətlə yetirilmişdir.

**40. 1 may 1991-ci ildə** Hadrut rayonunun Tuğ kənd orta məktəbinə məxsus “UAZ-469” markalı maşın partladılmış, nəticədə 3 nəfər həlak olmuşdur.

**41.2 may 1991-ci ildə** Füzuli rayonundan Hadrut rayonunun Tuğ kəndinə gedən “UAZ-469” markalı 30-78 AQD dövlət nömrə nişanlı avtomaşın partladılmış, nəticədə 1 nəfər ağır yaralanmışdır.

**42.2 may 1991-ci ildə** Ağdam rayonunun Gülablı kəndində 1 nəfər qətlə yetirilmişdir.

**43.3 may 1991-ci ildə** Qazax rayonunda 2 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

**44.15 may 1991-ci ildə** Kəlbəcər rayonunun Yelican kəndi yaxınlığında 1 nəfər qətlə yetirilmişdir.

**45. may 1991-ci ildə** Laçın rayonunun Ermənistanla həmsərhəd olan Sadıllar kəndində yerləşən mühafizə postunda Laçın RDİŞ 4 nəfər milis işçiləri qətlə yetirilmişdir.

**46. may 1991-ci ildə** Hadrut rayonunun Dolanlar kəndində 1 nəfər qətlə yetirilmiş, 1 nəfər ağır yaralanmışdır.

**47.3 may 1991-ci ildə** Hadrut rayonunun Yuxarı Fərəcli kəndinin kənarında yerləşən mühafizə postunda 1 nəfər qətlə yetirilmiş, 2 nəfər ağır yaralanmışdır.

